AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT NAZİRLİYİ
MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİ

# AKADEMİK ZİYA BÜNYADOV-100

**K a t a l o q**

**(Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası əsasında)**

**BAKI – 2023**

**Milli Azərbaycan Tarixi Muzeyi Elmi Şurasının qərarı ilə nəşr olunur**

**Akademik Ziya Bünyadov-100. Kataloq (Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası əsasında). Tərtibçi: Fərhad Cabbarov. Bakı: "Aspoliqraf", 2023, 168 s.**

**Elmi redaktor:** **Nailə Vəlixanlı**

**Məsləhətçi:** **Zemfira Qurbanova**

*"O, öz varlığı ilə elə bir insan idi ki, böyük, şərəfli həyat yolu ilə elə bir yüksək səviyyəli şəxsiyyət adı almışdı ki, onun haqqında nə qədər çox desək də, yenə də tam qiymətini verə bilməyəcəyik."*

***Heydər Əliyev***

*"Akademik Ziya Bünyadov zəngin elmi yaradıcılıq yolu keçmiş, respublikamızda şərqşünaslıq və tarix elmlərinin yeni mərhələyə yüksəlməsinə, ümumən, elmin təşkili işinə böyük əmək sərf etmişdir. Ziya Bünyadov Azərbaycan xalqının tarixinin saxtalaşdırılması cəhdlərinə qarşı daim ardıcıl və qətiyyətli mübarizə aparmış, taleyüklü milli məsələlərə münasibətdə hər zaman vətənpərvər ziyalı mövqeyi ilə seçilmişdir."*

***İlham Əliyev***

# MÜNDƏRİCAT

Tərtibçidən....5

*Nailə Vəlixanlı.* Akademik Ziya Bünyadovun yaradıcılığına dair....7

Ziya Bünyadovun həyat yolunu əks etdirən materiallar....13

Ziya Bünyadovun Milli Azərbaycan Tarixi Muzeyində qorunan kolleksiyasının kataloqu....116

Adlar göstəricisi....158

## Tərtibçidən

2023-cü ildə adı XX əsr Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış dünya şöhrətli alim, akademik Ziya Bünyadovun 100 yaşı tamam olur. Azərbaycanın, Yaxın və Orta Şərqin orta əsrlər tarixinin ən tanınmış tədqiqatçılarından olan Ziya Bünyadovun qələmindən çıxan monoqrafiyalar, tərcümə və şərhi ilə nəşr etdirdiyi mənbələr bu gün də istər orta əsrlər, istərsə də yeni və ən yeni dövr tarixi araşdırmaçılarının stolüstü kitablarıdır. Ziya Bünyadovun elmi yaradıcılığından bəhs edərkən tez-tez "birinci" və "ilk" sözlərini işlətməli olursan:

- o, Azərbaycanın "ərəb dövrü" tarixinin ilk fundamental tədqiqatçısıdır, yazdığı "Azərbaycan VII-IX əsrlərdə" monoqrafiyasına isə bu dövrlə məşğul olan bütün alimlər indiyədək müraciət etməkdədir;
- o, Azərbaycan və həmhüdud ölkələrin, Yaxın və Orta Şərqin, Mərkəzi Asiyanın tarixinə dair ərəb, fars, Osmanlı türkcəsi və Avropa dillərindəki onlarla mənbəni ilk dəfə tərcümə və şərhlərlə nəşr etdirmişdi;
- o, Azərbaycan Atabəyləri (Eldənizlər) dövləti tarixinin ilk araşdırıcısıdır;
- o, orta əsrlərdə Mərkəzi Asiyada mövcud olmuş qüdrətli dövlətin - Xarəzmşahların tarixinin ilk fundamental tədqiqatçısıdır;
- o, Azərbaycan Cümhuriyyəti Parlamentinin sonuncu, ən dramatik iclasının stenoqramını birinci dəfə arxivlərdən tapmış və nəşr etdirmişdir;
- o, keçmiş Dövlət Təhlükəsizlik Komitəsinin arxivlərində çalışmış ilk azərbaycanlı alim idi və məhz bu əməyi sayəsində ötən əsrin 30-cu illərində repressiyaya məruz qalmış bir çox alimin və ictimai xadimin istintaq materialları geniş auditoriyaya məlum olmuşdur.

Təbii ki, bu "ilk"lər Ziya Bünyadovun Azərbaycan üçün, Azərbaycan elmi üçün elədiklərinin çox az hissəsidir və siyahını daha da artırmaq olar.

Ziya Bünyadov Böyük alim olmaqla yanaşı, həm də Böyük vətəndaş idi, Vətənin bütövlüyü, millətinin haqqı ilə bağlı məsələlərdə həmişə prinsipal və barışmaz idi. O, elmdə erməni saxtakarlığına qarşı mübarizə apardığı kimi, 1988-ci il Meydan hərəkatı zamanı, yüksək tribunalarda da ermənilərin ərazi iddialarına qarşı öz səsini ucaldırdı. İkinci Dünya müharibəsinin qanlı döyüşlərindən sağ çıxan, igidliyinə görə SSRİ-nin ən ali təltifinə – Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən Ziya Bünyadov, təəssüf ki, 1997-ci ildə terrorun qurbanı oldu. Onun ölümü təkcə elmi ictimaiyyət üçün yox, bütövlükdə Azərbaycan üçün böyük itki idi. Bu itkinin yeganə təsəllisi akademik Ziya Bünyadovun əmanət qoyduğu zəngin elmi irs və bir də unudulmaz xatirəsinin Azərbaycan xalqının qəlbində yaşamasıdır.

Ziya Bünyadovun 100 illiyi münasibətilə hazırlanan bu kataloq onun Milli Azərbaycan Tarixi Muzeyində toplanan materialları əsasında tərtib olunub. Kataloqa alimin fotoşəkilləri, sənədləri, əlyazmaları, şəxsi əşyaları və s. daxil edilib. Maraqlıdır ki, Ziya Bünyadovun əşyaları muzeyə ilk dəfə 1968-ci ildə, yəni özünün sağlığında daxil olunub. O vaxt muzey kolleksiyasının zənginləşdirilməsi məqsədilə tarix elmləri doktoru, professor Ziya Bünyadovdan toplanılan üç material olub. General-polkovnik N.Berzarinin Sovet İttifaqı Qəhrəmanı, kapitan Ziya Bünyadova "Lenin" ordeni və "Qızıl Ulduz" medalını təqdim etdiyini əks etdirən fotoşəkil, Ali Baş Komandan, Sovet İttifaqının Marşalı İosif Stalinin Almaniyanın paytaxtı Berlin şəhərinin alınmasına görə kapitan Ziya Bünyadova və onun döyüşdüyü bütün hərbi birləşməyə təşəkkür elan edilməsini bildirən sənəd və Ziya Bünyadovun müharibə vaxtı istifadə etdiyi planşet görkəmli şəxsiyyətin muzeydə qorunan kolleksiyasının ilk eksponatlarıdır. Göründüyü kimi, bu eksponatlar bilavasitə onun ömrünün İkinci Dünya müharibəsi dövrü ilə bağlı materiallar idi. Sonrakı illərdə – artıq Ziya Bünyadovun ölümündən sonra ona mənsub əşyalar həyat yoldaşı Tahirə Bünyadova, AMEA akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Ziya Bünyadov" kabinetinin müdiri Zemfira Qurbanova və gəlini Leyla Zülfüqarova tərəfindən muzeyə hədiyyə olunmuşdur. Muzeyin beş fondunda və kitabxanasında qorunan bu qiymətli sənəd və əşyalar Ziya Bünyadovun həyat yolunu, onun çoxşaxəli fəaliyyətini əks etdirən unikal və maraqlı materialdır. Onu da qeyd edim ki, təqdim olunan kataloq Ziya Bünyadovun Milli

Azərbaycan Tarixi Muzeyində qorunan irsinin tanıdılması istiqamətində atılmış ilk addımdır. Növbəti ildə dünyanın müxtəlif ölkələrindən tanınmış elm adamlarının, həmçinin Azərbaycandan sadə insanların böyük alimə, əsl vətəndaşa yazdıqları məktubların nəşri nəzərdə tutulur. Bununla Milli Azərbaycan Tarixi Muzeyi xalqımızın görkəmli şəxsiyyətlərinin həyat və yaradıcılığının populyarlaşdırılması yönündə apardığı elmi tədqiqat və maarifçilik missiyasına sadiqliyini bir daha nümayiş etdirir.

Bu əsərin ərsəyə gəlməsində dəstəyi olmuş insanlara – elmi redaktor, akademik Nailə Vəlixanlıya, kataloqun təşəbbüskarı olmuş, onun ilkin variantını hazırlamış muzeyin əməkdaşları Esmira Rəhimovaya və Nərmin Bağırovaya, fotoşəkillərin atributasiyasında köməklik göstərmiş alim həmkarlarımız Bəxtiyar Sayılova, Ədalət Tahirzadəyə, Solmaz Rüstəmova-Tohidiyə, Tamilla Kərimovaya, Namiq Əliyevə, Əzizağa Nəcəfova, mətnlərin yığılmasında iştirak etmiş Xatirə Novruzovaya, həmçinin fotoqraf Mirnaib Həsənova təşəkkür bildirməyi özümə borc bilirəm.

***Kataloqda aşağıdakı ixtisarlar qəbul olunub:***

*DTK* – Dövlət Təhlükəsizlik Komitəsi.
*EA* – Elmlər Akademiyası.
*FMF* – Fotoneqativ materialları fondu.
*HXƏF* – Hədiyyələr və xatirə əşyaları fondu.
*KMF* – Köməkçi materiallar fondu.
*KP MK* – Kommunist Partiyasının Mərkəzi Komitəsi.
*KTFMF* – Köməkçi tarixi fənn materialları fondu.
*OADKYC* – Orduya, Aviasiyaya, Donanmaya Könüllü Yardım Cəmiyyəti.
*SMF* – Sənədli materiallar fondu.
Sov.İKP MK – Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi.
*ÜLKGİ MK* – Ümumittifaq Lenin Kommunist Gəncləri İttifaqının Mərkəzi Komitəsi.



## Akademik Ziya Bünyadovun yaradıcılığına dair

Dünya şərqsünaslıq elminin görkəmli nümayəndələrindən olan akademik Ziya Musa oğlu Bünyadov (1923-1997) tariximizin ən mürəkkəb, sonrakı yüzillər üçün də həlledici əhəmiyyət daşıyan orta əsrlər dövrünün əvəzedilməz mütəxəssisidir. Onun 1950-ci ildə elm aləminə atıldığı ilk gündən başlayaraq qələmə aldığı müxtəlif məzmunlu çoxsaylı əsərləri Ziya Bünyadovun qeyri-adi istedad və zəhmətsevərliyini, tükənməz enerjisini, zəngin biliyini nümayiş etdirir. Şərqşünaslığın ən müxtəlif sahələrinə həsr olunmuş bu işlərdə dilimizin, mədəniyyətimizin bugünkü simasının müəyənləşməsində mühüm rol oynamış "ərəb dövrü" mərhələsinin öyrənilməsi ilə yanaşı, bütün orta əsrlər müsəlman dünyasının siyasi, ictimai, iqtisadi, mədəni tarixinə dair müxtəlif problemlər də tədqiq edilmişdir.

Tükənməz biliyi, dərin zəkası Ziya Bünyadova mütəxəssisi olduğu dövrün qaranlıq səhifələrini aşkarlaşdırmaq imkanı verirdisə, müasir elmi səviyyədə hazırlığı, alimlik vicdanı və vətəndaşlıq mövqeyi onu öz tədqiqat dövrünü, obyektini və dairəsini daha da genişləndirməyə sövq edirdi. Onun elmi axtarışları üçün mövzu, vaxt, zaman, hətta məkan çərçivəsi yox idi. Ziya Bünyadovun öz sözləri ilə desək "tariximizin bütün dövrləri, bütün problemləri onun üçün həmişə dərin maraq doğurmuşdur" (1). Elə buna görə də Ziya Bünyadovun yetirmələri arasında erkən orta əsrlərdən bu günədək olan dövrün tarixinə, coğrafiyasına, iqtisadiyyatına, dilinə, ədəbiyyatına, fəlsəfəsinə dair əsərlər yazmış mütəxəssislər vardır.

Orta əsrlər müsəlman dünyasının, o cümlədən Azərbaycanın, ölkəmizdə hələ XIX yüzildə Abbasquluağa Baxıxanov tərəfindən başlanan tədqiqi sonralar B.A.Dorn, N.V.Xanıkov, V.V.Bartold, A.Y.Krımski, Ə.Ə.Əlizadə, V.F.Minorski, K.V.Trever, Ə.Kəsrəvi, S.B.Aşurbəyli və onlarla başqaları tərəfindən davam etdirilsə də, öyrənilən dövrə dair ən qiymətli yazılı mənbələrin aşkarlaşdırılması məhz Ziya Bünyadovun adı ilə bağlıdır. Azərbaycanda müstəqil şərqşünas-mənbəşünas məktəbinin yaranmasına gətirib çıxaran bu fəaliyyət nəticəsində ərəb, fars, türk və başqa dillərdə yazılmış neçə-neçə əlyazması və kitab elmin xidmətinə verilmiş, bu mənbələrin tədqiqi və təhlili isə təkcə azərbaycanlıların deyil, ərəblərin, türklərin, iranlıların, özbəklərin, gürcülərin, moldavların və başqa xalqların ömür yolunu işıqlandırmış, yeni faktlar tariximizin bir çox oxunmaz səhifələrini bərpa etmişdir. Bununla belə, Ziya Bünyadov yaradıcılığının əsas istiqaməti başlıca olaraq orta çağ Azərbaycanının və bununla bağlı Ərəb xilafəti tarixinin öyrənilməsinə doğru yönəlmişdir. Əgər əsrimizin 40-50-ci illərində alimlərimizin bu sahədə gördükləri işləri yalnız başlanğıc kimi qiymətləndirmək olarsa, Ziya Bünyadovun Azərbaycan tarixşünaslığında son 40 ildə apardığı araşdırmalar tariximizin bu dövrünün geniş elmi tədqiqi hesab edilməlidir. Artıq 60-cı illərin əvvəllərində o, Azərbaycan tarixi araşdırıcılarının ön cərgəsinə keçmiş, az sonra Azərbaycan şərqşünaslıq elminin liderinə çevrilə bilmiş, bu sahədə vətənimizdə və ondan kənarlarda fəaliyyət göstərən bir çox həmkarlarını geridə qoymuşdu. Onun yazdığı əsərlər mənbələrin müqayisəli təhlilinə əsaslanmış, tədqiq etdiyi problem və məsələlər öz dərin orijinal həllini tapmışdır.

Ərəb, fars, türk, rus, ingilis, italyan dillərini mükəmməl bilən Ziya Bünyadov elmə gətirdiyi yeni yazılı mənbələrdən uzaq tarixi keçmişimizdə baş verən hadisələrin dəqiqləşdirilməsi üçün istifadə etmişdir. Onun fikrincə, "tarixşünaslıq elmin elə bir sahəsidir ki, burada subyektiv fikir, mülahizə tədqiqatçını hər an öz təsiri altına ala bilər, onun həqiqətdən uzaqlaşmaq təhlükəsini artıra bilər. Çünki tarixçinin marağı həmişə tədqiq etdiyi ictimai prosesin həm obyektiv, həm də subyektiv tərəfinə meyl edir. Tarixi-elmi həqiqət yalnız o zaman öz düzgün həllini tapa bilər ki, tədqiqatçı öz marağından asılı olmayaraq tarixi prosesin hər iki tərəfini – obyektiv və subyektiv tərəfini dialektik surətdə öz əsərində əks etdirə bilsin" (2). Görünür, məhz bu amil tarixçi Ziya Bünyadovun müxtəlif mənbələrin müqayisəli təhlilindən doğan nəticələrə əsaslanan fikir və mülahizələrə daha çox üstünlük verməsinə, hər hansı tarixi hadisə və ya problemi özündə əks etdirən mənbələri aramasına, onlara həyat verməsinə səbəb olmuşdur.

Ziya Bünyadovun zəngin yaradıcılığı Azərbaycan və Xilafət tarixi ilə məşğul olan bütün tədqiqatçılar üçün əvəzedilməz mənbə və ədəbiyyata çevrilmiş, onun artıq nadir biblioqrafik

nüsxəyə çevrilmiş əsərləri stolüstü kitab olmuşdur. 45 illik fəaliyyəti ərzində o, 450-yədək elmi əsər – monoqrafiya, məqalə, resenziyalar yazmış, elmi tərcümələr və şərhlər etmiş, Azərbaycan Sovet Ensiklopediyası üçün onlarla məqalə hazırlamışdır.

Görkəmli alim bir dəfə tədqiq etdiyi mövzuya yenidən qayıtmağı xoşlamazdı. Lakin məhz bu yorulmaz tədqiqatçının elmə gətirdiyi yeni mənbələr, xüsusilə əl-Kufinin, İbn əl-Fuvatinin və b. əsərlərindən Azərbaycana dair iqtibaslar onun ardıcıllarına tariximizin bir sıra səhifələrini yenidən vərəqləmək imkanı vermişdir.

Ziya Bünyadovun elm aləmində ilk böyük nailiyyəti "Azərbaycan VII-IX əsrlərdə" əsəri ilə bağlıdır. Gərgin zəhmətin, müxtəlif istiqamətlərdən yönəldilmiş hücumlara bilik silahı ilə sinə gərmənin nəticəsi olan bu qiymətli tədqiqat işi ona tarix elmləri doktoru alimlik dərəcəsini verdi. Dövrün Azərbaycan tarixşünaslığının ən qiymətli uğuru hesab edilən bu əsər 1965-ci ildə geniş oxucu kütləsinin ixtiyarına verildi. Azərbaycan tarixinin o vaxtadək çox zəif öyrənilmiş VII-IX əsrlər dövrü məhz bu əsərin işıq üzü görməsi sayəsində yeni məlumatlarla zənginləşdi və dərinləşdi. Müəllif əsər üzərində işlərkən fars, qədim erməni, gürcü və xüsusilə ərəbdilli mənbələri araşdırmış, əldə etdiyi nəticələri arxeoloqların, numizmatların və başqalarının tədqiqatları ilə müqayisələndirmiş, öyrənilən dövrlə məşğul olan onlarla alimin əsərlərinə müraciət etmişdir. Nəticədə ərəb işğalı ərəfəsində, dövründə və işğaldan sonrakı illərdə Azərbaycanın sosial-iqtisadi bə siyasi həyatında baş vermiş hadisələrin obyektiv şərhini əks etdirən sanballı tədqiqat əsəri yaradılmışdır. Burada Azərbaycan əhalisinin ərəblərəqədərki vəziyyəti ilə yanaşı ərəblərin, xəzərlərin və başqalarının Azərbaycana basqınları, torpaqlarımızın istilası, ərəblərin Azərbaycandakı inzibati və vergi siyasətləri, torpaq münasibətləri, idarə sistemi, əhalinin islamlaşması və qriqoryanlaşması problemi, şəhərlər, ticarət və ticarət yolları kimi mühüm məsələlər düzgün həllini tapmışdır. Kitabda tarixşünaslığımızda ilk dəfə olaraq Azərbaycan ərazisində IX yüzilin ikinci yarısında, xilafətin zəiflədiyi dövrdə yaranmış feodal dövlətləri və mülkləri haqqında ətraflı tədqiqat aparılmış, Babək və xürrəmilər hərəkatı dərin və hərtərəfli şərhini tapmışdır. Alman şərqşünası B.Şpulerin fikrincə, tədqiq edilən dövr və ölkə haqqında "böyük diqqətlə toplanılmış müvafiq material" Ziya Bünyadovun bu əsərini hələ uzun müddət erkən islam dövrü tariximizin "mötəbər" (3) mənbəyi edəcəkdir. Doğrudan da, məhz bu geniş məzmunlu tədqiqat işi Azərbaycan və ona qonşu ölkələr tarixinin erkən orta əsrlər dövrünü araşdıran alimlər üçün əvəzedilməz ədəbiyyat rolunu oynamış, müəllifin toxunduğu və əsasən düzgün işıqlandırdığı bir çox problem və məsələlər onun ardıcılları tərəfindən daha da dərinləşdirilmiş, müstəqil tədqiqat hədəfinə çevrilmişdir.

Azərbaycanın VII-IX əsrlər tarixinə dair ilk sanballı tədqiqat əsəri olan monoqrafiyasını hazırlamaqla Ziya Bünyadov Azərbaycan tarixinin öyrənilməsini dövrün müasir elmi səviyyəsinə çatdıra bilmişdir. Tarixşünaslarımız tərəfindən birmənalı qarşılanan, bədxahlarımızın kəskin iddialarına səbəb olan bu əsərin böyük əhəmiyyətini bütün təfsilatı ilə açıqlamaq heç də asan iş deyil, hər şeydən əvvəl, əsərin yazılması prosesində istifadə olunan zəngin mənbəşünaslıq bazasını xüsusi qeyd etmək lazımdır. Alman şərqşünası H.V.Brands əsərin məhz bu məziyyətini xüsusi vurğulamış, demək olar, heç bir əlçatan məxəzin müəllifin nəzərindən qaçmadığını söyləmişdir (4).

Hələ 1964-cü ildə, monoqrafiyanın nəşrindən bir il əvvəl, Ziya Bünyadovun Azərbaycan tarixinə dair ərəbdilli qaynaqların icmalını dərc etdirməsi onun bu sahədəki gərgin axtarışlarını nümayiş etdirir. Bu icmalla tanışlıq Azərbaycanın tarixinə, coğrafiyasına, dilinə, ədəbiyyatına və s. aid IX-XVIII əsrlərdə qələmə alınmış əksər ərəb mənbələrinin elmi araşdırmalarda daha geniş istifadə edilməsinə gətirib çıxardı. Tədqiqatçıların işlərini xeyli asanlaşdıran bu icmal yüzdən artıq mənbənin adını özündə cəmləşdirir. Maraqlıdır ki, sonrakı illərin tədqiqatları da öyrənilən dövrə aid çox cüzi mənbəni aşkara çıxarmış, bu işdə isə yenə də Ziya Bünyadovun fəaliyyəti üstünlük təşkil etmişdir. Onun bu sahədə gördüyü işlər arasında 1981-ci ildə Hindistandan göndərilmiş və o vaxtadək Azərbaycan, eləcə də köhnə Sovetlər Birliyi tarixşünaslığında adı da çəkilməmiş Əhməd ben Əsam əl-Kufinin "Kitab əl-futuh" əsərindən Azərbaycana dair iqtibasların rus dilində nəşri xüsusi yer tutur. Məhz bu yeni mənbə Azərbaycanın ərəblər tərəfindən işğalı məsələsinə, Babək və xürrəmilər hərəkatı tarixinə və xüsusilə xəzərlərin Azərbaycana hücumlarına dair başqa

mənbələrdə olmayan, alimin özünün də monoqrafiyasında istifadə etmədiyi yeni faktların üzə çıxarılmasını, Ziya Bünyadovun tədqiqat obyekti etdiyi problem və məsələlərin daha ətraflı, daha geniş şərh olunmasını təmin etmişdir. Bununla belə, müəllifin "Azərbaycan VII-IX əsrlərdə" əsərində təqdim etdiyi mənbə və ədəbiyyatın icmalı fəsli, eləcə də siyasi və sosial-iqtisadi tariximizə həsr edilmiş sonrakı fəsillərdə toplanılmış elmi material bu gün də öz ilkin əhəmiyyətini qoruyub saxlamışdır. Monoqrafiyada əhatə edilən taleyüklü vacib problem və məsələlərin bir qismini öz əsərlərində bir daha araşdıran, həmin məsələləri müstəqil tədqiqat obyektlərinə çevirən S.Aşurbəyli, M.Şərifli, V.Beylis, A.Novoseltsev, F.Məmmədova, N.Vəlixanlı və başqaları Ziya Bünyadovun irəli sürdüyü əksər tezisləri təsdiqləmiş, onların yalnız bir qismini yeni mənbələrə əsasən dəqiqləşdirmiş, görkəmli şərqşünasın əldə etdiyi elmi nətcələri yüksək qiymətləndirmişlər.

Azərbaycanın ərəblərəqədərki, son Sasanilər dövrü tarixini araşdıran Ziya Bünyadov bu böyük imperiyanın tərkibində strateji əhəmiyyətinə görə xüsusi mövqe tutan Qafqaz Albaniyasındakı siyasi şəraiti düzgün qiymətləndirə bilmiş, xəzərlərin VI əsrdən başlayan hücumlarının, Albaniyanın da cəlb olunduğu İran-Bizans vuruşlarının, ölkədəki sosial-iqtisadi münasibətlərin obyektiv şərhini vermişdir, Alban hökmdarları Vaçenin, Aquen dini yığıncağını çağırmış Vaçaqanın, ölkənin ictimai-siyasi həyatında mühüm rol oynamış katolikos Vironun, Mihranilərin qüdrətli nümayəndəsi Cavanşirin fəaliyyətləri də məhz Ziya Bünyadov tərəfindən layiqincə dəyərləndirilmişdir. Şərqşünas V.M.Beylisin rəyincə, Ziya Bünyadovun elmə birinci dəfə olaraq gətirdiyi faktlar alban katolikosu Vironun siyasi fəaliyyətinin məğzini açıqlaya bilmiş, Sasanilərə qarşı yönəldilmiş 603-604-cü illər üsyanının əsil mahiyyətini aşkara çıxarmışdır (5). Alban xristian kilsəsi və onun strukturu, erməni qriqorian kilsəsinin müstəqilliyini ləğv etmək yolunda fəaliyyətini, bu iki kilsə kalolikosluqları arasında davam edən uzunmüddətli gərgin mübarizə, eləcə də alban dili, mədəniyyəti, etnosunun aradan çıxmasının obyektiv və subyektiv səbəbləri də Ziya Bünyadovun dərin tədqiqatı sayəsində öz düzgün əksini tapmışdır (6). V.M.Beylisin haqlı qeydinə görə, "alban mədəniyyətinin varlığı fikrinə məhəl qoymayan bəzi mütəxəssislərdən fərqli olaraq Ziya Bünyadov alban dili və alban mədəniyyətinin tədricən yox olmasının səbəblərini açmağa çalışır. Kitabda gətirilmiş faktlar göstərir ki, VII-IX əsrlərdə alban ədəbi ənənəsi mövcud idi. Təəssüf ki, bizim əlimizdə alban dilinin erməni dili ilə əvəz olunması prosesinin necə getməsi haqqında fikir yürütmək üçün kifayət qədər material yoxdur. Lakin, çətin ki, bu əvəzolunma prosesində C.T.Yeremyanın hesab etdiyi kimi, alban dilinin hələ uzun müddət danışıq dili kimi qalması haqqında biz ərəb coğrafiyaşünaslarının (X əsrin ortaları) məlumatları əsasında mühakimə yürüdə bilərik. Nəticəsi "Albanların tarixi"ndə yekunlaşdırılan yerli alban ənənəsi də elə həmin dövrədək çatdırılır" (7).

Ərəblərin Azərbaycan ərazisinə hücumu məsələsini hərtərəfli işıqlandırmağa çalışan Zia Bünyadov onların özləri ilə gətirdiyi yeni ictimai münasibətləri, yeni vergi sistemi, yeni ideologiya haqqında geniş məlumat vermiş, şimallı-cənublu Azərbaycan ərazisinin Xilafətin tərkibində tutduğu mövqeyini, Xilafətin zəifləməsi nəticəsində yaranmış feodal dövlət qurumlarının və mülklərinin fəaliyyətini açıqlamış, xürrəmilər hərakatının mahiyyətini aydınlaşdırmışdır.

1990-cı ildə "Azərbaycan VII-IX əsrlərdə" əsərinin Azərbaycan dilinə tərcüməsinin nəşrinə yazdığı girişdə Ziya Bünyadovun kitabın ilk çapından sonra aşkar edilmiş yeni mənbələri nəzərdə tutaraq "kitab tarixi mənbələrdən əldə edilmiş bir çox yeni məlumatlarla zənginləşdirilə bilərdi" (8) fikrini yürüdür, lakin obyektiv səbəblər üzündən kitabın "1965-ci ildə çap olunmuş mətninə heç bir əlavə etmədən" nəşrinə razılıq verdiyini də qeyd edir (9). Bununla yanaşı, görkəmli tədqiqatçı Azərbaycan tarixində olan "çoxlu açılmamış səhifələrin... xalqımızın səbirsizliklə gözlədiyi çoxdilli Azərbaycan tarixi" kitabında açılacağına olan inamını xüsusi qeyd edir. Doğrudan da, artıq 1993-1994-cü illərdə Ziya Bünyadovun bilavasitə iştirakı ilə Azərbaycan və rus dillərində nəşr edilən bircildlik "Azərbaycan tarixi" kitablarında (10), eləcə də 1998-ci ildə çapdan çıxan "Azərbaycan tarixi"nin II cildində (11) müəllifin "Azərbaycan VII-IX əsrlərdə" və "Azərbaycan Atabəyləri dövləti" (1978) kitablarında əhatə etdiyi məsələ və problemlər özünün bir qədər dərinləşdirilmiş həllini tapdı. Məhz Ziya Bünyadovun tədqiqatları onun ardıcıllarına Azərbaycanın ərəblər tərəfindən işğalı, ərəb-xəzər müharibələri, ərəb inzibati-idarə sistemi, şəhərlər və ticarət, eləcə də feodal dövlət qurumları

məsələlərini aydınlaşdırmaq imkanı verdi (12).

Özünün ilk fundamental əsərində orta əsrlər Azərbaycan feodal dövlətləri tarixinin araşdırılması sahəsində uğurlu addımlar atan Ziya Bünyadov Azərbaycan Atabəyləri dövlətinin tarixini yazmaqla dövrün siyasi, iqtisadi və mədəni həyatında mühüm rol oynamış bu dövlətin xalqımızın tarixi inkişafı prosesində böyük əhəmiyyətini bir daha təsdiq etdi. Belə ki, məhz Atabəylər dövləti elm və mədəniyyətimizin ən yüksək inkişaf etdiyi Qızıl dövrünün – Azərbaycan İntibahının formalaşması üçün ictimai-siyasi şərait yaratmışdır. Külli miqdarda mənbə və tədqiqatlardan istifadə edən Ziya Bünyadov o vaxtadək adda-budda öyrənilmiş Eldənizlər dövləti tarixinin açılmamış səhifələrini araşdırmağa çalışmış, əvvəlki tədqiqatları daha da dərinləşdirmiş, yeni məxəzlər üzə çıxarmışdır. Bu baxımdan kitabın ilk fəslində Səlcuqların yaratdığı böyük imperiyanın XI yüzilin sonlarından başlayaraq süquta doğru getməsinə və Azərbaycan Atabəyləri dövlətinin yaranmasını yetişdirən şəraitin şərhinə həsr edilmiş materialın toplandığı "Əxbar əd-davlət əs-səlcuqiyyə" (müəllifi XII əsr ərəb alimi Sədrəddin əl-Hüseyni) və "Sirat əs-sultan Cəlaləddin Manqburnı" (müəllifi XII əsr ərəb tarixçisi Şihabəddin ən-Nəsəvi) əsərləri xüsusi qeyd edilməlidir. Maraqlıdır ki, məhz bu müəllifin əsərlərinin tədqiqi Ziya Bünyadovun mənbəşünaslıq sahəsində gördüyü ən mühüm işlərdəndir. Azərbaycan Atabəyləri dövlətinin tarixini araşdıran Ziya Bünyadov iş prosesində onu cəlb edən bu maraqlı əlyazmaları elm aləminə gətirməklə təkcə Azərbaycanın deyil, ümumiyyətlə Cənubi Qafqazın, eləcə də Ön və Orta Asiya tarixinin çox mühüm dövrünün tədqiqatçılarına əvəzedilməz məxəz bəxş etmişdir.

1973-cü ildə - Azərbaycan Atabəyləri dövlətinin tarixinə həsr etdiyi monoqrafiyanın çıxmasından hələ beş il əvvəl Ziya Bünyadov orta çağ tədqiqatçılarının stolüstü kitabına çevrilən, mənbəşünaslıq tariximizdə özünəməxsus yer tutan "Sirat əs-sultan Cəlaləddin Manqburnı" ("Sultan Cəlaləddinin həyat yolu") əsərini nəşr etdirdi. Britaniya muzeyində və Paris Milli kitabxanasında saxlanılan əlyazmaları əsasında ərəb dilində bütöv şəkildə rus dilinə tərcümə edilmiş, mənbəşünaslıq baxımından hərtərəfli öyrənilmiş bu əsər 1225-1231-ci illərdə Azərbaycanda hakimiyyəti ələ keçirən, Atabəylər dövlətinə son qoyan, nüfuzu ilə monqolların Azərbaycana, eləcə də Yaxın Şərqə hücumunun qarşısını kəsən Xarəzmşah Cəlaləddinin keçdiyi həyat yoluna həsr olunmuşdur. Əsərin qiyməti onun Cəlaləddinin şəxsi katibi ən-Nəsəvi tərəfindən qələmə alınması ilə daha da artır. Daşıdığı vəzifə onun baş verən hadisələrin bilavasitə içərisində olmasına, gördüyünü, şahidi və iştirakçısı olduğunu yazmasına kömək etmişdir. Ziya Bünyadovun mənbə üzərində zərgər dəqiqliyi ilə apardığı son dərəcə mühüm iş nəticəsində azərbaycanlıların və onlara qonşu xalqların tarixi keçmişlərinin çox maraqlı dövrü öyrənilmiş, məhz bu mənbə Eldənizlər sülaləsi dövrü tariximizin xüsusilə son dövrünü əvəzedilməz məlumatla zənginləşdirmişdir.

Azərbaycanın monqol hücumuna qədərki və monqol hücumu dövrü ictimai, siyasi və mədəniyyət tarixinin ayrı-ayrı problem məsələlərinin tədqiqinə həsr edilmiş "Azərbaycan Atabəyləri dövləti" kitabı tarixşünaslığımızda mühüm hadisə kimi 1980-ci ildə Respublika Dövlət mükafatına layiq görülmüşdür.

Qeyd etməliyik ki, Azərbaycanın VII-IX əsrlər dövrü tarixinə həsr etdiyi ilk monoqrafik kitabında akademik Ziya Bünyadov həmin dövr tariximizin hələ o vaxtlardan başlayaraq ermənilər tərəfindən saxtalaşdırıldığını, yazılı (alban) abidələrimizin qərəzkarlıqla məhv edildiyini, erməni tarixşünaslığının son nəticə olaraq torpaqlarımızın işğalına gətirib çıxaran zərərli fəaliyyətini orta əsrlər dövrü mənbələrinin tədqiqi və tənqidi təhlili nəticəsində sübut etmişdisə, Atabəylər dövrü tarixinə həsr etdiyi kitabında o, yenə də xalqına, vətəninə sadiq bir oğul kimi çıxış etmiş, Azərbaycanın siyasi, sosial-iqtisadi və mədəni həyatına dair çox cəsarətli elmi fikirlər söyləmiş, yenə də tariximizi saxtalaşdıran, Naxçıvanla bağlı bizə qarşı torpaq iddiası sürən erməni tarixçilərinə tutarlı cavablar vermiş, onların fikirlərinin əsassız olduğunu ortaya qoymuşdur.

Akademik Ziya Bünyadov öz elmi tədqiqatlarını yalnız Azərbaycan çərçivəsində məhdudlaşdırmamış, xalqımızın tarixi ilə bilavasitə bağlı olan qonşu dövlətlərin də tarixini öyrənmişdir. Bu baxımdan onun Orta Asiyada qüdrətli dövlət olmuş, XIII yüzilin əvvəllərində monqol yürüşü nəticəsində süquta yetirilmiş Xarəzmşahlar dövlətinin tarixinə həsr etdiyi "Xarəzimşah-Anuşteginilər dövləti (1097-1231)" adlı əsəri xüsusilə fərqlənir. Azərbaycanda və Orta Asiya respublikalarında yüksək qiymətləndirilmiş bu kitabın 1986-cı ildə Moskvada rus dilində nəşri

azərbaycanlı alimin onsuz da az olmayan şöhrətini bir qədər də artırmış, Ziya Bünyadovun beynəlxalq əhəmiyyətli şərqşünas-tarixçi olduğunu bir daha sübut etmişdir. "Təsadüfü deyildir ki, o, 1988-ci ildə Özbəkistanda Aral dənizini Xilasetmə Komitəsinin tərkibinə seçilmiş, Xarəzmin ədəbiyyat tarixinin tədqiqi sahəsində xidmətlərinə, Aral dənizinin ekoloji problemlərinin həll edilməsinə böyük kömək göstərməsinə görə ona Ürgənc (Xarəzim) şəhərinin birinci fəxri vətəndaşı" adı verilmişdir (13).

Akademik Ziya Bünyadov tarixçitnin ən yüksək vəzifəsini xalqına vicdanla xidmət etməsində görürdü. "Bu xidməti isə onun əsərləridir" – deyirdi (14). Lakin Ziya Bünyadovun əsərlərinin hamısını qiymətləndirmək üçün, görünür, heç olmazsa bu əsərlərin özü qədər təhlil yazmaq lazımdır. Təkbaşına böyük bir elmi kollektivin işini görmüş bu istedadlı alimin müəyyən dövr çərçivəsinə sığmayan çoxşaxəli elmi fəaliyyəti tarixşünaslığımızın qızıl fonduna daxildir. Bu sözləri Ziya Bünyadovun bütün yaradıcılığı boyu sevə-sevə məşğul olduğu qaynaqların tərcüməsinə və nəşrinə dair fəaliyyəti haqqında demək olar. "Onun bu sahədə gördüyü işləri nəzərdən keçirərkən heyrətə gəlməmək mümkün deyildir. Onlarla adi tanışlıq qeyri-ixtiyari belə bir sualı ortaya çıxarır. Bu adamda bu qədər işgüzarlıq, heyrətamiz dərəcədə işləmək qabiliyyəti haradandır? Biz bu suala yalnız bir cavab tapa bildik: tarix elminə xidmət etməkdən zövq almaq, xalqına və xalqının tarixinə xidmət etmək əzmi və arzusu"(15).

Doğrudan da Ziya Bünyadov məslək sahibiydi, ömrünü tarixi keçmişimizin, dünənimizin öyrənilməsinə həsr etmişdi, həyatını sözün əsl mənasında mübarizədə, polemikalarda keçirmişdi. Ona görə ki, o, müxtəlif dillərdə yazılan mənbələrə yaxşı bələd idi. Zəngin biliyi və fitri istedadı isə həmin mənbələri yüksək səviyyədə şərh etmək imkanı verdi. Elmi tədqiqatın bəlkə də kobud şəkildə "mətbəx" əməliyyatı adlandıra biləcəyimiz mənbələrin üzə çıxarılması və təhlili mərhələsi hər hansı məsələ və problemin həllində ən çətinlərindən biridir. Xalq arasında bu cür çətin işə iynə ilə gor qazmaq deyirlər; ancaq Ziya Bünyadov özünün "iynə" – qələmi ilə gözəl "donlar" – tarixi-ədəbi abidələr "tikmiş", bu abidələri elmin malı etmiş, müxtəlif mövzularda işləyən tədqiqatçı alimlər üçün zəngin material bazası yaratmışdır.

Ziya Bünyadovun bu sahədə atdığı ilk böyük addımı 1971-ci ildə, əslən bakılı olan XV yüzilin ərəbdilli alimi Əbdurrəşid əl-Bakuvinin "Təlxis əl-əsar və-l-əcaib əl-məlik əl-qəhhar" əsərinin ərəb dilindən şərhli tərcüməsidir. Bununla o, elmi fəaliyyətinin maraqlı və əhəmiyyətli yönünə qədəm qoydu. Bu vaxtdan başlayaraq demək olar elə bir il olmadı ki, Ziya Bünyadov hansısa bir, bəzən isə iki və daha çox mənbəyə həyat verməsin. Həmin əsərlərin araşdırılması Ziya Bünyadovun mənbəşünaslıq sahəsində apardığı çoxşaxəli elmi axtarışlara dəlalət edir. Bu təkcə orta əsr mənbələrinin əhatə dairəsinin rəngarəngliyindən irəli gəlmir, bunun əsas səbəbi Ziya Bünyadovun özünün maraq dairəsinin genişliyindən, istifadə etdiyi mənbələrdən ən qiymətli faktları mahir sərraf gözü ilə ayıra bilməsindən irəli gəlir. Doğrudan da, nələr onun diqqətini cəlb etməmişdir: kometalar və göy cisimləri, gün və ay tutulmaları, ulduzlar, meteorlar, zəlzələlər, xəstəliklər və s. Maraqlı burasıdır ki, Ziya Bünyadovun kometalar və b. göy cisimləri haqqında ərəb mənbələrindən əxz etdiyi məlumatlar sovet astronomlarının, xüsusilə akademik O.V.Dobrovolskinin xüsusi marağına səbəb olmuş, hətta mütəxəssislərin bu sahədə yeni kəşflər etməsinə təkan vermişdir (16).

Bu baxımdan Ziya Bünyadovun Moskvada çap etdiyi X-XI yüzil ərəb-ispan alimi Əbu-l-Qasim əz-Zəhravinin "Cərrahiyyə və cərrahlıq alətləri", eləcə də Bakıda çıxan əl-Hələbinin "Əmir Yaşbəyin səfəri", Nizaməddin Şaminin "Zəfərnamə", Moisey Kalankaytuklunun "Albanların tarixi", Mxitar Qoşun "Alban salnaməsi", Səlmaninin "Tarixnamə", Peçəvinin, Solakzadənin, Selanikinin "Tarix" və s. bu kimi əsərlərin bütöv şəkildə və ya qismən edilmiş şərhli tərcümələri xüsusilə mühüm əhəmiyyət kəsb edir.

Xalqımızın tarixinə ən ağır illərdən biri kimi daxil olmuş 1988-ci il Ziya Bünyadovun yaradıcılığını yeni bir xətlə, cəhətlə zənginləşdirdi. Azərbaycan tarixinə dair qaynaqları işləməklə yanaşı susmağı bacarmayan, həqiqəti çılpaqlığı ilə deməkdən çəkinməyən Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadov indi də naxələf qonşularımızın tariximizi təkzib etmək əməllərinə qarşı çıxır, şovinist ermənilərin əsl sifətini, onların əsl tarixini aşkarlaşdıran mənbə və sənədləri üzə çıxarmağa çalışır. Bunlardan erməni iddiasını qədim Azərbaycan yurdu olan Naxçıvandan uzaqlaşdırmaq cəhdi ilə yazılan "Hansı Naxçıvan", Sumqayıt hadisələrinin əsil məğzini açıqlayan

"Nə üçün Sumqayıt?", son 70 ilin arxiv sənədlərinə görə 30-cu illərin qurbanları olan elm və mədəniyyət xadimləri barəsində yazdığı silsilə məqalələrini qeyd etməmək mümkün deyil. Sonuncular sonralar "Qırmızı terror" adı altında kitab şəklində nəşr edilmişdir. Akademik A.Aslanovun fikrincə, "bu kitab geniş oxucu kütləsinin ən çox oxuduğu və rəğbətlə qarşıladığı kitablar siyahısına daxil oldu" (17).

Ziya Bünyadov nadir tarixi şəxsiyyət, qüdrətli alim idi. Onun özünəməxsus yeri, mövqeyi var idi. İtkisi – Azərbaycan elmi üçün, Azərbaycan xalqı üçün hədsiz ağırdır. Ziya müəllimin xalqına tanıtdığı Ulu Davdəkin, Ulu Cavanşirə həsr etdiyi ağıdakı sözləri xalqı Ziya müəllimə qaytarır:

*"...Təməlindən qopub getdi canlı qaya,*
*Parçalandı bizi qucan, hifz eləyən yüksək divar.*
*Qüllələri göyə çatan bir imarət yıxıldı, ah,*
*Sındırılıb məhv edildi möhkəm qala, hündür hasar...*
*Uzaq-uzaq ellərəcən yayılmışdı şan-şöhrəti,*
*Yer üzünün o tayına çatmış idi adı, sanı,*
*Bütün cahan vəsf edirdi onun sonsuz qüdrətini*
*Qaranlığa işıq salan, uzaq görən zəkasını.*
*Aldatdılar, apardılar, tənha, gizli bir guşəyə,*
*Açdılar tunc sinəsində neçə-neçə dərin yara.*
*Gecə gizli öldürülən mobidlər tək qətl olundu.*
*Görün kimlər qaldırdı əl əzəmətli bahadura!*
*Atasından xəbərsiz bic...zatıqırıq, alçaq, iyrənc*
*Dizin-dizin sürünsün qoy, həsrət qalsın xoş bir üzə*
*Qarğışlara, nifrətlərə, lənətlərə bürünərək.*
*Veyillənsin qoy dünyada Qabil kimi əsə-əsə."* (18)

## Qeydlər və şərhlər


**1.** Orta əsr Azərbaycan dövlətləri / "Kommunist" qəzeti, 16 yanvar 1990.
**2.** Elə orada.
**3.** V.Spuler. Зия Буниятов. Азербайджан в VII-IX вв. (Azerbaidschan im VII-IX) Baku: Verlag der Akademie der Az.SSR / "Der İslam". BD. 43, Heft 3, 1967, s. 321-322.
**4.** H.W.Brands. Зия Буниятов. Азербайджан в VII-IX вв. Azerbaidschan im VII-IX Sh) Baku: Verlag der Akademie der Az.SSR / ZDMG, Bd LLS, 1968, s. 198-199.
**5.** В.М.Бейлис. Рец. на книгу З. Буниятова «Азербайджан в VII-IX вв.» / Народы Азии и Африки, 1966, №2, с. 143.
**6.** Bax: Ф.Мамедова. Политическая история и историческая география Кавказской Албании. Баку, 1986, с. 66-67.
**7.** В.М.Бейлис. Göst. məqalə, c. 194.
**8.** Ziya Bünyadov. Azərbaycan VII-IX əsrlərdə, Bakı, 1990, s. 5.
**9.** Yenə orada, s. 6.
**10.** Azərbaycan tarixi. Bakı, 1993 (İ.Əliyevin redaktəsi ilə); История Азербайджана. Баку, 1994.
**11.** Azərbaycan tarixi, II cild, Bakı, 1998 (N.Vəlixanlının redaktəsi ilə).
**12.** Bax: Şərifli M.X. IX əsrin ikinci yarısı–XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı, 1978; Ашурбейли С.Б. Государство Ширваншахов (VI-XVI вв.) Баку, 1993; Vəlixanlı Nailə. Ərəb Xilafəti və Azərbaycan. Bakı, 1993.
**13.** M.İsmayılov. Müharibə qəhrəmanı-elm fədaisi / "Azərbaycan" qəzeti, 25 dekabr, 1994.
**14.** Orta əsr Azərbaycan dövlətləri / "Kommunist" qəzeti, 18 yanvar 1990.
**15.** M.İsmayılov. Göst məqalə.
**16.** Bu haqda bax: Мурзин Г. Исследователь древних знаний / "Московские новости (Anba Musku)", 1980, 31 avqust (ərəb dil.).
**17.** A.Aslanov. Fədakar alim / "Xalq qəzeti", 24 dekabr, 1993.
**18.** Moisey Kalankatuylu. Bakı, 1993, s.147, 148.


**Akademik NAİLƏ VƏLİXANLI**

# Ziya Bünyadovun həyat yolunu əks etdirən materiallar



НАРОДНЫЙ КОМИССАРИАТ ВНУТРЕННИХ ДЕЛ СССР
SSÇI DAXILI IŞLƏR XALQ QOMISARLЬGЬ

TƏVƏLLYD ŞƏHADƏTNAMƏSI
СВИДЕТЕЛЬСТВО О РОЖДЕНИИ
№ 74969

***Z.Bünyadovun doğum şəhadətnaməsi.***
***16 yanvar 1924-cü ildə verilmişdir. SMF, № 6521.***

Bəzi mənbələrdə Z.Bünyadovun təvəllüd tarixi 1921-ci il göstərilsə də, təqdim olunan şəhadətnamə onun 1923-cü ildə doğulduğunu təsdiq edir. Orta məktəbi bitirdikdən sonra hərbçi olmaq arzusunda olan Z.Bünyadovun yaşı hərbi məktəbə daxil olmağa imkan vermədiyi üçün o, yeni doğum şəhadətnaməsi alaraq, sənədə 1921-ci yazdırmışdı. Özü bu barədə belə xatırlayırdı: "Bakı piyadalar məktəbinə üz tutdum. Qəbul olunmaq üçün hətta "saxtakarlığ"a əl atıb sənədlərdə yaşımın üstünə iki yaş da gəlməli oldum. Sağlam, enlikürəkli, üstəgəl "möhkəm əqidəli" (bu hər şeydən əvvəl irəli idi!) olduğumdan məktəbə qəbul olunub oranı 1941-ci ilin mayında əla qiymətlərlə bitirdim." [Bünyadova T. Ziya – mənim taleyim. Bakı, 2002, s. 31].



شيخ ضياء الدين بن شيخ
موسى بن شيخ معصوم بن
شيخ مهدي بن شيخ ميرزا بن
شيخ إسماعيل بن شيخ علي
محمد بن شيخ محمد أمين بن
شيخ علي أصغر بن شيخ محمد
ابن شيخ محمد مقيم بن شيخ
عسكر علي بن شيخ غلام علي
ابن شيخ بنياد الباكوي

"Şeyx Ziya əd-din ben şeyx Musa ben şeyx Məsum ben şeyx Mehdi ben şeyx Mirzə ben şeyx İsmail ben şeyx Əli Məhəmməd ben şeyx Məhəmməd Əmin ben şeyx Əli Əsğər ben şeyx Məhəmməd ibn şeyx Məhəmməd Muqim ben şeyx Askər Əli ben şeyx Ğulam Əli ibn şeyx Bunyad əl-Bakuvi".

***Z.Bünyadovun şəcərəsi. SMF, № 6230.***



***Z.Bünyadov (soldan, yerdə yarıuzanmış vəziyyətdə) orta məktəbin VIII sinfində, müəllimləri və sinif yoldaşları ilə. SMF, № 6186.***

“Göyçayda yaxşı bir məktəb vardı - nümunəvi, tədris prosesinin qurulmasına, pedaqoqlarının səviyyəsinə, şagirdlərinin hazırlığına görə Bakının ən yaxşı məktəblərindən belə geri qalmayan! Bizim gözəl riyaziyyatçılarımız, tarixçilərimiz, ədəbiyyatçılarımız, coğrafiyaçılarımız vardı. Onlar savadlı idi. Bizim hələ təzəcə uyuşmaqda olan şüurumuza çox aydın bir fikri aşılamağı bacarmışdılar: yalnız biliklərə yiyələnməklə əsl insan olmaq, həyatda özünə yol açmaq, başlıcası isə insanlara və Vətənə xeyirli olmaq mümkündür! Bu ideya tərbiyəçilərimiz və müəllimlərimiz tərəfindən ciddi mühazirələrin, dərs zamanı və dərsdən kənar keçirilən şən oyunların vasitəsilə beynimizə yeridilir və təbliğ olunurdu. Onlar şagirdlərinin ürəyinə yol tapmağı bacarır, təmənnasızlıq, fədakarlıq, savadlılıq nümunəsi göstərirdilər.” [Bünyadova T., s. 26-27].


СОЮЗ СОВЕТСКИХ СОЦИАЛИСТИЧЕСКИХ РЕСПУБЛИК

ГЕРОЮ СОВЕТСКОГО СОЮЗА

Тов.

За ваш геройский подвиг

ПРЕЗИДИУМ ВЕРХОВНОГО СОВЕТА СССР своим указом от 19 г. присвоил Вам звание ГЕРОЯ СОВЕТСКОГО СОЮЗА.

Председатель Президиума Верховного Совета СССР

Секретарь Президиума Верховного Совета СССР

Москва—Кремль

№

***Z.Bünyadova alman işğalçıları ilə mübarizə cəbhəsində komandanlığın döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdiyi şücaətə görə Sovet İttifaqı Qəhrəmanı adının verilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin 27 fevral 1945-ci il tarixli 7452 №-li fərmanı. SMF, № 3079.***

“Həyatımda ilk döyüşə müharibə başlanandan bircə saat sonra girdim. Yarısına qədər torpaq dolmuş dar səngərə sığınıb başımız üzərindən uçan ağır bombardmançıların uğultusuna qulaq asırdım. Qanadlarındakı, yerdən aydın görünən qara xaçlar onların kimə məxsus olduğunu dəqiq göstərirdi. Bu zaman göydəki boz qatardan üç təyyarə ayrılıb bizim səngərlərin üzərinə şığıyır və ilk partlayılşlar başlayır. Qulaqbatırıcı gurultular – hər yan toz, duman. Gündüz sanki gecəyə dönmüşdü. Ətrafda göz-gözü görmürdü. Toz bir azca yatandan sonra məlum oldu ki, yoldaşlarımızın biri orda, biri burda yaralanıb. Qısa xidmət müddətimdə dostlaşdığım əsgər isə artıq nəfəs almırdı. Ölümlə ilk görüş: dost, həmyaşıd itkisi mənim üçün indiyəcən yaşadığım ilk dəhşətli faciə idi.” [Bünyadova T., s. 32].



***Z.Bünyadovun müharibə vaxtı istifadə etdiyi planşet. HXƏF, № 4876.***






***Z.Bünyadovun müharibə vaxtı anasına göndərdiyi şəkil. Şəklin arxasında rus dilində öz əli ilə yazdığı "Berlindən 50 km aralıda. 26 mart 1945-ci il. Oğlundan sevimli anacanıma xatirə. Qoy bu yaraşıqsız fotoşəkil səndə Sovet İttifaqı Qəhrəmanı olan oğlunun surətini canlandırsın. Almaniya, Brandenburq əyaləti, Noydamm şəhəri" sözləri var. SMF, № 6212.***

Z.Bünyadovun təltif vərəqindən: "...Kapitan Z.Bünyadovun 123-cü əlahiddə bölüyü 1945-ci ilin 14-16 yanvarında düşmənin Manquşevsk sahəsindəki müdafiə xəttinin yarılmasında iştirak etmişdir. Məharətli komandanlıq nəticəsində bölük Dombruvki kəndinin cənub kənarından və dəmir yolu xəttindən keçərək yanvarın 14-də Pilitsa çayını birinci keçmiş, sol sahildə ələ keçirdiyi döyüş mövqeyini 89-cu qvardiya diviziyasının əsas atıcı hissələrinin gəlib çatmasına qədər saxlamışdır. Bölük 160 düşmən əsgər və zabitini məhv etmiş, 45 əsir götürmüş, 5 ədəd altılüləli minaatan, 3 top, çoxlu sayda avtomat, tüfəng, sursat, ərzaq və başqa qənimət əldə etmişdir. Bölük komandiri Z.M.Bünyadov Sovet İttifaqı Qəhrəmanı adını almağa layiqdir..." [Bünyadova T., s. 49].



*5-ci Ordunun komandanı, general-polkovnik Nikolay Berzarin Sovet İttifaqı Qəhrəmanı, 123-cü cərimə bölüyünün komandiri, kapitan Ziya Bünyadova "Lenin" ordeni və "Qızıl Ulduz" medalını təqdim edir. 7 aprel 1945. HXƏF, № 2755.*




*Ali Baş Komandan, Sovet İttifaqının Marşalı İosif Stalinin 2 may 1945-ci il tarixli əmri ilə Almaniyanın paytaxtı Berlin şəhərinin alınmasına görə kapitan Z.Bünyadova və onun döyüşdüyü bütün hərbi birləşməyə təşəkkür elan edilməsini bildirən sənəd. Hərbi hissə komandirinin imzası ilə. HXƏF, № 2754.*



*Sovet İttifaqı Qəhrəmanı, kapitan Z.Bünyadov.*
*1940-cı illər. SMF, № 6185.*




*Z.Bünyadov Berlində. 12 iyul 1945.*
*FMF, № 11881.*

"Düşünürəm ki, Qələbə kəlməsinin yaratdığı hiss və həyəcanı heç bir sözlə ifadə edib sizə çatdırmaq mümkün olası iş deyil. Bütün növ odlu silahların və topların yaratdığı belə atəşfəşanlığı dünya nə görüb, nə də eşidib. Bu, yaşayıb həmin günə çata bilmiş bütün insanların sevinc və xoşbəxtliyinin sözün əsl mənasında vulkan kimi püskürməsi, bütün varlıqları ilə şadlanması idi. Bunlar hamısı qulaqbatıran "Uraa!" nidasında birləşmişdi. Berlinin tüstü-duman basmış göylərini güllə yağışına tutmuşduq. Hələ ağlımıza da gəlmirdi ki, bizim atəşlərimizin ardınca sülhün müjdəçisi – sükut ötəcək." [Bünyadova T., s. 53].




***Z.Bünyadov (soldan 9-cu) hərbçilərlə birgə Berlin şəhərinin Pankov rayonunda. 15 iyul 1945. SMF, № 6197.***

"Avropanı qara yaradan azad edərkən biz çox yaxşı anlayırdıq ki, Hitlerin təbliğat maşını özləri üçün ölüm gətirən bu savaşa törədilmiş əməllərdə heç bir günahı olmayan minlərlə almanı ortaq edib... Bəlkə də bu bədbəxt adamların əzablarına biganə qala bilməmək hissi məni Berlində qalıb Pankov rayonu komendantının köməkçisi işləmək təklifinə razılıq verməyə məcbur etdi. Mən dünənki düşmənə hər şeydə kömək etməli, dinc həyatını qurmasına yardımçı olmalı idim... Düz bir il [may, 1945 – may, 1946 – F.C.] komendaturada işlədim. Orada insana, insanlığa yeni münasibəti ilə fərqlənəcək, dünyaya daha başqa nəzərlərlə baxacaq, onunla sülh, əmin-amanlıq şəraitində yaşayacaq təzə Almaniya quran çoxlu dostlar, həmfikirlər tapdım." [Bünyadova T., s. 56-57].





*Z.Bünyadovun valideynlərinə göndərdiyi şəkil. Şəklin arxasında rus dilində yazdığı "Sevimli anama və atama oğulları Ziyadan xatirə olaraq" sözləri, həmçinin hərbi hissənin kadrlar şöbəsinin Z.Bünyadovun şəxsiyyətini təsdiq edən qeydi və möhür var. 11 sentyabr 1945. SMF, № 6213.*





*Z.Bünyadov dənizçi formasında. Şəklin arxasında rus dilində yazdığı "Əziz valideynlərə oğuldan. Herinqsdorf kurortu. Həvəskar foto. Moskva, 24.12.45" sözləri var. SMF, № 6097.*



***Z.Bünyadov atası ilə. SMF, № 6215.***

Z.Bünyadovun həyat yoldaşı Tahirə xanımın xatirələrindən: "Ziyanın... valideynləri çox xoşuma gəlmişdi: ciddi, tələbkar, özünü həmişə şax tutan tutan atası Musa Mövsüm oğlu Bünyadovun davranışlarında hərbi nizam-intizam özünü açıq göstərirdi. O, həmişə səliqəli geyinər, üzünü qırxar, az danışar, həmsöhbətini səbrlə dinləyərdi. Bunlar hamısı sözsüz ki, onun uzun illər hərbi tərcüməçilik həyatının qazandırdığı keyfiyyətlər idi. O, beş, ya da altı dil bilirdi. Elə Ziyanın ərəb dilini gözəl bilməsinin səbəbi də bu idi. Atası ona bu dili hələ uşaqlıqdan öyrətmişdi. Onu elə o vaxtdan Quranı oxumağa məcbur edirmiş...

Ziyanın anası – hündürboylu, gözəl, yumşaq saçlarını arxasında hörükləmiş Qusakova Raisa Mixaylovna da çox xoşuma gəlmişdi. Onun aydın ala gözləri, iti baxışları mənə çox tanış idi. Bu eynən Ziyanın gözləri idi.... Olduqca zəhmətsevər olan bu qadın bircə dəqiqə boş durmadığı bir yana, ictimai işlər üçün də vaxt tapırdı. Lənkəranda doğulmuş Raisa Mixaylovna azərbaycanca tər-təmiz bidiyindən rus dilini bilməyənlərlə də asan ünsiyyət saxlayırdı." [Bünyadova T., s. 88-89].



***1946-cı ildə çəkilmiş şəkil. SMF, № 6219.***

"Qarşımda əla karyera açılmışdı. Lakin mən artıq orduda darıxırdım. Ona görə də tərxis olundum. Bu hərəkətim çoxlarını təəccübləndirdi. Əməlli-başlı kapitan təminatını, əla ərzaq payını (müharibədən sonrakı illərdə bu böyük arqument idi) qoyub adi tələbə olmağımın, stabil xidməti yüksəlişi, firavan həyatı yataqxananın dəmir çarpayısına və yarıac tələbə həyatına dəyişməyimin məntiqini başa düşmürdülər. Məni sorğu-suala tutur, həyatımın yönünü belə sərt şəkildə dəyişməyimin səbəbini öyrənməyə çalışırdılar. Cavab isə sadə idi: "Döyüşməkdən, daim "döyüş hazırlığı"nda olmaqdan bezmişəm. Savaşdan yorulmuşam, hər şeyi unutmaq istəyirəm..." Uşaqlıqdan ərəb dilini yaxşı bilməyimdən – atam mənimlə çox ciddi məşğul olmuşdu - ərəbşünas olmağı qərara aldım. Ona görə də gəlib, bura, Moskva Şərqşünaslıq İnstitutuna daxil oldum..." [Bünyadova T., s. 57].




***Z.Bünyadovun portreti. Yuxarı sağ küncdə rus dilində keçdiyi döyüş yolu haqqında qısa məlumat, şəklin altında isə "1952-1957-ci illərdə Moskvada təhsil alarkən mənə qiymətəgəlməz mənəvi və maddi yardım göstərmiş Ziya Musa oğlu Bünyadova minnətdarlıqla, xatirə olaraq. Hörmətlə, Həbibulla Abdullayev. 11 noyabr 1988." sözləri var. SMF, № 6642.***

Tahirə Bünyadova xatırlayırdı ki, Şərqşünaslıq İnstitutunda oxuyarkən Z.Bünyadov həm də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyində azərbaycanlı tələbələrin kuratoru kimi çalışırdı. O, Azərbaycandan Moskvaya oxumağa gəlmiş tələbələrin müxtəlif problemlərini həll edir, daimi nümayəndəliyin tələbələrə ödədiyi əlavə vəsaiti paylayır, onlara maddi yardım edirdi. "Öz yoldaşlarından daha çox pul alan Ziya öz "varidatı"nı onlarla bölür, "artığını" borc verirdi." [Bünyadova T., s. 18].


СВИДЕТЕЛЬСТВО
О БРАКЕ

*Ziya və Tahirə Bünyadovların nikah şəhadətnaməsi. 17 may 1947. SMF, № 6522.*



*Z.Bünyadovun Tahirə xanıma hədiyyə etdiyi şəkil. Şəklin üzərində rus dilində yazdığı “Çox vaxt haqsız olaraq əziyyət çəkən dostum Tahirəyə. Bünyadov. Moskva. Aprel 1953” sözləri var. SMF, № 6584.*

Ziya Bünyadov və Tahirə xanım birgə oxuduqları Moskva Şərqşünaslıq İnstitutundan tanış idilər. Tahirə xanımın xatirələrindən: “1947-ci ilin mayında biz Ziya ilə rəsmi nikaha girdik. Kolxoz meydanında VVAQ-dan çıxıb Qızıl qapıların qabağında dayandıq: nə mənim, nə də Ziyanın 20 qəpiyi vardı ki, trolleybusla yataqxanaya gedək. Bir-birimizə baxıb güldük, sonra da əl-ələ tutub şad-xürrəm yataqxanamızın yerləşdiyi XTNS istiqamətinə tərəf getməyə başladıq. Məsafə o qədər də yaxın deyildi. Amma bu, bizim bir neçə kilometrlik “toy səyahətimiz” oldu. Orada – yataqxanada isə bizi səbrsiz qanaqlarımız gözləyirdilər. Onlar çoxlu hədiyyələr: soyutma kartof, seledka, hətta kommersiya mağazasından alınmış tort gətirmişdilər. Süfrə ürəyimizcə düzəldilmişdi. Yerli komitə sədri bu cür təntənəli gündə hər birimizə bir cüt təzə ayaqqabı hədiyyə etmişdi. Bu, o zaman çox böyük hədiyyə idi. Bax beləcə, yataqxanada, yaxın dostlarımızın əhatəsində toyumuzu elədik.” [Bünyadova T., s. 59].



*Z.Bünyadov mülki geyimdə orden və medallarla. SMF, № 3093.*



*Z.Bünyadov mülki geyimdə. FMF, № 11308.*



*Z.Bünyadov kitabxanada. SMF, № 615/1.*



ДИПЛОМ

Бунятов Зия Мусаевич

Московского Института Востоковедения

арабский язык

28 октября 1950

страноведа по арабским странам

Москва 1950

***1946-1950-ci illərdə Moskva Şərqşünaslıq İnstitutunuda “Ərəb dili” ixtisası üzrə təhsil alan və “Ərəb ölk ələri üzrə ölkəşünas” ixtisasına yiyələnən Z.Bünyadovun diplomu. SMF, № 3090.***



ВЫПИСКА
ИЗ ЗАЧЕТНОЙ ВЕДОМОСТИ



***Moskva Şərqşünaslıq İnstitutunun məzunu Z.Bünyadovun zaçot cədvəlindən çıxarış. 24 oktyabr 1950. SMF, № 6455.***

“Ziya bütün vaxtını və enerjisini təhsilə vermişdi. Səhərdən axşamacan, xüsusən də sessiya dövründə gününü kitabxanalarda keçirir, tapşırıqların yerinə yetirilməsinə çox ciddi yanaşırdı... Ziya vaxtının və enerjisinin çoxunu ixtisas fənnlərinə həsr edirdi. Burada onun bəxti gətirmişdi – yoluna gözəl pedaqoq, öz elminə gənc kimi vurulmuş, ən tənbəl və biganə tələbənin belə qəlbində elm işığı yandırmağı bacaran bir insan çıxmışdı. Bu, dünyaşöhrətli ərəbşünas – professor Yevgeni Aleksandroviç Belyayev idi. Quranın və İslamın gözəl bilicisi, istedadlı alim, böyük şərqşünas olan bu insan Ziyanın bir alim kimi formalaşmasında xüsusi rol oynamışdı... Azərbaycanlı tələbənin ərəb dilinə rus dili kimi, rus dilinə isə hələm-hələm adamın bilmədiyi mükəmməl şəkildə yiyələnməsi professoru mat qoymuşdu. Məhz dilləri gözəl bilməsi onun ikinci kursun imtahan və zaçotlarını ekstern yolu ilə verib, birinci kursdan üçüncü kursa keçməsinə imkan yaratmışdı... O, sessiyanı sessiya arxasınca müvəffəqiyyətlə başa vurur, əlaçı kimi yüksək təqaüd alırdı. İnstitutu vaxtından əvvəl – dörd ilə qurtarmış, əla diplom müdafiə etmiş, həm də bu zaman əsl alim keyfiyyəti göstərmişdi.” [Bünyadova T., s. 79, 81].



Дорогой Зия!
Большое спасибо за поздравление с Новым Годом. Хоть и с опозданием, но и я Вас поздравляю с Новым Годом. Всего, всего наилучшего желаю Вам, и пусть исполнятся все Ваши желания. Весь январь хворала и потому не могла Вам написать. Вчера впервые я вышла на улицу. Зия, Вы меня простите, ведь я не знаю по настоящему Ваше имя и отчество. Если Вам не лень, напишите, а то я чувствую себя неловко. Вы же теперь уже не тот юноша, которого я знала лет 15 тому назад. Конечно, Вы возмужали, а я состарилась. Месяца через 2 будет



70 лет. Думаю, если в это время будете в Москве, зайдите ко мне. Вообще, буду рада всегда Вас видеть у себя. Привет жене. Будьте здоровы!
Ваша
Оде-Васильева
19 3/II 62г.

***Moskva Şərqşünaslıq İnstitutunda Z.Bünyadovun ərəb dili müəllimi olmuş ərəbşünas Klavdiya Ode-Vasilyevanın keçmiş tələbəsinə məktubu. 3 fevral 1962. SMF, № 6381.***

*"Əziz Ziya!*

*Yeni il təbrikinə görə çox sağ olun. Gec də olsa, mən də Sizi Yeni il münasibətilə təbrik edirəm. Ən yaxşı nə varsa, Sizə arzulayıram, qoy bütün diləkləriniz yerinə yetsin. Bütün yanvarı xəstə olmuşam, buna görə də Sizə yaza bilməmişəm. Dünən birinci dəfə küçəyə çıxdım.*

*Ziya, məni bağışlayın, axı mən Sizin düzgün adınızı və ata adınızı bilmirəm. Əgər həvəsiniz olsa, yazın, yoxsa mən özümü narahat hiss edirəm. Axı Siz indi artıq mənim 15 il bundan əvvəl tanıdığım cavan deyilsiniz. Əlbəttə, Siz yetkinləşmisiniz, mən isə qocalmışam. 2 aydan sonra mənim 70 yaşım olacaq. Düşünürəm ki, həmin vaxt Moskvada olsanız, yanıma gəlin. Ümumiyyətlə, Sizi evimdə görməkdən həmişə şad olaram.*

*Həyat yoldaşınıza salam. Salamat qalın!*

*Sizin*
*Ode-Vasilyeva.*
*19 3/II 62".*

"...Ziya öz müəllimlərinin hamısına böyük hörmət və ehtiram göstərir, institutu qurtardıqdan sonra da uzun illər boyu onlarla əlaqə saxlayır, bütün bayramlarda təbrik edirdi. Onlardan biri də ərəb dili müəllimi Ode-Vasilyeva idi. O, tədris etdiyi dili gözəl bilməklə yanaşı, həm də ciddi və tələbkar bir pedaqoq idi. Ən başlıcası isə heç bir tələbəyə güzəştə getməz, ancaq intizam və bilik tələb edərdi." [Bünyadova T., s. 80-81].




***Z.Bünyadovun tarix elmləri namizədi diplomu. 4 mart 1955. SMF, № 3086.***



***Portsiqar. Arxasında rusca "Əziz Ziyaya 18 iyun 1954-cü ildən xatirə olaraq [Z.Bünyadovun namizədlik dissertasiyasını müdafiə etdiyi gün – F.C.]" yazısı var. HXƏF, № 6232.***

"İnstitutu qurtardıqdan sonra Ziya aspiranturaya daxil oldu və fəal şəkildə namizədlik dissertasiyasının müdafiəsinə hazırlaşmağa başladı. Elmi işinə lazım olan materialları tapmaq üçün o, bütün günü kitabxanalarda və arxivlərdə olurdu... 1954-cü ildə Ziya "İtaliya imperializmi Afrikada" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etdi... Müdafiədən sonra ona istər Moskvada, istərsə də Leninqradda müəllimlik təklif elədilər. Lakin Rusiyada əldə edə biləcəyi heç bir gözəl perspektiv onu şirnikləndirə bilmədiyindən Ziya bu təklifləri qəbul etmədi. Ziya Bakıya – Vətənə qayıtmağa can atırdı...

- Mən azərbaycanlıyam, yalnız Bakıda yaşamaq və işləmək istəyirəm! – deyə, Ziya məsələni kəsə qoymuşdu... Ona görə də 1954-cü ilin avqustunda Moskvanı tərk elədi... Ziya elə qayıdışının ilk günündən vaxtını boşa keçirmək fikrində deyildi. Ona görə də, necə deyərlər, nəfəsini dərməmiş Elmlər Akademiyasının Tarix İnstitutuna yollandı. Onu böyük elmi işçi vəzifəsinə qəbul elədilər. Səbirsizliklə işə başlamağını gözləyirdi – hələ Moskvada ikən o, özünün axtarış və tədqiqatlarının istiqamətini müəyyən eləmişdi. Başı yeni-yeni ideyalar və fikirlərlə dolu idi. Namizədlik dissertasiyasını müdafiə edərkən Ziya artıq özü üçün seçdiyi uzun yolqabağı gücünü yoxlamış, ilk addımını atmışdı." [Bünyadova T., s. 83, 85-87].



***Azərbaycan alimlərinin bir qrupu. Soldan: oturanlar – ?, İqrar Əliyev, Mahmud İsmayılov, Z.Bünyadov. Ayaq üstə olanlar: 2-ci - Yusif Seyidov, 3-cü – İosif Striqunov, 4-cü – Rəhim Vahidov. SMF, № 6200.***



***Azərbaycan tarixçilərinin bir qrupu. Soldan: lövhə qarşısında çıxış edən – Yusif Yusifov. Oturanlar - Z.Bünyadov, İqrar Əliyev, Tofiq Məmmədov, Abdulla Fazili, Zelik Yampolski, ?, ?. SMF, № 6207.***



Professor V. Minorsky
27, Bateman Street,
Cambridge.
Tel. 54308

**_Britaniyalı şərqşünas, Kembric Universitetinin professoru Vladimir Minorskinin Z.Bünyadova məktubu. 10 may 1957. SMF, № 6066._**

*“Əziz Ziya Musa oğlu!*

*Gənc nəsildən məktub və sorğuları almağa həmişə sevinirəm. Mənə belə gəlir ki, cavab verərkən ifadə etməyə və yazmağa çatdırmadığımı və mənimlə birlikdə az sonra yox olacaq nəyinsə, heç olmasa, bir hissəsini qoruyuram. Mən külli miqdarda məktublar alıram, lakin Sovet İttifaqı Qəhrəmanları ilə yazışmaq qismət olmamışdı! Eşq olsun Sizə, lakin Sizin bu adınız çox şeyə vadar edir. Bir yaşlı insan kimi Sizi danlasam, inciməyin. Əgər müharibədə cəldlik və həmlə gərəkdirsə, elmdə kitabxana səngərlərində oturmaqdan və biliklərin əsaslarının quru çörəyini çox çeynəməkdən başlamaq lazımdır. Bunların üzərində sonra daha möhkəm inşa edəcəksiniz. Tələsməyin, binaları tikəcəyiniz kərpicləri cilalayın, bəzəyin. Nə ərəb, nə fars qrammatikasından çəkinməyin, mənbələrin dəqiq qeydlərini aparın...”* (Məktubdan fraqment).



31th March, 1960.

Dear Mr. Buniatov,

**_Britaniyalı alim, London Universitetinin professoru Çarlz Dousettin Z.Bünyadova məktubu. 11 mart 1960. SMF, № 6081._**

*“Hörmətli cənab Bünyadov.*

*Maraqlı məqalələrinizə və məktuba görə çox sağ olun. Onları belə tezliklə almaq çox xoş idi... Təəssüf ki, bizim hörmətli həmkarımız professor Minorski ilə müqayisədə (onun 83 yaşı var) mən çox cavanam (36 yaşım var). Hər ikimizə Sizin məqalələrinizi almaq olduqca xoşdur. Bir həftə bundan əvvəl mən Kembricdə olarkən o, dedi ki, bütün İngiltərədə yalnız iki nəfər Səhlin [IX əsr Şəki hakimi Səhl ibn Sumbat nəzərdə tutulur – F.C.] və onun ulu əcdadlarının tarixi ilə maraqlanır və onlar Bakıdakı üçüncü adamla [Z.Bünyadov nəzərdə tutulur – F.C.] əlaqə saxlayırlar. Əlbəttə, bu cür xüsusi “elmi cəmiyyət” çərçivəsindəki əlaqələr olduqca sıxdır...”* (Məktubdan fraqment).



**_Gürcü tarixçisi Tamara Abramişvilinin Z.Bünyadova məktubu. 26 oktyabr 1960. SMF, № 6378._**




**_Mxitar Qoş. Alban salnaməsi. Ön söz, tərcümə və şərhlər Z.Bünyadovundur. Rus dilində. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1960. Milli Azərbaycan Tarixi Muzeyinin kitabxanası, A-2554._**

*"Çox hörmətli Ziya Musa oğlu!*

*Sizin Mxitar Qoşun lütfkarlıqla göndərdiyiniz "Alban salnaməsi"ni aldım. Buna görə Sizə çox minnətdaram. Əlbəttə, bu, çox maraqlı, həddindən artıq gərəkli işdir və bütün maraqlanan şəxslərə çox şeydə kömək olacaqdır.*

*Sizə cansağlığı və uzun illər boyu səmərəli iş arzulayıram, bir daha təşəkkür edirəm.*

*Dərin hörmətlə, Tamara.*

*P.S. Məni bağışlayın, amma məcburam Sizi bir xahişlə narahat edim: bəzi yoldaşlar "Alban xronikası" ilə maraqlandıqları üçün ondan 1 nüsxə göndərin. Əgər Siz hər hansı yerli nəşri əldə etmək istəsəniz, buyurun, bizə arxayın ola bilərsiniz, Sizə faydalı olmaqdan məmnunluq duyarıq.*

*T.A."*



***Z.Bünyadov və akademik İsmayıl Hüseynov. Leninqrad (indiki Sankt-Peterburq), 1962. SMF, № 605/12.***

Akademik İsmayıl Hüseynovun həyat yoldaşı Zərifə Dulayevanın xatirələrindən: “Ziyanın belə bir nadir keyfiyyəti vardı – özünün insanlara etdiyi xeyirxahlığı “unudurdu”, lakin ona qarşı edilən xeyirxahlığı yaxşı yadda saxlayırdı. Ziyanın “dostdan da artıq” bildiyi Azərbaycan SSR EA-nın akademiki İsmayıl Hüseynov vətən tarixşünaslığında mövcud olan boşluqlardan gileylənərək, Ziya Bünyadova Azərbaycan Atabəyləri mövzusu ilə məşğul olmağı təklif etdi. “Bu mənim mövzum deyil” – imtina cavabı verildi. Lakin İ.Hüseynov həyatdan köçəndən sonra Ziya dedi: “İsmayıl mənim Atəbəylərlə məşğul olmağımı istəyirdi, onun xatirəsi naminə mən arzusunu yerinə yetirərəm.” İllərini özü üçün yeni bir problem üzərində gərgin əməyə sərf edən Ziya “Azərbaycan Atabəyləri dövləti” monoqrafiyasını bitirb nəşr edərək, kitaba belə bir epiqraf yazdı: “Akademik Hüseynov İsmayıl Abbas oğlunun xatirəsinə ithaf olunur.”” [Велиханлы Н., Дулаева З. Зия Буниятов – солдат, ученый, человек / Biz birlikdə qalib gəldik. Məqalələr toplusu. Bakı, 2010, s. 42].


ДИПЛОМ
ДОКТОРА НАУК

Решением
Высшей Аттестационной Комиссии

ПРИСУЖДЕНА УЧЕНАЯ СТЕПЕНЬ ДОКТОРА
ИСТОРИЧЕСКИХ НАУК

*Z.Bünyadovun tarix elmləri doktoru diplomu. 24 iyul 1964. SMF, № 3087.*


АТТЕСТАТ
ПРОФЕССОРА

Решением
Высшей Аттестационной Комиссии

УТВЕРЖДЕН В УЧЕНОМ ЗВАНИИ ПРОФЕССОРА
ПО КАФЕДРЕ

*Z.Bünyadovun professor ("Ərəb ölkələrinin tarixi" kafedrası üzrə) attestatı. 31 iyul 1965. SMF, № 3089.*


ОБЗОР ИСТОЧНИКОВ
ПО ИСТОРИИ
АЗЕРБАЙДЖАНА

З. М. БУНИЯТОВ
ИСТОЧНИКИ АРАБСКИЕ

БАКУ 1964

*Z.Bünyadov. Azərbaycan tarixinə dair mənbələrin icmalı. Ərəb mənbələri. Bakı: Azərbaycan SSR Elmlər Akademiyasının nəşriyyatı, 1964. Rus dilində. Milli Azərbaycan Tarixi Muzeyinin kitabxanası, A-2384.*

"Doktorluq dissertasiyasının müdafiəsinə hazırlaşarkən Ziya düz iki il Leninqradın iki böyük kitabxana və arxivində işlədi... Tezliklə çoxillik gərgin işini başa çatdıran Ziya Bakıya qayıtdı. Məsuliyyətli gün – 5 mart 1964-cü il gəlib çatdı. Bu, Ziyanın Dövlət Universitetindəki müdafiə günü idi. Moskvadan məxsusi olaraq bu işlə əlaqədar Ziyanın müəllimi, hamisi və böyük dostu professor Yevgeni Aleksandroviç Belyayev gəlmişdi. Rəsmi opponent kimi o, "Azərbaycan VII-IX əsrlərdə" mövzusunda dissertasiya haqqında məruzə edib ona öz qiymətini verdi... "Öz keçmiş tələbəmin dissertasiya müdafiəsində çıxış etmək məni xüsusilə sevindirir. Hələ ömrünün gənc və çiçəklənmə dövrünü keçirən, əqli enerjisini bütünlüklə saxlamaqla özünün gərgin əməyi nəticəsində o, elə bir zirvəyə çatıb ki, tarix elmləri doktoru yüksək adına iddia etməyə haqqı və əsası var..." Elmi Şura Ziyaya tarix elmləri doktoru elmi dərəcəsi verdi. Bir il sonra 1965-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında Ali Attestasiya Komissiyası ona professor adı verdi." [Bünyadova T., s. 108-109, 112-113].




*Z.Bünyadov. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Azərbaycan SSR Elmlər Akademiyasının nəşriyyatı, 1965. Rus dilində. Milli Azərbaycan Tarixi Muzeyinin kitabxanası, A-2377.*




*Z.Bünyadov. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Azərnəşr, 1989. Milli Azərbaycan Tarixi Muzeyinin kitabxanası, Az-314.*

"Ziyanın "Azərbaycan VII-IX əsrlərdə" adlı doktorluq dissertasiyası özgələrinin nailiyyətlərinin və fikirlərinin köçürülməsindən yaranmış adi bir iş deyil, çox ciddi, mühüm və əsaslı bir əsər idi. Monoqrafiya nəşrə hazırlandı və 1965-ci ildə 1000 nüsxə tirajla çap olundu. Ziya onu əziz müəllimi Yevgeni Aleksandroviç Belyayevin xatirəsinə həsr etmişdi... Belə fikirləşirəm ki, bu kitabın nəşri ilə Ziyanın həyatında və yaradıcılığında yeni dövr başladı. Kitab köşklərə çıxmamış bircə anın içərisində satılıb tapılmaz bir şeyə çevrildi. Əks-səda çox böyük idi... Ancaq sevinənlərlə yanaşı, bədxahların hay-küyünün eşidildiyini də qeyd etməliyəm. Ziyanın Azərbaycanın çatışmayan keçmişinin bir hissəsini yenidən yaratması, erməni-alban münasibətləri barədə erməni alimlərinin konsepsiyalarını rədd etməsi, uzun illər boyu nəhəng tarix nəhrinin dibində çöküntü kimi qalmış bu adamların ambisiyalarına dəhşətli bir zərbə olmuş, yeni qarşıdurmanın əsasını qoymuşdu." [Bünyadova T., s. 116-117].



*Azərbaycan SSR EA Şərqşünaslıq İnstitutunun əməkdaşları. Soldan: oturanlar – Əli Nəvai, Böyükağa Hüseynov, Hökumə Billuri, Əlishöhbət Sumbatzadə (institutun direktoru), Zakir Abdullayev, Z.Bünyadov, ?. Ayaq üstə olanlar - Əkrəm Rəhimov (Bije), Georgi Ter-Ovanesov, Məmmədhəsən Qəmbərov, Hacı Qasımi, Əli Gəlavij, Sultan Mirzəzadə, Abbas Zahidi, Hidayətulla Hatəmi, Cəbrayıl Ruindej, Məhəmmədbağır Qənbəri, Lütfəli Ərdəbiliyan, Əli Şəmidə, Rəhim Qazi. 1960-cı illər. SMF, № 6155.*



*Z.Bünyadov Şərqşünaslıq İnstitutundakı iş kabinetində. SMF, № 6108.*



Z.Bünyadov məxəzlərlə işləyərkən. SMF, № 6205.



Z.Bünyadovun 1967-ci il dekabrın 26-da Azərbaycan SSR EA-nın müxbir-üzvü seçilməsi haqqında şəhadətnamə. SMF, № 3077.



БУНЈАДОВ
ЗИЈА МУСА ОҒЛУ

Азербайджанской ССР
БУНИЯТОВ
ЗИЯ МУСАЕВИЧ

Azərbaycan SSR EA-nın müxbir-üzvü Z.Bünyadovun vəsiqəsi. 1967. SMF, № 6540.



***Azərbaycan SSR EA Yaxın və Orta Şərq Xalqlarının Tarixi İnstitutunun Orta əsrlər Şərq tarixi şöbəsinin əməkdaşları. Soldan: Nailə Vəlixanlı, Elmira Əlizadə, Esmeralda Ağayeva, Cabir İsgəndərov, Z.Bünyadov, Əli Əbdül Qadir. 1975. SMF, № 615/2.***

"Şöbə müdiri kimi hər bir əməkdaşına, bütünlüklə kiçik kollektivinə görə məsuliyyətini heç vaxt unutmazdı. Onun kollektivinin gənc üzvləri – Nailə Vəlixanlı, Tariyel Həsənov, Esmeralda Ağayeva, Cabir İsgəndərov, Şahin Mustafayev, Fərda Əsədov, Hüsaməddin Məmmədov, Elmira Əlizadə, Rahilə Şükürova, Sevda Süleymanova, Hikmət Əkbərov – hamısı onun alovundan qığılcım almışdılar... Ziyanın öz tələbələrinə xüsusi münasibəti vardı. Heç vaxt onlara durduğu yüksək mövqedən baxmaz, söhbət zamanı özlərini sərbəst və rahat hiss etmələri üçün münasib şərait yaradardı. Çalışırdı ki, onlar öz işlərinə yaradıcı münasibət bəsləsinlər, mənbələrlə işləyərkən məsuliyyətli olsunlar, tərcümə zamanı hər bir sözə önəm versinlər, əhatəli düşünsünlər, elmi əsər yazarkən mümkün qədər çoxlu qaynaqlardan və ədəbiyyatlardan istifadə eləsinlər. Həm də iş intizamını pozmamaq şərtilə." [Bünyadova T., s. 114-115].



***Azərbaycan SSR EA Yaxın və Orta Şərq Xalqlarının Tarixi İnstitutunun Orta əsrlər Şərq tarixi şöbəsinin müdiri Z.Bünyadov və şöbənin əməkdaşları Nailə Vəlixanlı (solda), Esmeralda Ağayeva. 1975. FMF, № 15068.***



***Z.Bünyadov Respublika Əlyazmalar Fondunun əməkdaşları ilə X-XI yüzil ərəb-ispan alimi Əbu-l-Qasim əz-Zəhravinin "Cərrahiyyə və cərrahlıq alətləri" əlyazmasını müzakirə edərkən. Soldan: Əbülfəz Əliyev, Z.Bünyadov, Teyyub Manafov, Aqil Gəncəli, Nailə Ağayeva. SMF, № 6128.***

"O, ...hansı tanış alimin, əməkdaşın, kollektivin hansı mövzu üzərində işlədiyini də əla bilirdi. Ona görə də ezamiyyətləri zamanı bir tarixi mənbəyə və ya maraqlı materiala rast gələndə fikirləşmədən onu əldə edib, buna ehtiyacı olan adamlara verirdi. Çox vaxt bunları əldə etmək elə də asan olmurdu. Söhbət onun maddi tərəfindən getmir. Doğrudur, o vaxtlar kitablar da baha, hər kəsin cibinə görə deyildi. Amma o "elmin inkişafı naminə", "şərqşünaslığın ayağa durması üçün" hər şeyə qatlaşır, Ankaranın, Londonun, Parisin, Berlinin muzeylərində, kitabxanalarında, arxivlərində təzəcə tapılan, əvvəllər məlum olmayan kitabların, materialların, sənədlərin mikrofilmlərini alırdı. Gətirdiyi kitabları verdiyi insanların gözlərindəki təəccübdən həzz alardı. O, əlinə düşən materialın "yeganə sahibi" olmaq iddiasında bulunan, tapdığını yeddi qıfıl arxasında gizlədən zıqqı, xəsis alimlərdən deyildi. Ziya elm fədailərini sevirdi." [Bünyadova T., s. 106].



***S.Kirov adına Azərbaycan Dövlət Universiteti şərqşünaslıq fakültəsinin 1976-cı il buraxılışının fotovinyeti. Paspartu üzərində. Sağda yuxarıda – Dövlət İmtahan Komissiyasının sədri Z.Bünyadovun fotoşəkli. SMF, № 6227.***



МИНИСТЕРСТВО
ВЫСШЕГО И СРЕДНЕГО
СПЕЦИАЛЬНОГО ОБРАЗОВАНИЯ
СССР
ВЫСШАЯ
АТТЕСТАЦИОННАЯ
КОМИССИЯ

Профессору З.М. Буниятову

Ваши критические замечания по докторской диссертации Б. Улубабяна получены и будут учтены при рассмотрении ее.

**SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında Ali Attestasiya Komissiyasının Z.Bünyadova məktubu. Məktubda Z.Bünyadovun erməni tarixçisi Baqrat Ulubabyanın doktorluq dissertasiyasına dair tənqidi qeydlərinin daxil olduğu və nəzərə alınacağı bildirilir. 4 sentyabr 1973. SMF, № 6485.**





**Fransalı tarixçi S.Şişmanın Z.Bünyadova məktubları. 1975. SMF, № 6427-6428.**

*"Əziz Ziya Musa oğlu!*

*...Firdovsinin vəfatının yüzilliyi ilə əlaqədar "Archeologia" jurnalında ümumi xarakterli məqalə çap etdirdim. Yaxın günlərdə Sizə bir neçə nüsxə göndərərəm, biri - imzalı Sizin üçün, digərləri isə Qafqazda bu məsələ ilə maraqlanan insanlar arasında paylamaq üçün...*

*İndi nəyin üzərində çalışırsınız? Sizdə mənə maraqlı ola bilən nəsə varmı?...*

*Əlinizi bərk sıxıram.*

*Sizin [imza]."*

(30 mart 1975-ci il tarixli məktubdan fraqment).



UNIVERSITY OF MANCHESTER

10th February 1974

Dear Professor Buniyatov,

Many thanks indeed for the generous gift of your new translation of Nasawi's biography of Sultan Jalal ad-Din. It is a most impressive piece of work.

[illegible]

With good wishes and, once again, many thanks.

Yours sincerely,

J. A. Boyle



UNIVERSITÄT HAMBURG

SEMINAR FÜR GESCHICHTE UND KULTUR DES VORDEREN ORIENTS

[illegible]

Manҫester Universitetinin (Böyük Britaniya) professoru, şərqşünas Con Endryu Boylun Z.Bünyadova məktubu. 10 fevral 1974. Məktubda Z.Bünyadovun tərcümə etdiyi və C.E.Boyla göndərdiyi ən-Nəsəvinin “Siratəs-sultan Cəlaləddin Manqburnı” (Sultan Cəlaləddin Manqburnının həyat yolu)” kitabına (1973) görə təşəkkür bildirilir. SMF, № 6394.

Hamburq Universitetinin (Almaniya) professoru Bertold Şpulerin Z.Bünyadova məktubu. 10 fevral 1974. SMF, № 6395.

*“Çox hörmətli professor Bünyadov.*

*Bir neçə gün əvvəl mən, Sizin qiymətli hədiyyənizi - ən-Nəsəvinin tərcümeyi-halının [ən-Nəsəvinin yazdığı sultan Cəlaləddin Manqburnının tərcümeyi-halının – F.C.] rus dilində tərcüməsini aldım. Bu kitaba sahib olduğuma görə çox şadam və Sizə ürəkdən minnətdaram. Sizə tezliklə cavab hədiyyəsi kimi “İslam incəsənəti”ndən ayrıca nüsxəni göndərməyimə ümid edirəm.*

*Dərin hörmətlə,*
*Sizə sadiq Bertold Şpuler*
*İmza”.*




***Z.Bünyadov "Alimlərin və onların təşkilatlarının tərksilah uğrunda mübarizədə rolu" Beynəlxalq elmi simpoziumunda. Moskva, 15-19 iyul 1975. SMF, № 6201.***



***Azərbaycan Tarixi Muzeyində keçirilən İkinci Dünya müharibəsinin 30 illiyinə həsr olunmuş sərgidə. Soldan: muzeyin Sovet dövrü tarixi şöbəsinin müdiri Zərifə Dulayeva, muzeyin Numizmatika fondunun əməkdaşı Rizvan Əliyev və Z.Bünyadov. May, 1975. SMF, № 6059.***





*Z.Bünyadovun Azərbaycan SSR EA-nın həqiqi üzvü seçilməsi haqqında diplom. 1976. SMF, № 6541.*




*Azərbaycan SSR EA-nın həqiqi üzvü Z.Bünyadovun vəsiqəsi. 21 aprel 1976.  SMF, № 3085.*



*“Əziz Ziya!*

*Məktuba, əl-Hüseyni [Z.Bünyadovun ruscaya çevirdiyi və 1980-ci ildə nəşr etdirdiyi XII-XIII əsrlər müəllifi Sədrəddin Əli əl-Hüseyninin “Əxbar əd-davlət əs-Səlcuqiyyə” əsəri nəzərdə tutulur – F.C.] və İohann [Z.Bünyadovun ruscaya çevirdiyi və 1979-cu ildə nəşr etdirdiyi XV əsr Avropa müəllifi İohann Qalonifontibusun əlyazmasının Qafqaza aid hissəsi nəzərdə tutulur – F.C.] kitablarına görə sənə minnətdaram... İbn Xordadbehin redaktəsini bitirməyə çalışdım [Volf Beylis IX əsr ərəb müəllifi İbn Xordadbehin “Yollar və məmləkətlər kitabı”nın Nailə Vəlixanlı tərəfindən edilmiş tərcüməsinin və araşdırmasının redaktoru idi – F.C.]. 30 səhifə qalıb, lakin iş getmir, doğrudur, bu gün 2 səhifəni mətnlə tutuşdurdum. Əl-Ğəzzi [XI əsr ərəb xristian yazarı– F.C.] haqqında məqaləni hələ oxumamışam, yalnız gördüm ki, ərəb mətni əməllicə əlavə olunub, bu isə əsasdır. Yazdığın bütün başqa şeylər isə o qədər xırdadır ki, onlar barəsində heç düşünməyə dəyməz...”* (Məktubdan fraqment).

***Ukraynalı şərqşünas, professor Volf Beylisin Z.Bünyadova məktubu. 11 avqust 1980. SMF, № 6242.***



***Türkiyə alimi Bəhriyyə Üçokun Z.Bünyadova məktubu. 10 dekabr 1977. SMF, № 6342.***



***SMF, № 6060.***



***KMF, № 285.***




**_Z.Bünyadov. Azərbaycan Atabəyləri dövləti (1136-1225). Bakı: Elm, 1978. Rus dilində. Milli Azərbaycan Tarixi Muzeyinin kitabxanası, A-2380._**



**_Azərbaycan SSR Dövlət Mükafatı laureatının medalı. KTFMF, № 1095._**



**_Azərbaycan SSR Dövlət Mükafatı laureatının diplomu. 1980. KTFMF, № 1096._**

"Azərbaycan VII-IX əsrlərdə" kitabı işıq üzü gördükdən sonra o, öz qarşısına Atabəylər dövlətinin tarixini yazmaq məqsədi qoymuşdu. Bunu həyata keçirmək üçün ərəb, fars, qədim erməni, gürcü dillərində olan ağlasığmaz sayda mənbə, kitab oxumuş, müqayisə etmiş, araşdırmışdı!.. 1978-ci ildə "Elm" nəşriyyatında onun "Azərbaycan Atabəyləri dövləti. 1136-1225-ci illər" monoqrafiyası çapdan çıxdı. Bu, Azərbaycan elminə yeni bir töhfə idi. Hökumət onun bu əməyini layiqincə qiymətləndirdi. 1980-ci ildə Ziya xalqın tarixinə aid belə qiymətli bir əsər yaratdığına görə Azərbaycan SSR-in elm və texnika sahəsində Dövlət Mükafatına layiq görüldü." [Bünyadova T., s. 123].



***Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev Z.Bünyadova "Azərbaycan Atabəyləri dövləti" kitabına görə Dövlət Mükafatı laureatı medalını təqdim edərkən. 1980. SMF, № 3076.***



***Z.Bünyadov Dövlət Mükafatı laureatı medalı ilə təltifolunma mərasimində çıxış edərkən. 1980. SMF, № 6229.***

"Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyevin əlindən mükafatı alarkən Ziya təbəssümlə demişdi:

- Müharibədən sonra bu mənim birinci mükafatımdır, ona görə də mənim üçün çox qiymətlidir. Onun həyəcanlandığı və bunu gizlətməyə çalışdığı aydınca hiss olunurdu. Lakin layiq olduğu medalı əlinə götürərkən üzü xoşbəxtlik nuruna boyanmışdı." [Bünyadova T., s. 124].


УДОСТОВЕРЕНИЕ № 51
Азербайджанская ССР
АКАДЕМИЯ НАУК
акад. БУНИЯТОВ Зия Мусаевич
является директором
Института востоковедения
Президент
АН Азерб. ССР
САЛАЕВ Э. Ю.

**_Azərbaycan SSR EA-nın həqiqi üzvü, Şərqşünaslıq İnstitutunun direktoru Z.Bünyadovun vəsiqəsi. 1982. SMF, № 689/4._**



**_Gürcü tarixçisi, akademik Georgi Melikişvilinin Z.Bünyadova məktubu. 29 may 1981. SMF, № 6441._**



**_SSRİ Şərqşünaslıq İnstitutunda fəaliyyət göstərən azərbaycanlı şərqşünas-filosof Qasım Kərimovun Z.Bünyadovun Azərbaycan SSR EA Şərqşünaslıq İnstitutunun direktoru təyin olunması münasibətilə Alma-Atadan (indiki Almaatı) göndərdiyi təbrik məktubu. 19 may 1981. SMF, № 6259._**

*"Əziz Ziya Musa oğlu!*

*Gürcüstan SSR-in yubileyi münasibətilə xoş təbrikinizə görə Sizə təşəkkür edirəm.*

*Sizin Azərbaycan SSR EA-nın olduqca mühüm elmi mərkəzi – Yaxın və Orta Şərq Xalqları Tarixi İnstitutunun rəhbəri olmağınızdan həddən artıq şadam. Bu vəzifədə Sizə uğurlu iş arzulayıram.*

*Salamlarla,*
*Sizin G.Melikişvili."*


Академия наук СССР
ВСЕСОЮЗНАЯ АССОЦИАЦИЯ ВОСТОКОВЕДОВ
ЧЛЕНСКИЙ БИЛЕТ № 14
Фамилия Буниятов
Имя Зия
Отчество Мусаевич
Дата вступления
„7" января 1981 г.
Дата выдачи 10 февраля 1982 г.
Председатель Ассоциации академик

*SSRİ Ümumittifaq Şərqşünaslar Assosiasiyasının üzvü Z.Bünyadovun vəsiqəsi.*
*7 yanvar 1981. SMF, № 6542.*


Бүтүн өлкәләрин пролетарлары, бирләшин!
ВӘСИГӘ № 212
Зија Муса оғлу Бунјадов јолдаша Азәрбајҹан ССР Али Совети Рәјасәт Һеј'әтинин 1982 ил 2 декабр тарихли Фәрманы илә Азәрбајҹан ССР әмәкдар елм хадими ФӘХРИ АДЫ верилмишдир.
Азәрбајҹан ССР Али Совети Рәјасәт Һеј'әтинин сәдри
Председатель Президиума Верховного Совета Азербайджанской ССР
Азәрбајҹан ССР Али Совети Рәјасәт Һеј'әтинин катиби
Секретарь Президиума Верховного Совета Азербайджанской ССР
2 декабр 1982 ил.

Пролетарии всех стран, соединяйтесь!
УДОСТОВЕРЕНИЕ № 212
Тов. Буниятову Зие Мусаевичу
Указом Президиума Верховного Совета Азербайджанской ССР от 2 декабря 1982 года присвоено ПОЧЕТНОЕ ЗВАНИЕ Заслуженный деятель науки Азерб. ССР

*Azərbaycan SSR Əməkdar elm xadimi Z.Bünyadovun vəsiqəsi. 1982. SMF, № 6543.*



Sovyetler Birliği Azerbaycan Bilimler Akademisi üyesi ve Şarkiyat Enstitüsü Müdürü

Prof. Dr. Ziya Musa Buniyatov

Türk Tarihi üzerindeki değerli çalışmalarından dolayı Türk Tarih Kurumu Genel Kurulu'nun 16 Nisan 1982 tarihli toplantısında *Türk Tarih Kurumu*

Muhabir Üyeliğine

seçilmiştir. Üyelik beratını saygı ile sunuyorum.

Ankara, 16. IV. 1982

TÜRK TARİH KURUMU ANKARA 1931

Başkan

***Türk tarixinə dair dəyərli tədqiqatlarına görə Z.Bünyadovun Türk Tarix Qurumunun müxbir-üzvü seçilməsi haqqında şəhadətnamə. 16 aprel 1982. SMF, № 3084.***



T.C.
BAŞBAKANLIK
ATATÜRK KÜLTÜR, DİL VE TARİH
YÜKSEK KURUMU BAŞKANLIĞI

ANKARA

Prof.Dr.Ziya Musa [illegible],

Dear Sir,

We are pleased to send you the yearbook about the Atatürk Supreme Council for Culture, Language and History, founded in 1983 in accordance with the principles set forth in Article 134 of the Constitution, with the aim of promoting Atatürk's concepts and reforms, as well as conducting research into Turkish culture, history and language.

There are four affiliated institutions of the Supreme Council as listed below : the reformed Turkish Language Society, the Turkish Historical Society, the newly founded Atatürk Culture Center and the Atatürk Research Center.

We would appreciate your kind continued collaboration in our subjects – Turkish culture, language, history and Atatürk.

We enclose here, together with the yearbook, the 3rd issue of our Newsletter.

Thank you for your interest, we look forward to hearing from you.

Suat İlhan
President

***Türkiyə Respublikası Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun başqanı Suet İlhanın Z.Bünyadova məktubu. 1983. Məktubda Z.Bünyadova qurumun illik məcmuəsinin göndərildiyi bildirilir və onunla türk tarixi, dili, mədəniyyəti, Atatürk araşdırmaları istiqamətində əməkdaşlıq yüksək qiymətləndirilir. SMF, № 6299.***



**SMF, № 6196.**



**FMF, № 20300.**

***Azərbaycan SSR EA Əlyazmalar Fondunda mənbələrlə işləyərəkən. Noyabr, 1984.***

"Ziya elmə, seçdiyi ixtsasa fanatikcəsinə bağlanmış bir adamdı. Kənardan diqqət yetirərkən mən onun səbrinə, oturmaq qabiliyyətinə, inadkarlığına və dözümünə məəttəl qalırdım. O, bir tərcümənin, məqalənin üstündə başını belə qaldırmadan saatlarla otura bilərdi. Aradakı fasilələrdə istirahət əvəzinə kiminsə işini nəzərdən keçirər, mətni vicdanla, səhifə-səhifə oxuyar, qıraqlarında öz qeydlərini eləyərdi. Ziya bu gün edəcəyi işi heç vaxt sabaha saxlamazdı. O, bütün günləri dolğun, işsizliyə bircə boşluq belə qoymadan keçirərdi. Vaxtı qiymətləndirər, onun hər anını işə sərf edərdi. Hər gün bir qalaq qəzet və jurnal oxuyar, dünyada baş verən bütün hadisələrdən xəbərdar olardı." [Bünyadova T., s. 117].



***Rusiyalı tarixçi, şərqşünas, professor Yelena Davidoviçin Azərbaycan SSR EA-nın prezidenti Həsən Abdullayevə məktubu. 20 mart 1982. SMF, № 6382.***

*"Çox hörmətli Həsən Bağır oğlu!*

*Sizin şərqşünaslığa və şərqşünaslara nə cür diqqətlə yanaşdığınızı bilib, başqasına yox, məhz Sizə yazmağı qərara aldım. Mən, SSRİ EA Şərqşünaslıq İnstitutunda tarixi mənbələr sektoruna başçılıq edirəm və şərqşünas-medievistlərin yeganə daimi ümumittifaq konfransı olan "Bartold qiraətləri"nin Təşkilat komitəsinin sədr müaviniyəm. Mənim sektorum və "Bartold qiraətləri" Yaxın və Orta Şərq mənbələrini, tarixini və mədəniyyətini öyrənirlər. Və bizim akademik Z.M.Bünyadov, onun rəhbərlik etdiyi institutun şərqşünas-tarixçiləri ilə ən sıx və məhsuldar elmi əlaqələrimiz var.*

*Mən və həmkarlarım – biz hamımız Ziya Musa oğlunu görkəmli sovet şərqşünaslarından biri hesab edirik. O, mənbələrin gözəl bilicisi, mahir mətnşünas, orta əsrlər tarixinin bəsirətli tədqiqatçısıdır. Onun kitabları və məqalələri sovet şərqşünaslığının nailiyyətlərinin ayrılmaz hissəsidir.*

*Düşünürəm ki, belə bir alimin 60 illiyi ölkəmizin müxtəlif şərqşünaslıq mərkəzlərindən tanınmış alimlərin iştirak edəcəyi Yaxın və Orta Şərq tarixinə dair ümumittifaq məqalələr toplusu ilə qeyd etmək gərəkdir. Əgər Siz və Azərbaycan SSR EA-nın Rəyasət Heyəti müvafiq qərar qəbul etsəniz, mənim belə hesab etməyə bütün əsaslarım var ki, SSRİ EA Şərqşünaslıq İnstitutunun rəhbərliyi Azərbaycanda Z.M.Bünyadovun şərəfinə məqalələr toplusunun çapı ideyasını anlayışla qarşılayacaq. Bundan əlavə, əgər Siz bu cür ümumittifaq məqalələr toplusunun Moskvada tərtib edilməsini, resenziyalaşdırılmasını (hətta redaktə olunmasını) faydalı bilsəniz, SSRİ EA Şİ-da bu tam realdır. Mən və mənim sektorum bu tapşırığı almağa hazırıq. Məncə, 1983-cü ilin sonunda Siz Bakıda nəşr etdirmək üçün hazır əlyazmanı əldə edərsiniz..."* (Məktubdan fraqment).



**_Z.Bünyadova anadan olmasının 60 illiyi münasibətilə göndərilən təbrik məktubunun qovluğu. Üzərindəki metal lövhədə rusca “Akademik Ziya Bünyadova Azərbaycan SSR EA-nın İqtisadiyyat İnstitutunun kollektivindən” sözləri həkk edilmişdir. 1983. SMF, № 3074._**



**_Gürcü tarixçisi, professor Qoça Caparidzenin Z.Bünyadova məktubu. 24 fevral 1983. SMF, № 6256._**

*“Çox hörmətli Ziya Musa oğlu, salam!*

*Mən hələ də Dəməşqdəyəm. Güman ki, payızda Vətənə tamam qayıdacam...*

*Çox gec aldığım “Asiya və Afrika xalqları” jurnalından öyrəndim ki, Sizin 60 illiyinizi təntənəli şəkildə qeyd ediblər. Bütün təbriklərə qoşuluram. Sidqi ürəkdən Sizə möhkəm cansağlığı, səadət və elmi fəaliyyətinizdə yeni uğurlar arzulayıram.*

*Dərin hörmətlə,*

*Qoça Caparidze.”* (Məktubdan fraqment).



***Z.Bünyadov evindəki iş kabinetində. Noyabr, 1984. SMF, № 6198.***



***Z.Bünyadov hobbisi ilə məşğul olarkən. SMF, № 6178.***

“Bütün istedadlı adamlar kimi Ziyanın özünün də xüsusi məşğuliyyəti vardı. İndi ona “hobbi” deyirlər. O, quru bir budaqda və ya ağac fırında hansısa bir heyvanın, yaxud bir gözəl çiçəyin əksini görərdi. Öz düşüncəsini reallaşdırmaq üçün fantaziyasından başqa, ağac üzərində iş üçün lazım olan müxtəlif alətlər dəsti də ona kömək edərdi. O, öz yaratdığını mişarlayır, kəsir, yonur, deşir, hamarlayır, sonra da laka boyayıb balaca oturacağa bərkidərdi.” [Bünyadova T., s. 142].



ГЎЗАЛ ТУЙҒУ

***Özbəkistanın “Quliston” jurnalının 1982-ci il fevral nömrəsində jurnalın əməkdaşı M.Kuşmokovun Z.Bünyadova həsr olunan “Gözəl duyğu” adlı məqaləsi. Özbək dilində. SMF, № 2520.***



***Z.Bünyadov “Quliston” jurnalının redaksiyasında. Özbəkistan, Daşkənd. 24 sentyabr 1986. SMF, № 2524.***




***Z.Bünyadov. Xarəzmşahlar-Anuşteginilər dövləti. Moskva: Şərq ədəbiyyatı baş redaksiyası, 1986. Rus dilində. Milli Azərbaycan Tarixi Muzeyinin kitabxanası, A-2383.***

""Xarəzmşahlar-Anuşteginilər dövləti" və ən-Nəsəvinin tərcüməsinin nəşrindən sonra dövlətlərinin tarixinin öyrənilməsinə böyük xidmət göstərmiş Ziyanın özü kimi hər bir əsəri də özbək alimləri tərəfindən hörmət və məhəbbətlə qarşılanırdı... Xarəzmin tarixini yazarkən o, bu ölkəyə ruhən bağlanmış, onunla bağlı olan hər şeyə ürəkdən yanaşmışdı... 1988-ci il sentyabrın 24-də Xarəzmin tarixinin öyrənilməsinə, Aral dənizi ekologiyası problemlərinin həllinə böyük köməyinə görə "Ürgənc şəhərinin fərxi vətəndaşı" adına layiq görüldü və ona bununla bağlı bir nömrəli fərman təqdim olundu." [Bünyadova T., s. 155].



***Özbək yazıçısı Uktam Hakiməlinin Z.Bünyadova məktubu. 2 noyabr 1986. SMF, № 6267.***

*"Əziz Ziya Musa oğlu!*

*Sizin "Xarəzmşahlar-Anuşteginilər dövləti" kitabını oxumaq xoşbəxtliyinə nail oldum. Siz, 1097-1231-ci illəri bəşəriyyətin tarixinə həkk elədiniz, türk xalqları, o cümlədən, Orta Asiya türkləri üçün sarsılmaz abidə yaratdınız. Türklərin bu dünyaya gəlişi necə təbiidirsə, onların mövcudluğu və bəşəriyyət tarixində qoyduqları böyük iz də bir o qədər təbiidir... Siz öz əsərinizlə sübut etdiniz ki, zamanəmizin böyük alimisiniz. Sizin kitabınız məni hədsiz həyəcanlandırdı...*

*Mən, ehtiramla Sizi ulu-babalar – Nəvai, Biruni, Uluğbəy, Nizami ilə bir sırada qoyuram. Bəşər tarixi Sizi unutmayacaq...*

*Oh, Siz nə qədər səmimi və düzgün tarixçisiniz. Siz türk xalqının böyük oğlu və milli qəhrəmanı Manquberdiyə [sonuncu xarəzmşah – F.C.] abidə qoymaqla özünüzü də əbədiləşdirdiniz. Oh, Manquberdinin ölümü barədə oxuyarkən, mən nə qədər göz yaşı axıtmışam!*

*Sizə min dəfə çox sağ ol, dünya durduqca yaşayın!*

*Sizə təzimlə, Sizin qan qardaşınız –*
*özbək yazıçısı Uktam Hakiməli"*
(Məktubdan fraqment).



Здравствуйте, Зия Мусаевич!

Примите, наш дорогой Зия муаллим, горячий привет от вашей второй родины — из древнего и вечно молодого Хорезма, из города Ургенча где вы являетесь первым почётным гражданином! Вы знаете, Зия муаллим, все истинные хорезмийцы — потомки Джалаладдина от души полюбили Вас и очень гордятся Вами. Гордимся мы и вашим талантом.

Не только мы, дорогой Зия муаллим, гордимся Вами, Вами гордятся, мы в этом очень и очень уверены, и будущие поколения хорезмийцев. Ваши драгоценные книги, посвящённые Хорезму, послужат для нас и потомков наших, как очень достоверными и уникальными источниками. Большое Вам спасибо за эти труды-книги!

Дорогой учитель, я Вам высылаю газету Хорезма, где о Вас напечатаны материалы. Пусть она напомнит Вам ваши дни, где вы провели у нас в связи [illegible]-летним юбилеем Навои.

Дорогой Зия муаллим, примите мои самые наилучшие пожелания. Большой привет всем Вашим родным, знакомым, всем друзьям. Вашему замечательному коллективу.

С искренним уважением

(Эркин Маурахимов)

2.10.88.

г. Ургенч.

***Ürgəncdən Erkin Maurahimovun Z.Bünyadova məktubu. 2 oktyabr 1988. SMF, № 6268.***

*"Salam, Ziya Musa oğlu!*

*Əzizimiz Ziya müəllim, ikinci vətəniniz – qədim və həmişəcavan Xarəzmdən, ilk fəxri vətəndaşı olduğunuz Ürgənc şəhərindən hərarətli salamı qəbul edin! Ziya müəllim, bilirsiniz ki, bütün əsl xarəzmlilər – Cəlaləddinin varisləri, Sizi ürəkdən sevib, Sizinlə çox fəxr edirlər. Sizin istedadınızla da fəxr edirik...*

*Sizin Xarəzmə həsr olunmuş qiymətli kitablarınız bizim və bizim xələflərimiz üçün çox etibarlı və unikal mənbələr olacaq. Bu möcüzə kitablar üçün çox sağ olun!.."* (Məktubdan fraqment).



Уважаемый Зия Мусаевич, здравствуйте!
Благодарю вас за то удовольствие, которое я получил, прочитав Вашу книгу „Государство Хорезмшахов Ануштегинидов 1097-1231 гг."
Я не историк специалист, а просто любитель истории. [illegible]
[illegible]
Ваша же „Государство Хорезмшахов Ануштегинидов 1097-1231 гг." [illegible]
[illegible]
Ещё раз большое вам спасибо, Зия Мусаевич! Желаю Вам крепкого здоровья и больших творческих успехов.
[illegible]
Крымская область г. Симферополь
ул. [illegible]
Иванкин Владимир [illegible]

**Simferopoldan (Ukrayna) Vladimir İvankinin Z.Bünyadova məktubu. SMF, № 6273.**

*“Hörmətli Ziya Musa oğlu, salam!*

*Sizin “Xarəzmşahlar-Anuşteginilər dövləti. 1097-1231” kitabınızı oxuyarkən keçirdiyim məmnunluğa görə Sizə təşəkkür edirəm.*

*Mən, tarixçi-mütəxəssis deyiləm, sadəcə tarix həvəskarıyam. Tarixi mövzularda çoxlu kitab oxumuşam... Sizin “Xarəzmşahlar-Anuşteginilər. 1097-1231” kitabınızı isə birnəfəsə oxumuşam. İfadə gözəlliyi. Fikir rəngarəngliyi... Mənim bu qədər xoşuma gələn “Xarəzmşahlar (Anuşteginilər) 1097-1231” kitabınızdan Sizin əvvəllər nəşr olunan bütün kitablarınızın adlarını yazdım. Onlarla oxu zalında tanış olacaq, “Bukinistkitab”dan isə əldə edəcəyəm...*

*Bir daha çox sağ olun, Ziya Musa oğlu! Sizə möhkəm cansağlığı və böyük yaradıcılıq uğurları arzulayıram...”* (Məktubdan fraqment).



Почетный студент - великий патриот Хорезма

Студент билети
Студенческий билет №0005
Фамилия БУНИЯТОВ
Имя ЗИЯ
Отчество МУСАЕВИЧ
Время поступления 26.09.1988г.
Факультет ист. филологич.
Дата выдачи билета 26.IX.1988г.
РЕКТОР
проф. Джуманиязов Р.

В 19__/__уч. году является студентом__курса
Декан ф-та
В 19__/__уч. году является студентом__курса
Декан ф-та
В 19__/__уч. году является студентом__курса
Декан ф-та
В 19__/__уч. году является студентом__курса
Декан ф-та
В 19__/__уч. году является студентом__курса
Декан ф-та
В 19__/__уч. году является студентом__курса
Декан ф-та

Т—3. Зак. № 534

***Xarəzm Dövlət Pedaqoji İnstitutu tərəfindən Z.Bünyadova verilmiş tələbə bileti. Biletin içərisində rus dilində "Fəxri tələbə - Xarəzmin böyük vətənpərvəri" sözləri yazılıb. 1988. SMF, № 6545.***



***Suvenir açar. Qutunun üstündə dəmir lövhəcik üzərində rus dilində "Ürgənc-340 il, şəhərin fəxri vətəndaşı Z.M.Bünyadova" yazısı həkk olunub. HXƏF, № 5363.***


БИЗ СЕН БИЛАН БИРГАМИЗ, ОРОЛ!

*“Quliston” jurnalının 1988-ci il mart buraxılışında dərc olunan Z.Bünyadovun “Aral, biz səninləyik” məqaləsi. Özbək dilində. SMF, № 2522.*




*Rəssam Əzizə Mamatovanın Özbəkistan SSR Yazıçılar və Rəssamlar İttifaqlarının və Həmid Alimjan adına Ədəbiyyatçılar Evinin təşkil etdiyi yaradıcılıq sərgisinin afişası. Özbək dilində. Aşağı sol küncündə rusca “Boyakar Əzizə Mamatovadan Ziya Musa oğlu Bünyadova Aral gölünün qorunmasına dair konfransdan yadigar olaraq. 11 may 1988-ci il” xatirə yazısı var. SMF, № 3095.*

“Aral dənizinin məhv olması barədə söhbətlər ictimai rezonans qazanan günlərdə, Ziya baş verənlərin faciəvi sonuclarını görən bir alim kimi “şaqren dərisi”nə oxşar şəkildə əriyib, Yer üzündən silinməkdə olan bu qədim dənizin xilas edilməsinə yönələn tədbirlərdə yaxından iştirak etməyə başladı. Onun quruması nəinki bölgənin qədimlərdən günümüzə qədər çatan gözəl təbii mənzərəsini dəyişir, həm də ekoloji fəlakət təhlükəsi yaradırdı... 1988-ci ildə Aralın xilas edilməsi üzrə komitə yaradıldı və Ziya da bu komitənin üzvü oldu... Ziya mətbuatda çox fəal çıxışlar eləyirdi. Onun saysız-hesabsız məqalələrinin əksəriyyəti özbək qəzet və jurnallarında dərc olunurdu.” [Bünyadova T., s. 156-157].



*X Türk Tarix Konqresinin suvenir məcməyisi. 1986. HXƏF, № 6217.*



Prof. Dr. Ziya Musa Buniyatov

*Türk Tarih Kurumu Bilim Kurulu*'nun 18 Ekim 1988 tarihli toplantısında Türk ve Türkiye Tarihi üzerindeki çok değerli araştırma ve incelemelerinden dolayı *Türk Tarih Kurumu*'nun

Şeref Üyeliği'ne

seçilmiştir. Üyelik beratını saygı ile sunuyoruz.

Suat İLHAN

Prof. Dr. Yaşar YÜCEL

*Z.Bünyadovun türk və Türkiyə tarixinə dair dəyərli araşdırma və tədqiqatlarına görə Türk Tarix Qurumunun fəxri üzvü seçilməsi haqqında şəhadətnamə.18 oktyabr 1988. SMF, № 3083.*



T.C.
TÜRK TARİH KURUMU
BAŞKANLIĞI

*Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun Türk Tarix Qurumu başqanı, prof., dr. Yaşar Yücelin quruma fəxri üzv seçilməsi münasibətilə Z.Bünyadova təbrik məktubu. 3 yanvar 1989. SMF, № 6389.*



**Gürcü tarixçisi, professor Revaz Kiknadzenin Z.Bünyadova məktubu. 16 may 1988. SMF, № 6250.**

*“Əziz Ziya!*

*İbrahim Peçəviyə [Z.Bünyadovun ruscaya çevirdiyi və 1988-ci ildə nəşr etdirdiyi XVI-XVII əsrlər osmanlı müəllifi İbrahim Peçəvinin “Tarix” əsəri nəzərdə tutulur – F.C.] görə sənə çox sağ ol. Onun nəşri ilə bağlı səni təbrik edir və çoxlu daha maraqlı işlər arzulayıram.*

*Sənə “Yüzillik salnamə”ni göndərirəm (bir az gecikmə ilə. Gürcü mətnini göndərməyə heç cür qərar verə bilmirdim).*

*Gələn ilin aprelində bizdə “Kartlis Tsxovreba”nın qədim silsiləsi haqqında elmi sessiya olacaq (sessiya İ.A. Cavaxişvilinin xatirəsinə həsr olunur). Mən sənə XIV əsrin gürcü anonim müəllifinin – “Yüzillik salnamə”sinin ərəb qaynağı haqqında birgə məruzəni təklif etmək istəyirəm. Ətraflı sənin ümumi razılığını alandan bir qədər sonra yazaram...”* (Məktubdan fraqment).



**Rusiyalı alim, Tatarıstan EA-nın akademiki Mirqasım Usmanovun Z.Bünyadova məktubu. 25 aprel 1988. SMF, № 6284.**

*“Əziz Ziya abzıy [tatarca əmi - F.C.]!*

*Bahar bayramı münasibətilə təbrik edirəm! Və, əlbəttə, seçkilərin nəticələri, yəni direktorluğun yeni mərhələsi ilə!!! Uğuruna səmimi qəlbdən sevinirəm! Düşənbədə görüşməyə ümid edirəm! Məndə hər şey əvvəlki kimidir – qarışıqlıqdır.*

*Səmimi qəlbdən sənin olan: Mirqasım”.*



"Ziya həmişə deyərdi ki, bütün elmlər bir-birilə qarşılıqlı əlaqədədir. O, zəlzələlər, kometalar, ulduzlar, metgünəş və ay tutulmaları haqqında bir neçə məqalə yazmış, tərcümə etmiş və onları Azərbaycan EA Xəbərlərinin Yer haqqında elmlər seriyasında dərc etdirmişdi... Ziya topladığı materialları ümumiləşdirdikdən sonra bu nəticəyə gəlmişdi ki, "bu dünyada hər şey təkrarlanır". Zəlzələni, seli, epidemiyanı, quraqlığı, ilanların hücumunu, çəyirtkələrin axınını Yer-Günəş prosesləri ilə bağlayıb əvvəlcədən dəqiqliklə proqnozlaşdırmaq olar. Bu işlə məşğul olan adamlara əvvəllər baş vermiş təbii fəlakətlər haqqında məlumatlar – statistik materiallar lazım olacaq. Amma qəribəsi budur ki, bir qayda olaraq həmin alimlərin əli qədim mənbələrə çatmır..." [Bünyadova T., s. 146-147].

***Cəlaləddin Əbd ər-Rəhman əs-Suyuti. Kəşf əs-səlsələ an vəsf əz-zəlzələ ("Zəlzələlərə dair görüşlərin şərhi"). Ərəbcədən tərcümə, qeyd və şərhlər Z.M.Bünyadovun və C.Ə.İsgəndərovundur. Rus dilində. Bakı: Elm, 1983, Milli Azərbaycan Tarixi Muzeyinin kitabxanası, A-3452.***

*"Çox hörmətli Ziya Musa oğlu!*

*... Ermənistandakı faciə [1988-ci il dekabrın 7-də Ermənistanda baş vermiş güclü zəlzələ - F.C.] məni əmin edir ki, fövqəladə təbii hadisələrin izlərini qədim mətnlərdə axtaran insanlar heç də mənasız işlə məşğul olmurlar... Nəinki zəlzələlər, hətta kometaların görünməsi də bizim əcdadlarımıza gözlənilməz təsir göstərərək, müharibələrə sövq edir və ya, əksinə, onların qarşısını alırdı, çevrilişlərə təhrik edirdi və s. Məhz buna görə Siz mütləq nəzərinizdə tutduğunuz böyük əsəri yazmağa başlamalısınız..."* (Məktubdan fraqment).



***Rusiyalı geoloq, jurnalist Viktor Loyşanın Z.Bünyadova məktubu. 17 dekabr 1988. SMF, № 6359.***



***Dağıstanlı alim, professor Əmri Şıxsəidovun Z.Bünyadova məktubu. 14 yanvar 1988. SMF, № 6257.***

*"Əziz Ziya!*

*Sənin açıqcanı aldım. Sənin yorulmaz, istedadlı fəaliyyətinə səmimi qəlbdən sevinirəm. Sənin nəşr edəcəyin "Gülüstani-İrəm"i səbirsizliklə gözləyirəm. Yeni, şərhli tərcümə həddindən artıq gərəklidir. Təbrik edirəm..."* (Məktubdan fraqment).



***Z.Bünyadovun Abbasqulu Ağa Bakıxanovun "Gülüstani-İrəm" əsərinə yazdığı "Redaktordan" bölməsi və şərhlər. 156 vərəqlik makina yazısı və əlyazma. SMF, № 4801.***




***Abbasqulu ağa Bakıxanov. Gülüstani-İrəm. Redaktə, şərhlər, qeydlər və göstəricilər Z.Bünyadovundur. Rus dilində. Bakı: Elm, 1991. Milli Azərbaycan Tarixi Muzeyinin kitabxanası, A-1685.***



***Z.Bünyadov Dağıstanın Mahaçqala şəhərində keçirilən konfransda. SMF, № 2634.***



***Z.Bünyadov Şərqşünaslıq İnstitutundakı iş kabinetində. 1989. SMF, № 6221.***



Дорогой Зия!

Dağıstanlı tarixçi, professor Vladilen Hacıyevin Z.Bünyadova məktubu. Tarixsiz. SMF, № 6258.

*"Əziz Ziya!*

*Sənin qısa, lakin mənim üçün çox əziz olan məktubunu aldım. Sağ ol, dost! Mən həmişə bilirdim ki, sənin üçün kişi dostluğu və dostlar hər şeydən üstündür. Əmin ola bilərsən ki, mən də sənin üçün nə lazım olsa, məndən nə tələb olunsa, edərəm. Bu, səmimi sözümdür..."* (Məktubdan fraqment).



**Z.Bünyadov Azərbaycan Respublikası EA Elmi-təşkilat şöbəsinin rəisi Heydər Qədirov (soldan birinci) və dağıstanlı tarixçi, professor Vladilen Hacıyevlə. 1996. SMF, № 2635.**



***Akademik Firudin Köçərli ilə. Noyabr, 1984. SMF, № 6103.***

"Ziya Firudin Köçərli ilə söhbət eləməyi çox sevərdi. Çünki o, Ziyanın istedadının miqyasını yaxşı bilir, həyatının ən çətin anlarında dayağı olurdu. Bundan başqa Firudin müəllim dostunu sakitləşdirər, gərginliyini, stresini söndürər, fikir və enerjisini həyatın başlıca işlərinə yönəltməyi bacarırdı." [Bünyadova T., s. 163].



***Soldan: akademiklər Bəkir Nəbiyev, Budaq Budaqov, Z.Bünyadov, Toğrul Şahtaxtinski, Midhət Abbasov. SMF, № 6206.***



***Akademik Fəraməz Maqsudovla Naxçıvanda. SMF, № 6135.***



*Ziyafət məclisində. Soldan: şərqşünas Rəhim Qazi, Z.Bünyadov, akademiklər İqrar Əliyev, İmam Mustafayev. SMF, № 6118.*



*Ziyafət məclisində. Soldan: akademik Həsən Abdullayev, ?, akademik İsmayıl İbrahimov, akademik Faiq Bağırzadə, şeyxülislam Allahşükür Paşazadə, Z.Bünyadov. SMF, № 6172.*



“SSRİ Xalq artisti, özü də onun kimi Qəhrəman (ancaq Sosialist Əməyi) olan Fikrət Əmirovla hələ indiyəcən oxunmamış qədim musiqi alətləri barədə söhbətlər eləmişdi. Nə bilmək olar, bəlkə elə orada Fikrət Əmirov və Niyazinin “Şur”, “Kürd ovşarı” və “Rast” kimi dahiyanə əsərlərinin yazılmasına təkan verən məqamlar gizlənibmiş? Ziya bu mövzu ilə bağlı (həm də yalnız bununla yox!) özünə Niyazi kimi qətiyyətli və coşğun təbiətli bir həmfikir də tapmışdı. Onlar bir məsələdə tamamilə yekdil idilər - əsrlərin dərinliyində qalmış xəzinələri elə bu gün, sabaha qoymadan tapıb üzə çıxarmaq, yenidən xalqa qaytarmaq lazımdır!” [Bünyadova T., s. 143].

***Maestro Niyazi ilə. SMF, № 6211.***



***Bəstəkar Fikrət Əmirovla. SMF, № 6105.***



Z.Bünyadovun Səhl ibn Sumbat və Qriqor Haməm haqqında əlyazma. Rus dilində. 3 vərəq. SMF, № 689/10.



Z.Bünyadovun "Tənqidçilərimə və opponentlərimə cavab" məqaləsi. Rus dilində makina yazısı. 13 vərəq. SMF, № 615/5.



Z.Bünyadovun "Ərəblərin Azərbaycanı istilası" məqaləsi. Rus dilində 6 vərəqlik əlyazma. SMF, № 4802.






*Z.Bünyadovun Əbdürrəşid əl-Bakuvinin "Kitab təlxis əl-asar" əsərinin ərəbcədən Azərbaycan dilinə tərcüməsi. 122 vərəqlik əlyazma. SMF, № 4798.*

*Əbdürrəşid əl-Bakuvi. Təlxis əl-əsar və-l-əcaib əl-məlik əl-qəhhar ["Abidələrin" xülasəsi və qüdrətli hökmdarın möcüzələri]. Mətnin nəşri, tərcümə, müqəddimə, qeydlər və əlavələr Z.Bünyadovundur. Rus dilində. Moskva: Nauka, 1971. Milli Azərbaycan Tarixi Muzeyinin kitabxanası, B-787.*



*Z.Bünyadovun Nizaməddin Şaminin "Zəfər-namə" əsərinin ərəbcədən Azərbaycan dilinə tərcüməsi. 74 vərəqlik əlyazma.*
*SMF, № 4799.*



*Z.Bünyadovun "Qarapapaqlar" məqaləsi. Azərbaycan dilində 20 vərəqlik əlyazma.*
*SMF, 4800.*




*Azərbaycan SSR EA-nın vitse-prezidenti akademik Z.Bünyadovun vəsiqəsi. SMF, № 689/5.*




*Azərbaycan EA-nın vitse-prezidenti akademik Z.Bünyadovun vəsiqəsi. SMF, № 689/6.*



ГЕРОЮ СОВЕТСКОГО СОЮЗА

товарищу БУНИЯТОВУ З.М.

Уважаемый Зия Муса оглы !

В знаменательный день Праздника Победы шлем Вам, активному участнику Великой Отечественной войны, наши сердечные поздравления.

Отстаивая честь и свободу советского государства, Вы проявили образцы мужества и отваги, пламенного советского патриотизма и Родина высоко оценила Ваши заслуги присвоением самого почетного звания Героя Советского Союза.

Горячо желаем Вам хорошего здоровья, счастья, успехов в Вашей деятельности на благо Родины.

Секретарь Центрального Комитета Компартии Азербайджана
Г. АЛИЕВ

Председатель Президиума Верховного Совета Азербайджанской ССР
К. ХАЛИЛОВ

Председатель Совета Министров Азербайджанской ССР
А. ИБРАГИМОВ

Май 1971 г.
г. Баку

***9 May - Qələbə Günü münasibətilə Azərbaycan KP MK-nın I katibi Heydər Əliyev, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Qurban Xəlilov və Azərbaycan SSR Nazirlər Sovetinin sədri Əli İbrahimovun Z.Bünyadova ünvanladıqları təbrik. May, 1971. SMF, № 6534.***

“Elm onun taleyinin nə qədər böyük hissəsini zəbt eləsə də, müharibə başında qalmış həmin mərmi qəlpəsi kimi bircə an da onun beynindən çıxmırdı. Başqa cür də ola bilməzdi – müharibə onun həyatının ən başlıca hadisəsi idi. Təbii ki, belə bir adam üçün ən sevimli bayram da Qələbə günü idi. Artıq aprelin son günlərindən başlayaraq hansısa daxili ruh yüksəkliyi ilə 9 Maya hazırlaşırdı. Məktəblilərin dəvətlərinə sevinə-sevinə gedər – Vətənin gələcək müdafiəçilərinə əsl kişilərin ayrılmaz keyfiyyətləri haqqında danışardı.” [Bünyadova T., s. 126].



*İkinci Dünya Müharibəsi veteranları ilə görüş. Soldan: oturanlar - Həsən Seyidov (Azərbaycan KP MK-nın katibi), Hacıbaba Əfəndiyev (Xalq Nəzarəti Komitəsinin sədri), Anatoli Konstantinov (Bakı Hava Əleyhinə Müdafiə qoşunları komandanı), Hacıağa İbrahimov (Azərbaycan KP MK-nın katibi), Qurban Xəlilov (Azərbaycan SSR Ali Sovetinin sədri), Aslan Vəzirov (Respublika Müharibə Veteranları Komitəsinin sədri), Heydər Əliyev (Azərbaycan KP MK-nın Birinci katibi), Əli İbrahimov (Azərbaycan SSR Nazirlər Sovetinin sədri), Sergey Kozlov (Azərbaycan KP MK-nın II katibi), İsmayıl İbrahimov (Nazirlər Soveti sədrinin I müavini), Daniil Quliyev (Azərbaycan KP MK-nın katibi), Əli Kərimov (Bakı şəhər partiya komitəsinin katibi), Moisey Şaxnoviç (Sovet İttifaqı Qəhrəmanı). İkinci sıra: 3-cü - Züleyxa Seyidməmmədova, 9-cu - Dürrə Məmmədova, 11-ci - Ağaşirin Cəfərov, 12-ci - Mərdan Musayev, 13-cü - Əhmədiyyə Cəbrayılov, 14-cü - Vitali Krasilnikov (Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin sədri). Üçüncü sıra: 1-ci – Vasili Lozov, 6-cı - Adil Quliyev, 13-cü - Akim Abbasov. Dördüncü sıra: 1-ci – Boris Yanaliyev, sonuncu - Z.Bünyadov. Beşinci sıra: mərkəzdə - general Hüseyn Rəsulbəyov. Yuxarı cərgədə sağda ağ kiteldə - Səlahəddin Kazımov (Azərbaycan SSR daxili işlər nazirinin müavini). SMF, № 6195.*



*Azərbaycandan olan Sovet İttifaqı Qəhrəmanlarının bir qrupu. Soldan: oturanlar – Stepan Fedorenko, Nəcəfqulu Rəfiyev, Müseyib Allahverdiyev, Moisey Şaxnoviç. Ayaq üstə duranlar - ?, Bahəddin Mirzəyev, Z.Bünyadov, Əlif Piriyev, Boris Yenaliyev, Vasili Lozov. SMF, № 6169.*




*Azərbaycandan olan Sovet İttifaqı Qəhrəmanları. Fotovinyet. SMF, № 6233.*




***Z.Bünyadova məxsus 5-ci Ordu veteranının döş nişanı. 17 may 1977-ci ildə verilmişdir. KTFMF, № 1139.***



Обращаясь ныне к ветеранам войны, хочется сказать: „Вы с честью выполнили свой долг перед страной, перед партией, перед историей. Родина-мать благодарит Вас. Имена Ваши навечно вписаны в летопись героических свершений Советского народа.

. . . Уважение к ветеранам исторических битв, забота о них — это моральный закон нашей жизни, закон и для органов власти, и для каждого гражданина".

(Из речи Генерального секретаря ЦК КПСС товарища Л. И. Брежнева на торжественном собрании, посвященном 30-летию Победы Советского народа в Великой Отечественной войне.)

**УДОСТОВЕРЕНИЕ**

**к нагрудному знаку ветерана 5-ой Ударной Армии.**

Фамилия Буниятов

Имя Зия

Отчество Мусаевич

Председатель Совета ветеранов 5 Ударной Армии Генерал-лейтенант Ф. Боков

Секретарь Совета Майор Б. Райхельд

17. мая 1977 г.

***5-ci Ordu veteranı döş nişanının vəsiqəsi. KTFMF, № 1140.***



*Z.Bünyadov bir qrup şəxslə Moskvada Mərkəzi Sovet Ordusu Evinin həyətində. 1973. SMF, № 6141.*



*İkinci Dünya Müharibəsi veteranlarının bir qrupu. Soldan: oturanlar – 2-ci - Aslan Vəzirov, 6-cı - Tofiq Ağahüseynov. İkinci sıra: 1-ci - Dürrə Məmmədova, 4-cü – Z.Bünyadov. SMF, № 6199.*




***Z.Bünyadov (soldan 1-ci) veteranlar və hərbçilər arasında Tbilisidəki Zaqafqaziya Hərbi Dairəsinin Tarix Muzeyinin qarşısında. SMF, № 6220.***



***18-ci Qırmızı Ordunun Bakıdakı muzeyinin açılış mərasimində. Soldan: Bakı şəhəri Şaumyan (indiki Xətai) rayon partiya komitəsinin birinci katibi Yevgeniya Yusova, Z.Bünyadov, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Qurban Xəlilov, Azərbaycan SSR Nazirlər Sovetinin sədri Əli İbrahimov, Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev. 1980. SMF, № 615/3.***

"Bir dəfə Qələbə günü ərəfəsində Ziya Mərkəzi televiziya ilə çıxış edirdi – ona xüsusi veriliş həsr olunmuşdu. O, özü və yoldaşları haqqında danışdı, həlak olan dostlarını xatırladı, eyni zamanda müharibədən sonra doğma şəhər və kəndlərinə qayıtmış silah yoldaşlarına müraciət etdi. Veriliş qurtarar-qurtarmaz maraqlı hadisələr baş verdi: telefon ara vermədən zəng çalırdı. Ucsuz-bucaqsız Sovet İttifaqının hər yerindən bizə telefon açırdılar. Sonralar bildik ki, şəhərlərarası məlumat bürosu bizim telefon nömrəmizi istəyənlərə sorğu-sualsız verirmiş. Ziya leysan kimi yağan xatirə və həyəcan dolu hisslərdən başını qaldıra bilmirdi. Yaxşı xatirladığı yaxın dostları zəng eləyirdi. Amma elələri də vardı ki, yalnız müəyyən hadisələri xatırlatdıqdan sonra yadına sala bilirdi. Ən qəribəsi isə onun heç tanımadığı adamların zəngləri idi. Onlardan biri hətta "iki ayağını bir başmağa qoyub" düşmən hücumu zamanı məhz Ziyanın onu döyüş meydanından yaralı halda çıxardığını bildirdi. Başqa birisi yadına salmağa çalışırdı ki, Ziya onu itələyib xəndəyə saldıqdan sonra durmuş olduğu yerə mərmi düşmüşdü. Daha nələr, nələr... belə zənglərin sayı-hesabı isə elə sonrakı günlərdə də yox idi. Deməli, çətin vəziyyətlərdə o, çoxlarına kömək etməyə müvəffəq olubmuş. Lakin özü bütün bunları unutsa da, xilas etdiyi insanlar onun elədiklərini ömürləri boyu xatırlayırdılar." [Bünyadova T., s. 129-130].



Центральный Комитет
профсоюза
работников культуры
награждает

ПОЧЕТНОЙ ГРАМОТОЙ

*Z.Bünyadova SSRİ Silahlı Qüvvələri üzərində mədəni hamilik işində fəal iştirakına görə SSRİ Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Mərkəzi Komitəsi tərəfindən verilmiş Fəxri fərman. 29 oktyabr 1978. SMF, № 3080.*



1945 1985

*Ümumittifaq "Bilik" Cəmiyyəti İdarə Heyətinin Z.Bünyadova 1941-1945-ci illər Böyük Vətən Müharibəsində Qələbənin 40 illiyi münasibətilə göndərdiyi təbriknamə. SMF, № 3082.*



*Ələk. Üzərində II Dünya Müharibəsi iştirakçılarının, tanınmış şəxslərin, o cümlədən Z.Bünyadovun adları və imzaları var. May, 1980. HXƏF, № 6203.*




**SMF, № 6180.**




**SMF, № 6181.**

***Z.Bünyadov Bakı Ali Ümumqoşun Komandirləri Məktəbində.***

“Onu Ali Ümumqoşun məktəbində səbirsizliklə gözləyirdilər. Məzunu olduğu həmin məktəb o zamanlar Bakı piyadalar məktəbi adlanırdı. Ziya ömrü boyu bu hərbi məktəbə qəlbən bağlı olmuşdu. Hər dəfə onun kandarına ayaq basanda, qapısından içəri keçəndə həyəcan keçirərdi. Girişin yanındakı böyük stenddə özünün, kurs yoldaşlarının şəkillərinə baxardı. Onların çoxu əbədi olaraq döyüş meydanlarında qalmış, ancaq qəhrəmanlıqları ilə tərbiyə və təhsil aldıqları bu doğma məktəbin adını ucaltmışdılar... Ziya həmişə kursantların həyatı, məişəti, boş vaxtlarını necə keçirmələri ilə maraqlanırdı. Onlarla böyük həvəslə görüşər, gələcək zabitlərin hərbi-vətənpərvərlik tərbiyəsində yaxından iştirak edərdi. Hansısa çatışmazlığa görə narahat olur, ən kiçik nailiyyətlərinə belə sevinirdi. Hər dəfə hərbi andiçmə mərasimində iştirak edərkən Vətənə sədaqət sözü verən gənc kursantların həyəcanlı üzlərinə baxıb, özünün cavanlıq illərini xatırlayır, uzun müddət ürəyində baş qaldıran qeyri-adi hisslərin təsiri altında olurdu. Amma o, buraxılış günü məktbə daha böyük həyəcanla yollanırdı. Bilirdi ki, onların Sovet İttifaqı Qəhrəmanı olmuş keçmiş məzunun təbrik və xeyir-duasına böyük ehtiyacları var. İlk dəfə təzə zabit paltarı geyib aldıqları leytenant poqonlarını ovuclarında sıxan kursantların meydanda nizamlı addımlarla hərəkət etdiyini görəndə özü də həmin gənclər kimi sevinirdi. Onların qulaqbatıran “Ura!” səslərini eşitməyin isə ayırca ləzzəti vardı.” [Bünyadova T., s. 126-127].



Здравствуйте уважаемый
тов. Буниятов
24 марта по центральному телевидению
в программе „Время", Вы выступили со
своими воспоминаниями о войне.
Вы очень напоминаете мне нашего
командира 213й отдельной штрафной роты,
не Вы ли это? И не служили-ли Вы
в военной комендатуре района Панкова?
Я бывший фельдшер 213й роты, млад-
ший лейтенант, и бывшая переводчица
военной комендатуры р-на Панкова, было б
очень рада, если б Вы оказались именно тем
капитаном - командиром роты.
Если Вы помните меня, Житовецкую
Марию Исааковну, то прошу ответить.
Я проживаю в гор. Херсоне, работаю
в учреждении ЮЗ 17/90 - Мальцева Мария
Исааковна. Если Вы не тот, то прошу меня
извинить. До свидания

***Xersondan (Ukrayna) İkinci Dünya müharibəsi iştirakçısı Mariya Maltsevanın (Jitovetskayanın) Z.Bünyadova məktubu. Tarixsiz. SMF, № 6433.***

*"Salam, hörmətli yoldaş Bünyadov.*

*Martın 24-də Mərkəzi televiziyadakı "Zaman" verilişində Siz müharibə haqqında xatirələrinizlə çıxış etdiniz.*

*Siz mənə bizim 223-cü əlahiddə cərimə bölüyünün komandirini çox xatırladırsınız. Siz o deyilsiniz ki? Və Siz Pankov rayonu hərbi komendaturasında xidmət etməmisiniz ki?*

*Mən, 223-cü bölüyün keçmiş feldşeri, kiçik leytenant və Pankov rayonu hərbi komendaturasının keçmiş tərcüməçisiyəm. Siz məhz həmin kapitan – bölük komandiri olsaydınız, çox şad olardım.*

*Əgər Siz məni – Jitovetskaya Mariya İsaakovnanı xatırlayırsınızsa, onda cavab vermənizi xahiş edirəm.*

*Mən Xerson şəhərində yaşayır, YZ 17/90 müəssisəsində işləyirəm – Maltseva Mariya İsaakovna. Əgər Siz həmin adam deyilsinizsə, onda xahiş edirəm, məni bağışlayasınız.*

*Sağ olun.*
*İmza".*

"Ziyanın Mariya Jitovetskayadan məktub alarkən necə sevindiyini indi də xatırlayıram.

- Bilirsən o kimdir? Həyatımı borclu olduğum tibbi xidmət leytenantıdır. Artilleriya hücumu zamanı o məni öz bədəni ilə qoruyub ağır yaralanmışdı. Mariya belə insandır!" [Bünyadova T., s. 130-131].



***Keçmiş Almaniya Demokratik Respublikasının 25 illiyi münasibətilə sovet nümayəndə heyətinin tərkibində Berlinə dəvət almış Z.Bünyadov. Berlin, 1974. SMF, № 6223.***



***Almaniyada Z.Bünyadova hədiyyə edilmiş "Berlin televiziya qülləsinin maketi" suveniri. HXƏF, № 6198.***

"1974-cü ilin 3 oktyabrında Azərbaycan KP MK-dan bizə telefon zəngi oldu. Dedilər ki, təcili surətdə Moskvaya uçmalıdır. Almaniya-Sovet Dostluğu Cəmiyyəti onu Almaniya Demokratik Respublikası yaradılmasının 25 illiyi təntənələrində iştirak etmək üçün Berlinə dəvət eləyirdi. Alman xalqının həyatında mühüm hadisə olan günə həsr olunmuş tədbirlərə yola düşəcək partiya-hökumət nümayəndə heyətinin tərkibində onun da adı vardı. Bu xəbər Ziyaya təsvirolunmaz bir ruh yüksəkliyi gətirdi. O, möhkəm həyəcanlanmış və hətta elə o saat nəsə bir az da dəyişmişdi. Narahatlıq keçirməsi, əsəbiləşməsi açıq görünürdü. Moskvaya uçmamışdan qabaq gecəni yarıqaranlıq otaqda oturub fikirləşir, keçmiş günlərini xatırlayırdı. Əsrin dörddə birinə bərabər bir zaman kəsiyindən sonra həyatının ən dəhşətli günləri ilə bağlı yerlərə yenidən qayıtmaq o qədər də asan məsələ deyildi. Mənə elə gəlmişdi ki, o, həmin gecə bütün cəbhə yolunu təzədən keçmiş, hamını və hər şeyi təzədən yada salmışdı. Ən böyük xoşbəxtlik isə bütün bu dəhşətli günlərin sonunun Qələbə ilə bitməsi idi." [Bünyadova T., s. 133].



***Z.Bünyadova Sovet-Alman Dostluq Cəmiyyəti tərəfindən fəxri qızıl nişanın təqdim olunması. Berlin. Oktyabr, 1974. SMF, № 6161.***




***Z.Bünyadova Sovet-Alman Dostluq Cəmiyyəti tərəfindən verilmiş fəxri qızıl nişan diplomu. 7 oktyabr 1974. KTFMF, № 1099.***



***Fəxri qızıl nişan. KTFMF, № 1097.***



***Soldan: Bakı şəhər partiya komitəsinin katibi Vəli Məmmədov, professor Həsən Əliyev, ?, Z.Bünyadov, akademik Rüstəm İsmayılov (EA-nın prezidenti). İmzalayan – kosmonavt Vladimir Şatalov, başı üstündə dayanan – kosmonavt Aleksey Yeniseyev. SMF, № 6203.***



***Marqanets dağ-mədən kombinatı (Ukrayna) mədənçilərinin Z.Bünyadova hədiyyə etdiyi suvenir – manqanla doldurulmuş şüşə silindr. HXƏF, № 6197.***



***Z.Bünyadov Bakıda Lenin (indiki Azadlıq) meydanındakı mitinqdə çıxış edərkən. FMF, № 20300.***



***Xalq yazıçısı İsmayıl Şıxlı və Xalq şairi Bəxtiyar Vahabzadə ilə birlikdə mitinq vaxtı. 1988-89-cu illər. SMF, № 6133.***

"...1988-ci ilin oktyabrında ermənilərin Qarabağdakı separatçı hərəkətlərinə qarşı xalq kütlələrinin qeyri-mütəşəkkil narazılıqları başlayanda və insan seli sonralar "Azadlıq meydanı" adını almış böyük meydanı dolduranda Ziya öz xalqı ilə bir yerdə idi. O, azərbaycanlıların, nəhayət ki, ayılmasına, nəhayət ki, bütün hədləri aşmış, xəyanət daşını qoltuğunun altından çıxarmış həyasız qonşulara cavab vermək vaxtının yetişdiyini anlamasına görə uşaq kimi sevinirdi." [Bünyadova T., s. 163].

"Martın 16-sında [1988-ci il] Akademiyanın dəyirmi zalında ən izdihamlı mitinq keçirildi. Ümumiyyətlə, Sumqayıt hadisələrindən sonra bədbinliyə qapılan xalqı ağılla idarə etməyi, onu təmkinli olmağa çağırmağı, fitnələrə uymamağı öyrətməyi Akademiya kollektivi öz üzərinə götürdü, həmin kollektivə isə akademik Ziya Bünyadov rəhbərlik edirdi. Onun EA partiya fəalları yığıncağındakı çıxışından, "Ədəbiyyat və incəsənət"dəki məqaləsindən sonra xalq arasında hörməti misilsiz dərəcə artmışdı... Ziya Bünyadov elə bir hörmət qazanmışdı ki, onun bir barmağının işarəsi ilə minlərcə adam bir yerə yığışır, yığışanlar eyni cür də dağılışırdı. Artıq böyük qüvvəyə çevrilən bu alimlə partiya və dövlət işçiləri də çəkinə-çəkinə danışırdılar." [Tahirzadə Ə. Meydan: 4 il 4 ay. Azərbaycan Xalq hərəkatı (1988-1992) haqqında gündəlik-qeydlər. Bakı, 2021, s. 71].



ЦК КПСС
Комиссии по реабилитации

Уважаемые товарищи!

19 октября 1988 г. зав.бюро писем КПК при ЦК КПСС тов.Синяев И. сообщил мне, что наше письмо о получении разрешения на ознакомление со следственными делами репрессированных в 1937-38 гг. сотрудников Академии наук Азерб.ССР, передано Вам на рассмотрение.

Очень хотелось бы получить от Вас положительный ответ на наш вопрос, ибо дети, внуки и уже правнуки расстрелянных хотят знать то, что им нужно и важно знать.

Надеемся на Вашу мудрость.

Позвольте поздравить Вас с Новым годом и пожелать успехов в Вашем труде, результаты которого волнуют многих.

С уважением

Герой Советского Союза,
академик
З.М.Буниятов

***Z.Bünyadovun Sov.İKP MK-ya və Bəraət üzrə Komissiyaya məktubu. 1988.***
***SMF, № 6280.***

*“Hörmətli yoldaşlar!*

*1988-ci il oktyabrın 19-da Sov. İKP MK yanında Partiya Nəzarəti Komissiyası məktublar bürosunun müdiri yol. İ.Sinyayev mənə bildirmişdi ki, bizim 1937-38-ci illərdə repressiya olunmuş Azərbaycan SSR EA-nın əməkdaşlarının istintaq işləri ilə tanış olmaq üçün icazənin alınmasına dair məktubumuz baxılmaq üçün Sizə göndərilmişdir.*

*Sizdən sorğumuza müsbət cavab almağı çox istərdik, çünki güllənənlərin övladları, nəvələri və artıq nəticələri onlara lazım və vacib olanı bilmək istəyirlər.*

*Sizin müdrikliyinizə ümid edirik.*

*İcazə verin, Sizi Yeni il münasibətilə təbrik edim və nəticəsi çoxlarını narahat edən zəhmətinizdə uğurlar arzulayım.*

*Hörmətlə,*
*Sovet İttifaqı Qəhrəmanı,*
*akademik Z.M.Bünyadov”.*



***Z.Bünyadovun Sov.İKP MK yanında Partiya Nəzarəti Komissiyasının sədri Boris Puqoya məktubu. 9 mart 1989. SMF, № 6282.***

*"Hörmətli Boris Karloviç!*

*1988-ci il sentyabrın 19-da biz, Azərbaycan SSR Elmlər Akademiyasının müxtəlif institutlarının yeddi direktoru Sov.İKP MK yanında Bəraət üzrə Komissiyaya 1937-ci və sonrakı illərdə repressiya olunan, daha sonra isə bəraət alan Azərbaycan SSR EA-nın elmi əməkdaşlarının istintaq işləri ilə tanış olmaq məqsədilə məktub ünvanlamış, Azərbaycan SSR DTK-nın arxivində çalışmaq üçün icazə istəmişdik.*

*1988-ci il sentyabrın 27-də biz cavab aldıq ki, məktubumuz Sov.İKP MK-nın Ümumi şöbəsinə verilib. 1988-ci il oktyabrın 19-da biz Sov.İKP MK yanında Partiya Nəzarəti Komissiyası məktublar bürosunun müdiri İ.Sinyayevdən məlumat aldıq ki, məktubumuz "qəbul olunub və baxılmaq üçün Sov.İKP MK-nın Komissiyasına göndərilib".*

*Beləliklə, məktubumuzun Komissiya tərəfindən alınmasından beş aydan artıq vaxt keçib, lakin ona indiyədək heç bir reaksiya yoxdur, halbuki Sov.İKP MK-nın müəyyən etdiyi qaydalara görə, məktublara cavab bir aydan artıq yubadılmamalıdır.*

*Hörmətli Boris Karloviç, məktubda qoyduğumuz məsələ konkretdir: biz 1938-ci və sonrakı illərdə günahsız repressiya olunan və güllələnən Azərbaycan SSR EA-nın bütün əməkdaşlarının qısa tərcümeyi-halından ibarət broşür nəşr etdirmək istəyirik. Həmin alimlərin istintaq işləri ilə tanışlığa başlanılmışdır. Lakin Azərbaycan SSR DTK-nın yeni sədri yol. İ.İ.Qorelskinin təyinatından sonra bizi onun əmrilə DTK-nın arxivinə buraxmadılar, bu qadağanı Sov.İKP MK Partiya Nəzarəti Komissiyasının (daha dəqiq – Bəraət üzrə Komissiyanın) xüsusi icazəsinin olmaması ilə əlaqələndirdilər.*

*Aşkarlıqla əlaqədar konkret bilmək istərdik – bizə bu icazə veriləcəkmi və nə vaxt veriləcək, əgər yox, onda hansı səbəbə görə.*

*Ata-babalarının taleyi haqqında həqiqəti gözləyən represiya qurbanlarının övladlarını və nəvələrini məyus etmək istəməzdik.*

*Sovet İttifaqı Qəhrəmanı,*
*akademik Z.M.Bünyadov.*
*9/III.89".*



**_Cəbrayıl rayonu Böyük Mərcanlı kəndinin sakinlərinin Z.Bünyadova məktubu. 4 aprel 1988. SMF, № 6317._**



ТЕЛЕГРАММА

**_Xankəndində yaşayan Vəliyevlər ailəsinin Z.Bünyadova teleqramı. SMF, № 6340._**



**_Sədərək kəndi (Naxçıvan Muxtar Respublikası) sakinlərinin Z.Bünyadova məktubu. 26 aprel 1988. SMF, № 6321._**



**_Sədərək kəndinin sakini Əhməd Sadıqovun Z.Bünyadova teleqramı. SMF, № 6341._**







Z.Bünyadova Türk Dünyası Araşdırmaları Vəqfi (Ankara, Türkiyə) tərəfindən verilmiş mükafat. 1989. HXƏF, № 6220.

Z.Bünyadova Məhəmməd Əmin Rəsulzadə irsinin və "Müsavat" tarixinin tədqiqində göstərdiyi xidmətlərə görə Azərbaycan Kültür Dərnəyi (Ankara, Türkiyə) tərəfindən verilmiş mükafat. HXƏF, № 6219.




*"Əski müsavatçılar nəsli" Beynəlxalq cəmiyyətinin fəxri üzvü Z.Bünyadovun vəsiqəsi. 1990-cı illərin əvvəli. SMF, № 6546.*




11 №-li seçki dairəsindən Azərbaycan SSR xalq deputatlığına namizəd Z.Bünyadovun seçkiqabağı plakatı. Azərbaycan və rus dillərindədir. SMF, № 3096.




Azərbaycan Respublikasının xalq deputatlığına namizəd Z.Bünyadovun seçkiqabağı plakatı. 1991. Azərbaycan və rus dillərindədir. SMF, № 3097.




11 №-li Xanlar seçki dairəsindən Azərbaycan SSR xalq deputatlığına namizəd Z.Bünyadovun qeydəalınma vəsiqəsi. 9 avqust 1990. SMF, № 6460.

"...Ziyaya öz xalqına, öz vətəninə xeyir vermək hissi hərəkət verirdi, nəinki şöhrət, maddi nemət və mükafatlar. Bax elə bu hisslərlə də o, 1989-cu ildə Azərbaycan SSR Ali Sovetinə deputatlığa namizədliyinin irəli sürülməsinə razılıq verdi. Amma Ziyanı "siyasətə" buraxmağa qoymadılar: ona hər cür maneələr yaratdılar. Gah dedilər, qeydiyyatdan düz keçməyib, gah seçicilərlə görüşünün yerini "düzgün" təyin etmədilər və nəticədə də "lazım olan səsləri toplaya bilmədi."...1990-cı ilin payızında Ziyanın namizədliyi Azərbaycan SSR Ali Sovetinə deputat seçkilərində yenidən irəli sürülür. O, öz seçkiqabağı platformasını dəqiq və respublikanın maraqları nəzərə alınmaqla müəyyən edir... Ziyanın parlamentdə onların nümayəndəsi olacağına seçicilərin heç bir şübhəsi yox idi. Onu hamı layiqli və hörmətli adam kimi tanıyırdı. Amma bu dəfə də seçilmədi, indi də kvorum yoxdu. İnanmaq olmur, lakin bu cür bilikli, nüfuzlu, danışıq aparmağı bacaran şəxs, respublikanın ən çətin dövründə, doğrudan da, "persona non qrata" olmuşdu. Axmaqcasına oynanlan bu tamaşanı Ziya acı təbəssümlə qarşıladı. O, qan gölünə dönməkdə olan ölkəni unudub "portfel davası"na çıxmış yalançı vətənpərvərlərin əməllərinə ürək ağrısı və kədər hissi ilə baxırdı." [Bünyadova T., s. 167-168].



*Azərbaycan alimləri Türkiyədə. Soldan - Z.Bünyadov, Rasim Əfəndiyev, Şövkət Tağıyeva, Mahmud İsmayılov, Xaləddin Xəlilov. SMF, № 6184.*




*XI Türk Tarix Konqresinin suvenir nimçəsi. 1990. HXƏF, № 6218.*



*28 may-3 iyun 1990-cı il tarixində Türkiyənin Kayseri şəhərində keçirilmiş Millətlərarası Böyük Azərbaycan Konqresi iştirakçısının çantası. HXƏF, № 5678.*




*Bakı şəhəri, Mərdəkan qəsəbəsi M.Əzizbəyov adına Mədəniyyət Sarayında Hacı Zeynalabdin Tağıyevə həsr olunmuş elmi sessiyanın afişası. Sessiyanın iştirakçıları arasında Z.Bünyadovun adı göstərilib. 8 dekabr 1990. SMF, № 3094.*



*Hacı Zeynalabdin Tağıyev adına Azərbaycan Milli Mükafatının medalı. 28 may 1992-ci ildə verilmişdir. KTFMF, № 1093.*




*Z.Bünyadov, Vasim Məmmədəliyev və Allahşükür Paşazadəyə H.Z.Tağıyev adına Xeyriyyə Fondu tərəfindən verilmiş Hacı Zeynalabdin Tağıyev adına Azərbaycan Milli Mükafatının ("Elm sahəsində" nominasiyası üzrə) diplomu. 1992. KTFMF, № 1094.*



Z.Bünyadovun "Qurani-Kərim"in I-IV surələrinin Azərbaycan dilinə tərcüməsi. 167 səhifəlik əlyazma. SMF, № 4797.



*Qurani-Kərim. Ərəb dilindən tərcümə edənlər Z.Bünyadov və V.Məmmədəliyev. Bakı, 1991. Milli Azərbaycan Tarixi Muzeyinin kitabxanası, Az-166.*



Имонга чорловчи суз

*Özbəkistanın "Quliston" jurnalının 1991-ci il yanvar buraxılışında "İmana aparan söz" sərlövhəsi altında Z.Bünyadovla Quranın tərcüməsinə dair müsahibə. Özbək dilində. SMF, № 2523.*

"...Vasim Məmmədəliyevlə birlikdə "Qurani-Kərim"in Azərbaycan dilinə tərcüməsinə başladı. Bu, dindarlarımız üçün böyük hədiyyə idi. İş gərgin olmaqla bərabər, həm də uzun çəkdi. Ziya özünə xas dəqiqliklə şərhləri və qeydləri yazıb tərtib eləyir, baş müqəddəs kitabımızın hər bir kəs üçün anlaşıqlı olmasına çalışırdı. "Qurani-Kərim"in azərbaycanca nəşrinin gözəl və peşəkarcasına tərtibatı tərcümə müəllifləri üçün ən böyük mükafat idi. Onlar öz zəhmətləri üçün cəmi dörd "şirvan" [40000 köhnə AZN-F.C.] almışdılar, mən də bu "əliaçıqlığ"a təəccüblənəndə isə demişdi:

- Onu pula görə yox, insanlara görə tərcümə eləmişəm. İstəmişəm ki, Quranı daha çox azərbaycanlı oxuyub başa düşsün." [Bünyadova T., s. 155].



ТАРИХ ЕЛМИ... ДҮНЈАНЫН ТӘҸРҮБӘСИНИ БИЗӘ КӘШФ ЕДИР.

А. А. БАКЫХАНОВ

Вәсигә № 01

Бүнјадов Зија Муса оғлу јолдашы Азәрбајҹан «Билик» Ҹәмијјәти Идарә һеј'әти Рәјасәт һеј'әтинин «28» мај 1992 ил тарихли гәрары илә Аббасгулу Аға Бакыханов адына мүкафат верилмишдир.

Азәрбајҹан «Билик» Ҹәмијјәти Идарә һеј'әтинин сәдри

Азәрбајҹан «Билик» Ҹәмијјәти Идарә һеј'әтинин елми катиби

***Z.Bünyadova Azərbaycan "Bilik" Cəmiyyəti İdarə Heyəti Rəyasət Heyəti tərəfindən verilmiş Abbasqulu Ağa Bakıxanov adına mükafatın 1 №-li vəsiqəsi. 28 may 1992. SMF, № 6547.***




***Filoloq alim Voroşil Qukasın 60 illik yubiley tədbiri. Soldan: Fazil Əhmədov, Fəridə Məmmədova, Ədalət Tahirzadə, Bəkir Nəbiyev, Yusif Aydınov, Z.Bünyadov, Əlibala Məmmədov, Xalid Əlimirzəyev, Qara Əhmədov. Nic Kənd Mədəniyyət Evi, 11 yanvar 1992. FMF, № 20300.***



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

BAKI

Азәрбајҹан Республикасы Елмләр Академијасынын витсе-президенти, академик

Зија Бүнјадова

№ 1/1342

«17» декабр 1993 cü il

Һөрмәтли Зија мүәллим!

Анадан олмағынызын јетмиш иллији мүнасибәтилә Сизи үрәкдән тәбрик едирәм, мүдриклик јашында мөһкәм ҹан сағлығы вә јени-јени уғурлар арзулајырам.

Сиз узун илләр боју тарих елминин инкишафы јолунда кәркин ахтарышлар апармағы өзүнүзүн мә'нәви борҹуна чевирмисиниз. Орта әсрләр Азәрбајҹанынын ачылмамыш сәһифәләринин араşдырылмасына, өјрәнилмәсинә һәср едилән онларла китабынызда, јүзләрлә мәгаләнизә [illegible] вә тарих елминә бејнәлхалг нүфуз газандырмаға чалышмысыныз. Алим сәбриниз вә мүгтәдирлијиниз сајәсиндә Шәрг тарихинин әсас мәнбәләри дилимизә тәрҹүмә едилмишдир. Мүгәддәс "Гур'ани-Кәрим"и сон јетмиш илдә јенидән тәрҹүмә едәнләрдән вә нәшрә һазырлајанлардан бири кими бөјүк саваб иш көрмүсүнүз.

Азәрбајҹан Республикасы Елмләр Академијасынын витсе-президенти, академик кими Сиз инди дә елми фәалијјәтинизи давам етдирәрәк халгымызын тарихи сынаға чәкилдији бир заманда әлиниздән кәләни әсиркәмирсиниз.

Әминәм ки, мүстәгил Азәрбајҹанымызын намина бундан сонра да јорулмадан чалышаҹаг, бизи елм ҹәбһәсиндәки уғурларынызла севиндирәҹәксиниз.

Һөрмәтлә

ҺЕЈДӘР ӘЛИЈЕВ

***Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin Z.Bünyadova anadan olmasının 70 illiyi münasibətilə göndərdiyi təbrik məktubu. 17 dekabr 1993. SMF, № 3075.***

"1990-cı ilin yanvarında Bakı qırğınının sabahı günü Heydər Əliyevin Moskvada bu qətliamın sifarişçilərinin və icraçılarının ünvanına çox ciddi etirazla çıxış etdiyini, günahsız insanlarla vəhşi rəftarı kəskin qınadığını eşidəndə Ziya bu qənaətə gəlmişdi ki, Heydər Əliyev hər şeyi öz yerinə qoyacaq həmin şəxsdir. Ziya bu fikrə tez-tez qayıdar və hər dəfə də deyərdi ki, nə indi, nə də yaxın gələcəkdə Heydər Əliyevin alternativi yoxdur. Ziyanın bilikli, təcrübəli siyasətçi kimi ona hörməti vardı. Belə hesab eləyirdi ki, DTK generalı rütbəsi dövləti idarə eləmək, lazım gələn yerdə qayda-qanun yaratmaq üçün onun peşəkarlığını göstərən ən yaxşı sübutdur. Ziya deyərdi:

- Əgər Heydər Əliyev kimi bir şəxs, lap əvvəldən burada hakimiyyətdə olsaydı, heç bir Qarabağ məsələsi, ümumiyyətlə olmazdı." [Bünyadova T., s. 222].




*Masaüstü saat. Üzərində “Əziz Ziya müəllimə 70 illiyi münasibətilə Elmi-təşkilat şöbəsinin [Elmlər Akademiyasının] əməkdaşlarından” yazısı var. HXƏF, № 6226.*




*Z.Bünyadova erməni millətçilərinə qarşı ifşaedici elmi axtarışlarına və anadan olmasının 70 illiyinə görə Masallı “Qələbə” Fondu tərəfindən verilmiş diplom. 1993. SMF, № 6548.*



*Vaza. Üzərində "70 il" və "Əziz Ziya Musa oğlu, Sizi yubiley münasibətilə təbrik edirəm. Dərin hörmətlə Azərbaycan Respublikasının "Xalq üçün mallar" Dövlət Konserninin idarə heyətinin sədri R.Xələfov" sözləri yazılmışdır. HXƏF, № 6224.*



*Suvenir tar. Üzərində "Ziya müəllimə 70 illik yubileyi münasibətilə Astara Mədəniyyət Şöbəsinin kollektivi adından. 15.01.94" yazısı var. HXƏF, № 6202.*



*Moskvadakı Əmək və Sosial Münasibətlər Akademiyasının birinci prorektoru, fəlsəfə elmləri doktoru, professor, əməkdar elm xadimi Marat Baqlay, Sankt-Peterburq Dövlət Mədəniyyət Akademiyasının rektoru, tarix elmləri doktoru, professor Pavel Podbolotov və Bakıdakı Respublika Elmi-Metodik və Mədəni Kompleksinin Həmkarlar İttifaqının baş direktoru, dosent Şamil Sanatulovun akademik Z.Bünyadova anadan olmasının 70 illiyi münasibətilə göndərdikləri təbrik məktubu. 21 dekabr 1993. SMF, № 3078.*



FƏXRİ
FƏRMAN

**_Z.Bünyadova Xəzər Hərbi Donanmasının hərbi dənizçiləri arasında çoxillik fəal hərbi-hamilik fəaliyyətinə görə Azərbaycan Respublikası Hərbi-Dəniz Qüvvələri komandanı kontr-admiral R.Əsgərov tərəfindən verilmiş fəxri fərman. 14 fevral 1994. SMF, № 6535._**



**_Azərbaycan Respublikası Hərbi-Dəniz Qüvvələri komandanı kontr-admiral R.Əsgərovun Z.Bünyadova məktubu. 14 fevral 1994. SMF, № 6536._**



АББАС ГУЛУ АҒА

Б А К Ы Х А Н О В

1996-ЧЫ ИЛИН МУКАФАТЛАРЫНЫН СПОНСОРУ

АСИЈА МУСӘЛМАНЛАРЫ КОМИТӘСИДИР

07 феврал 1997

Б а к ы

*Z.Bünyadova Azərbaycan Tarixi Tədqiqatçılarının Müstəqil Assosiasiyası tərəfindən verilmiş Abbasqulu Ağa Bakıxanov mükafatının diplomu. 1997. SMF, № 6550.*



*“Bakılı” Cəmiyyətinin təsis etdiyi “Humay” Milli Mükafatı. HXƏF, № 6199.*



*Kiçik su qabı. Üzərində “Ziya müəllimə - ağsaqqalımıza “Nəbi-Həcər” müəssisəsindən. 09.05.94” yazısı var. HXƏF, № 6206.*



*Azərbaycan EA Rəyasət Heyətinin üzvləri. Soldan: oturanlar - Nəriman Quliyev, Ziya Bünyadov, Eldar Salayev, Midhət Abbasov, Asəf Nadirov, Urxan Ələkbərov. Ayaq üstə olanlar - Vahid Hacıyev, Fəraməz Maqsudov, Toğrul Şahtaxtinski, Bəkir Nəbiyev, Aslan Aslanov, Akif Əlizadə, Rafiq Feyzullayev, Eldar Quliyev, Heydər Qədirov, ?. Mart, 1995. SMF, № 6194.*




*Azərbaycan Respublikası Milli Məclisinin (I çağırış) deputatı Z.Bünyadovun vəsiqəsi.*
*1995. SMF, № 6549.*

"...Ziya özünü yalnız alim kimi yox, həm də siyasi xadim kimi hiss eləyirdi – axı o, millət vəkili, Milli Məclisin üzvü idi. Qəbul saatı təyin etmədən, özününkü, başqasınınkı demədən bütün seçiciləri qəbul edir, ən müxtəlif adamların ən müxtəlif işlərinə yardımçı olurdu. Onun Akademiyadakı kabinetinin qapıları heç vaxt bağlı olmazdı: xətrinə dəyilmişlər, aldadılmışlar, köməksizlər, ümidsizlər, təcili köməyə möhtac olanlar ara vermədən bura axışırdılar. İş günündən sonra isə onu evinin girəcəyində gözləyir, mənzilimizə gəlir və məni inandırmağa çalışırdılar ki, Ziyadan başqa onlara heç kəs kömək edə bilməz." [Bünyadova T., s. 223].



***Z.Bünyadov MDB-yə üzv-ölkələrin Sovet İttifaqı Qəhrəmanlarının və "Şərəf" ordeninin bütün dərəcələri kavalerlərinin yubiley görüşünün iştirakçıları arasında. Soldan: Aydın Cəfərov (MDB PA-da Azərbaycan Respublikası Milli Məclisinin nümayəndəsi), general Bahadur Hüseynov, 8-ci - Musa Qasımlı (Milli Məclisin Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı), 9-cu - Namiq Əliyev (Milli Məclisin Konstitusiya qanunvericiliyi şöbəsinin müdiri), 10-cu - Vladimir Şumeyko (Rusiya Federal Məclisinin sədri), 11-ci - Yaşar Əliyev (Milli Məclisin deputatı), Z.Bünyadov və b. Sankt-Peterburq, 14 fevral 1995. SMF, № 6111.***



БУНИЯТОВУ З.М.

Дорогой Зия Мусаевич

Федерация мира и согласия сердечно поздравляет Вас с величайшим днем - Днем ПОБЕДЫ. Вы, не жалея своей жизни, спасли наш народ от рабства и гибели, сделали все для свободной и счастливой жизни. Никогда не забудется Ваш подвиг, Ваше самопожертвование во имя будущего. Здоровья Вам, и пусть Ваше счастье продлится в Ваших детях, внуках и правнуках.

Бюро Президиума
Федерации мира и согласия

***Sülh və Həmrəylik Federasiyası Rəyasət Heyətinin Bürosu tərəfindən Z.Bünyadova faşizm üzərində qələbənin 50 illiyi münasibətilə göndərilmiş təbriknamə. 1995. SMF, № 3081.***



***Heydər Əliyev, Sovet İttifaqı Qəhrəmanları Məlik Məhərrəmov və Z.Bünyadov təyyarədə, faşizm üzərində qələbənin 50 illiyi münasibətilə keçirilən təntənəli tədbirlərdə iştirak etmək üçün Moskvaya səfər zamanı. 8 may 1995. SMF, № 6236.***



***Z.Bünyadovun təltif olunduğu "Böyük Vətən Müharibəsində Qələbənin 50 illiyi" medalı. 1995. KTFMF, № 1104.***



***Z.Bünyadovun təltif olunduğu "Georgi Jukov" medalı. 1996. KTFMF, № 1105.***



***Heydər Əliyev "91-lər"in bir qrupu ilə görüşdə (oturanlar arasında soldan beşinci - Z.Bünyadov). 9 sentyabr 1995. SMF, № 6234.***



Һөрмәтли Зијә Бүнјадов ҹәнаба-
рына Шәкидән саламлар!

Сизин һөрмәтләриниз: Акил
Әскәров.
Шәки шәһәри
26.04.95 ил

*Şəki şəhər sakini həvəskar rəssam Aqil Əsgərovun çəkdiyi portreti hədiyyə kimi qəbuletmə xahişi ilə Z.Bünyadova məktubu. 26 aprel 1995. SMF, № 6337.*



Зијә Бүнјатов

*Aşıq Elman Sisyanlının Z.Bünyadova həsr etdiyi şeir. SMF, № 6338.*



*“Ziya” Universitetinin tələbələrinə tələbə biletlərinin təqdim olunması mərasimi. Soldan: ?, Əli Abbasov, Aydın Cəfərov, Fərid Xanlarov, Eldar Salayev, Z.Bünyadov, Heydər Qədirov, Ağababa Rzayev, Məqsəd Sattarov. 1990-cı illərin ortaları. SMF, № 6138.*



*Z.Bünyadov “Ziya” Universitetinin tələbələrinə tələbə biletlərini təqdim edərkən. 1990-cı illərin ortaları. SMF, № 6140.*



*Ərəb tədqiqatçısının Şərqşünaslıq İnstitutunda dissertasiya müdafiəsindən sonra. Soldan: Adil Məmmədov, Oqtay Əfəndiyev, Fəridə Məmmədova, Mahmud İsmayılov, ərəb tədqiqatçısının həyat yoldaşı, Ziya Bünyadov, ərəb tədqiqatçısı, Esmeralda Həsənova, Nailə Vəlixanlı, Vasim Məmmədəliyev. 19 yanvar 1996. SMF, № 6158.*


Буниятов Зия Мусаевич
академик,
вице-президент
Академии наук Азербайджана
СССР, Баку-1 Тел. 92-57-10
Коммунистическая ул., 10 38-87-55
39-29-37

*Z.Bünyadovun vizit kartı. SMF, № 3091.*


اجلاس برنامه ریزی
کنگره بین المللی مطالعات ایرانی
Programming Session of
The International Congress on Iranian Studies
دبیرخانه کنگره
نام و نامخانوادگی: ضیا بنیاداف
Name:
شماره: ۳۰۰

*Beynəlxalq İran Araşdırmaları Konqresinin Proqram sessiyası iştirakçısının vəsiqəsi. 1990-cı illər. Fars və ingilis dillərindədir. SMF, № 689/8.*


نائب رئيس
أكاديمية العلوم
ومدير
معهد الاستشراق
وعضو برلمان
جمهورية أذربيجان

شيخ ضياء الدين بن شيخ
موسى بن شيخ معصوم بن
شيخ مهدي، بن شيخ ميرزا بن
شيخ إسماعيل بن شيخ علي
محمد بن شيخ محمد أمين بن
شيخ علي أصغر بن شيخ محمد
ابن شيخ محمد مقيم بن شيخ
عسكر علي بن شيخ غلام علي
ابن شيخ بنياد الباكوي

*Z.Bünyadovun vizit kartı, şəcərəsi ilə (ərəb dilində). SMF, № 6558.*


ZİYA MUSA BUNİYATOV
Prof. Dr. Azerbaycan Bilimler Akademisi Üyesi
Türk Tarih Kurumu Şeref Üyesi
Şarkiyat Enstitüsü Müdürü
Sovyetler Birliği Bakü - 143 Tel.Ev: 92 50 42
Narimanov Cad. 31 38 87 55
39 29 37

*Türk Tarix Qurumunun fəxri üzvü Z.Bünyadovun vizit kartı. SMF, № 3092.*


TÜRK DÜNYASI
TARİH ARAŞTIRMALARI KONGRESİ
Ankara, 5 - 9 Eylül 1994
PROF.DR.ZİYA MUSA BUNİYATOV
AZERBAYCAN

*5-9 sentyabr 1994-cü il tarixində Ankarada keçirilən Türk Dünyası Tarix Araşdırmaları Konqresinin iştirakçısı Z.Bünyadovun vəsiqəsi. SMF, № 689/9.*



*Z.Bünyadov həyat yoldaşı Tahirə xanımla. Yanvar, 1994. SMF, № 6162.*



*Z.Bünyadov və oğlu Heydər. 1977. SMF, № 6214.*



*Z.Bünyadov öz evində oğlu Cəmillə. SMF, № 6175.*



*Z.Bünyadov və oğlu Cəmil həcc ziyarətində. 1994. SMF, № 6156.*



***Z.Bünyadova "İstiqlal" ordeninin (ölümündən sonra) və bir qrup şəxsə dövlət təltiflərinin təqdim olunması mərasiminin iştirakçıları. Soldan: Tahirə Bünyadova, Nikolay Baybakov, Tükəzban İsmayılova, Heydər Əliyev, Leyla Bədirbəyli, Yaqub Mahmudov; yuxarı sırada – Məzahir Abbasov, Kamran Hüseynov, Abdulla Muxtarov, Süleyman Ələsgərov, Oqtay Sadıxzadə. 7 mart 1999.***
***SMF, № 6150.***



*Z.Bünyadovun Xəzər Universitetində keçirilmiş xatirə gününün iştirakçıları: Soldan: ayaq üstə duranlar – 3-cü – Şövkət Tağıyeva, 4-cü - Sevda Süleymanova, 5-ci - Elmira Əlizadə, 6-cı - Nailə Vəlixanlı, 7-ci - Nailə İsayeva, 8-ci - Tahirə Bünyadova, 9-cu - Şahin Mustafayev, 10-cu - Zemfira Qurbanova, 11-ci - Fikrət Süleymanoğlu. 28 fevral 2002. SMF, № 6177.*



Hörmətli Tahirə xanım!
Azərbaycan Respublikasının
Milli Məclisi Sizi
akademik ZİYA BÜNYADOVUN
xatirəsinə həsr olunmuş
"ÖLDÜRÜLMÜŞ QALAKTİKA"
kitabının təqdimat mərasiminə dəvət edir.
Mərasim 2000-ci il
31 yanvar tarixində
saat 14[00]-da
Milli Məclisdə
(Parlament prospekti, 1)
keçiriləcəkdir.

*2000-ci il yanvarın 31-də Azərbaycan Respublikası Milli Məclisində akademik Z.Bünyadovun xatirəsinə həsr olunan "Öldürülmüş qalaktika" kitabının təqdimat mərasiminə dəvətnamə. Z.Bünyadovun həyat yoldaşı Tahirə Bünyadovaya göndərilmişdir. SMF, № 689/12.*



*Rusiya Elmlər Akademiyası Şərq Əlyazmaları İnstitutunun (Sankt-Peterburq şəhəri) əməkdaşlarının AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunda AMEA-nın həqiqi üzvü, Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadovun anadan olmasının 90 illiyi münasibətilə keçirilən Beynəlxalq elmi simpoziumunun təşkilatçıları və iştirakçılarına məktubu. İnstitutun direktoru İ.Popova və elmi işlər üzrə direktor müavini S.Prozorov imzalamışlar. 4 may 2012. SMF, № 4530.*




*Z.M.Bünyadov. Biblioqrafiya. Bakı: Elm, 1988. Rus dilində. Milli Azərbaycan Tarixi Muzeyinin kitabxanası, A-2962.*




*Akademik Ziya Bünyadov. Biblioqrafiya. Bakı: Ulu, 2012. Azərbaycan və rus dillərində. Milli Azərbaycan Tarixi Muzeyinin kitabxanası, A-3453.*




*Tahirə Bünyadova. Ziya - mənim taleyim. Bakı: Pedaqogika, 2004. Rus dilində. Milli Azərbaycan Tarixi Muzeyinin kitabxanası, A-2376.*

## *Z.Bünyadovun şəxsi əşyaları*



“Ziya Gürcüstana böyük həvəslə gedərdi... Onu dostlarının hər biri öz doğma rayonlarına aparar, əsl gürcü qonaqpərvərliyi ilə qarşılayardılar. Onlar Ziyaya “svan” papağının ən yaxşısını seçməyə çalışırdılar. Həmin papaq həmişə başında olardı. Dostlarının hədiyyəsi öz istiliyi ilə bütün müharibədən sonrakı həyatı boyu ona əziyyət verən baş ağrılarını azaldırdı – boynunun arxasında qalmış faşist qəlpəsi özünü göstərirdi.” [Bünyadova T., s. 160].

***Svan papağı. HXƏF, № 5368.***



***İpək parçadan şərf. HXƏF, № 5367.***



*Eynək. HXƏF, № 5360.*



*Qələm. HXƏF, № 5364.*




*Külqabı. HXƏF, № 5362.*



*Təsbeh. HXƏF, № 6207.*

# Ziya Bünyadovun Milli Azərbaycan Tarixi Muzeyində qorunan kolleksiyasının kataloqu

## Sənədli mənbələr fondu

### Fotoşəkillər:

1. Z.Bünyadov (soldan, yerdə yarıuzanmış vəziyyətdə) orta məktəbin VIII sinfində, müəllimləri və sinif yoldaşları ilə. SMF, № 6186.

2. Sovet İttifaqı Qəhrəmanı, kapitan Z.Bünyadov. 1940-cı illər. SMF, № 6185.

3. Z.Bünyadovun müharibə vaxtı anasına göndərdiyi şəkil. Şəklin arxasında rus dilində öz əli ilə yazdığı “Berlindən 50 km aralıda. 26 mart 1945-ci il. Oğlundan sevimli anacanıma xatirə. Qoy bu yaraşıqsız fotoşəkil səndə Sovet İttifaqı Qəhrəmanı olan oğlunun surətini canlandırsın. Almaniya, Brandenburq əyaləti, Noydamm şəhəri” sözləri var. SMF, № 6212.

4. Z.Bünyadov (soldan 9-cu) hərbçilərlə birgə Berlin şəhərinin Pankov rayonunda. 15 iyul 1945. SMF, № 6197.

5. Z.Bünyadov döyüş yoldaşı ilə. Şəklin üzərində rus dilində “Berlindən salam” sözləri yazılıb. Fotoşəkil çərçivədə. SMF, № 6235.

6. Z.Bünyadovun valideynlərinə göndərdiyi şəkil. Şəklin arxasında rus dilində yazdığı “Sevimli anama və atama oğulları Ziyadan xatirə olaraq” sözləri, həmçinin hərbi hissənin kadrlar şöbəsinin Z.Bünyadovun şəxsiyyətini təsdiq edən qeydi və möhür var. 11 sentyabr 1945. SMF, № 6213.

7-8. Z.Bünyadov dənizçi formasında. Şəklin arxasında rus dilində yazdığı “Əziz valideynlərə oğuldan. Herinqsdorf kurortu. Həvəskar foto. Moskva, 24.12.45” sözləri var. 2 ədəd. SMF, № 6097-6097 a.

9. Z.Bünyadov atası ilə. SMF, № 6215.

10. Z.Bünyadov. 1946-cı ildə çəkilmiş şəkil. SMF, № 6219.

11. Z.Bünyadov mülki geyimdə orden və medallarla. SMF, № 3093.

12. Z.Bünyadov mülki geyimdə orden və medallarla. Fotoşəkil çərçivədə. SMF, № 6224.

13. Z.Bünyadov iki nəfərlə Moskvada təhsil alarkən. SMF, № 6159.

14. Z.Bünyadovun portreti. Yuxarı sağ küncdə rus dilində keçdiyi döyüş yolu haqqında qısa məlumat, şəklin altında isə “1952-1957-ci illərdə Moskvada təhsil alarkən mənə qiymətəgəlməz mənəvi və maddi yardım göstərmiş Ziya Musa oğlu Bünyadova minnətdarlıqla, xatirə olaraq. Hörmətlə, Həbibulla Abdullayev. 11 noyabr 1988.” sözləri var. SMF, № 6642.

15. Z.Bünyadov kitabxanada. SMF, № 615/1.

16. Z.Bünyadovun tək şəkli. SMF, № 6060.

17. Z.Bünyadovun tək şəkli. 1956. SMF, № 6143.

18. Z.Bünyadovun tək şəkli. SMF, № 6170.

19. Z.Bünyadovun tək şəkli. SMF, № 6217.

20. Z.Bünyadovun Tahirə xanıma hədiyyə etdiyi şəkil. Çərçivədədir. Şəklin üzərində rus dilində yazdığı "Çox vaxt haqsız olaraq əziyyət çəkən dostum Tahirəyə. Bünyadov. Moskva. Aprel 1953" sözləri var. SMF, № 6584.

21. Z.Bünyadov naməlum şəxslə. Şəklin arxasında türkcə "Hörmətli arkadaşım Ziyaəddinə məndən xatirə [İmza]. 15.11.1958" yazısı var. SMF, № 6210.

22. S.Kirov adına Azərbaycan Dövlət Universiteti şərqşünaslıq fakültəsinin türk şöbəsi məzunlarının fotovinyeti. 1954-1959-cu illər. Paspartu üzərində. SMF, № 6228.

23. Z.Bünyadov bir qrup şəxslə arxeoloji qazıntılarda. 1960-cı illərin əvvəli. SMF, № 6102.

24. Z.Bünyadov naməlum şəxslə Naxçıvanda Qarabağlar türbəsi önündə. SMF, № 6187.

25. Azərbaycan alimlərinin bir qrupu. Soldan: oturanlar – ?, İqrar Əliyev, Mahmud İsmayılov, Z.Bünyadov. Ayaq üstə olanlar: 2-ci - Yusif Seyidov, 3-cü – İosif Striqunov, 4-cü – Rəhim Vahidov. SMF, № 6200.

26. Azərbaycan tarixçilərinin bir qrupu. Soldan: lövhə qarşısında çıxış edən – Yusif Yusifov. Oturanlar - Z.Bünyadov, İqrar Əliyev, Tofiq Məmmədov, Abdulla Fazili, Zelik Yampolski, ?, ?. SMF, № 6207.

27. Z.Bünyadov və akademik İsmayıl Hüseynov. Leninqrad (indiki Sankt-Peterburq), 1962. SMF, № 605/12.

28. EA-nın Şərqşünaslıq İnstitutunun əməkdaşları. Soldan: oturanlar – Əli Nəvai, Böyükağa Hüseynov, Hökumə Billuri, Əlishöhbət Sumbatzadə (institutun direktoru), Zakir Abdullayev, Z.Bünyadov, ?. Ayaq üstə olanlar – Əkrəm Rəhimov (Bije), Georgi Ter-Ovanesov, Məmmədhəsən Qəmbərov, Hacı Qasımi, Əli Gəlavij, Sultan Mirzəzadə, Abbas Zahidi, Hidayətulla Hatəmi, Cəbrayıl Ruindej, Məhəmmədbağır Qənbəri, Lütfəli Ərdəbiliyan, Əli Şəmidə, Rəhim Qazi. SMF, № 6155.

29. Z.Bünyadov Şərqşünaslıq İnstitutunda iş kabinetində. SMF, № 6108.

30. Z.Bünyadov naməlum şəxslə. Şəklin arxasında rus dilində "Ziyaya! Bizim 1968-ci ildə Şərq ölkələrinə səyahətimizdən xatirə olaraq. 10/IV-70-ci il. Sergey [imza]" sözləri yazılıb. SMF, № 6121.

31. XII Beynəlxalq Tarix Elmləri Konqresinin iştirakçıları. Vyana, 1 sentyabr 1965. SMF, № 6174.

32. Azərbaycandan olan Sovet İttifaqı Qəhrəmanları. Fotovinyet. SMF, № 6233.

33. Azərbaycandan olan Sovet İttifaqı Qəhrəmanlarının bir qrupu. Soldan: oturanlar – Stepan Fedorenko, Nəcəfqulu Rəfiyev, Müseyib Allahverdiyev, Moisey Şaxnoviç. Ayaq üstə duranlar - ?, Bahəddin Mirzəyev, Z.Bünyadov, Əlif Piriyev, Boris Yenaliyev, Vasili Lozov. SMF, № 6169.

34. Böyük Vətən Müharibəsi veteranları ilə görüş. Soldan: oturanlar - Həsən Seyidov (Azərbaycan KP MK-nın katibi), Hacıbaba Əfəndiyev (Xalq Nəzarəti Komitəsinin sədri), Anatoli Konstantinov (Bakı Hava Əleyhinə Müdafiə qoşunları komandanı), Hacıağa İbrahimov (Azərbaycan KP MK-nın katibi), Qurban Xəlilov

(Azərbaycan SSR Ali Sovetinin sədri), Aslan Vəzirov (Respublika Müharibə Veteranları Komitəsinin sədri), Heydər Əliyev (Azərbaycan KP MK-nın Birinci katibi), Əli İbrahimov (Azərbaycan SSR Nazirlər Sovetinin sədri), Sergey Kozlov (Azərbaycan KP MK-nın II katibi), İsmayıl İbrahimov (Nazirlər Soveti sədrinin I müavini), Daniil Quliyev (Azərbaycan KP MK-nın katibi), Əli Kərimov (Bakı şəhər partiya komitəsinin katibi), Moisey Şaxnoviç (Sovet İttifaqı Qəhrəmanı). İkinci sıra: 3-cü - Züleyxa Seyidməmmədova, 9-cu - Dürrə Məmmədova, 11-ci - Ağaşirin Cəfərov, 12-ci - Mərdan Musayev, 13-cü - Əhmədiyyə Cəbrayılov, 14-cü - Vitali Krasilnikov (Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin sədri). Üçüncü sıra: 1-ci – Vasili Lozov, 6-cı - Adil Quliyev, 13-cü - Akim Abbasov. Dördüncü sıra: 1-ci – Boris Yenaliyev, sonuncu - Z.Bünyadov. Beşinci sıra: mərkəzdə - general Hüseyn Rəsulbəyov. Yuxarı cərgədə sağda ağ kiteldə - Səlahəddin Kazımov (Azərbaycan SSR daxili işlər nazirinin müavini). SMF, № 6195.

35. İkinci Dünya Müharibəsi veteranlarının bir qrupu. Soldan: oturanlar – 2-ci - Aslan Vəzirov, 6-cı - Tofiq Ağahüseynov. İkinci sıra: 1-ci - Dürrə Məmmədova, 4-cü – Z.Bünyadov. SMF, № 6199.

36. Z.Bünyadov (soldan 1-ci) veteranlar və hərbçilər arasında Tbilisidəki Zaqafqaziya Hərbi Dairəsinin Tarix Muzeyinin qarşısında. SMF, № 6220.

37-38. Z.Bünyadov bir qrup şəxslə Moskvada Mərkəzi Sovet Ordusu Evinin həyətində. 1973. SMF, № 6120, 6141.

39. Z.Bünyadov və general Mitin Moskvada Mərkəzi Sovet Ordusu Evinin həyətində. 1973. SMF, № 6142.

40. Soldan: Bakı şəhər partiya komitəsinin katibi Vəli Məmmədov, professor Həsən Əliyev, ?, Z.Bünyadov, akademik Rüstəm İsmayılov (EA-nın prezidenti). İmzalayan – kosmonavt Vladimir Şatalov, başı üstündə dayanan – kosmonavt Aleksey Yeniseyev. SMF, № 6203.

41. Z.Bünyadov bir qrup şəxslə Berlində, Almaniya Demokratik Respublikasının yaradılmasının 25 illiyinə həsr olunmuş tədbirdə. 1974. SMF, № 6114.

42-45. Z.Bünyadov Berlində. Oktyabr, 1974. SMF, № 6130, 6191, 6204, 6218.

46. Z.Bünyadova Sovet-Alman Dostluq Cəmiyyəti tərəfindən fəxri qızıl nişanın təqdim olunması. Berlin. Oktyabr, 1974. SMF, № 6161.

47. Z.Bünyadov bir qrup şəxslə Berlində. SMF, № 6163.

48. Z.Bünyadov sovet ordusunun zabiti ilə Berlində. SMF, № 6164.

49. Keçmiş Almaniya Demokratik Respublikasının 25 illiyi münasibətilə sovet nümayəndə heyətinin tərkibində Berlinə dəvət almış Z.Bünyadov. Berlin, 1974. SMF, № 6223.

50. Almaniya Demokratik Respublikasının rəhbəri Erix Honnekerin fotoşəkli olan açıqca. E.Honnekerin avtoqrafı və “7.10.74” yazısı ilə. SMF, № 6147.

51. Azərbaycan SSR EA Yaxın və Orta Şərq Xalqlarının Tarixi İnstitutunun Orta əsrlər Şərq tarixi şöbəsinin əməkdaşları. Soldan: Nailə Vəlixanlı, Elmira Əlizadə, Esmeralda Ağayeva, Cabir İsgəndərov, Z.Bünyadov, Əli Əbdül Qadir. 1975. SMF, № 615/2.

52. Azərbaycan Tarixi Muzeyinin ekspozisiyasında. Soldan: muzeyin Sovet dövrü tarixi şöbəsinin müdiri Zərifə Dulayeva, muzeyin Numizmatika fondunun əməkdaşı Rizvan Əliyev və Z.Bünyadov. May, 1975. SMF, № 6059.

53. Z.Bünyadov "Alimlərin və onların təşkilatlarının tərksilah uğrunda mübarizədə rolu" Beynəlxalq elmi simpoziumunda. Moskva, 15-19 iyul 1975. SMF, № 6201.

54. S.Kirov adına Azərbaycan Dövlət Universiteti şərqşünaslıq fakültəsinin 1976-cı il buraxılışının fotovinyeti. Paspartu üzərində. Sağda yuxarıda – Dövlət İmtahan Komissiyasının sədri Z.Bünyadovun fotoşəkli. SMF, № 6227.

55. Z.Bünyadov bir qrup şəxslə Zakarpatyedə "Xalqlar dostluğu" festivalında. 1977. SMF, № 6122.

56. Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev Z.Bünyadova "Azərbaycan Atabəyləri dövləti" kitabına görə Dövlət Mükafatı laureatı medalını təqdim edərkən. 1980. SMF, № 3076.

57. Z.Bünyadov Dövlət Mükafatı laureatı medalı ilə təltifolunma mərasimində çıxış edərkən. 1980-ci il. SMF, № 6229.

58. 18-ci Qırmızı Ordunun Bakıdakı muzeyinin açılış mərasimində. Soldan: Bakı şəhəri Şaumyan (indiki Xətai) rayon partiya komitəsinin birinci katibi Yevgeniya Yusova, Z.Bünyadov, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Qurban Xəlilov, Azərbaycan SSR Nazirlər Sovetinin sədri Əli İbrahimov, Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev. 1980. SMF, № 615/3.

59. Z.Bünyadov Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin həyətində. SMF, № 6180.

60-61. Z.Bünyadov Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin kursantları ilə. SMF, № 6113, 6181.

62. Z.Bünyadov naməlum şəxslə Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin 50 illiyində. 23 dekabr 1989. SMF, № 6116.

63-64. Z.Bünyadov Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin 50 illiyində. 1989. SMF, № 6189-6190.

65. Z.Bünyadov evindəki iş kabinetində. Noyabr, 1984. SMF, № 6198.

66. Z.Bünyadov hobbisi ilə məşğul olarkən. SMF, № 6178.

67. Ziya və Tahirə Bünyadovların şəkli. SMF, № 6633.

68. Tahirə Bünyadovanın şəkli. 1999. SMF, № 6634.

69. Z.Bünyadov öz evində oğlu Cəmillə. SMF, № 6175.

70. Z.Bünyadov və oğlu Heydər. 1977. SMF, № 6214.

71. Z.Bünyadov Azərbaycan SSR EA Əlyazmalar Fondunda mənbələrlə işləyərəkən. Noyabr, 1984. SMF, № 6196.

72. Z.Bünyadov məxəzlərlə işləyərkən. SMF, № 6205.

73. Z.Bünyadov şəhərdə toplantıda çıxış edərkən. SMF, № 6179.

74. Z.Bünyadov bir qrup şəxslə abidə önünə əklil qoyarkən. SMF, № 6222.

75. Z.Bünyadov həbsxanaların birində çıxış edərkən. 14 oktyabr 1984. SMF, № 6168.

76. Z.Bünyadov sovet ordusunun zabitləri ilə. SMF, № 6124.

77. Z.Bünyadov tribunada çıxış edərkən. SMF, № 6125.

78. Z.Bünyadov və Sovet İttifaqı Qəhrəmanı Vasili Lozov. SMF, № 6126.

79. Z.Bünyadov və Xalq artisti Şövkət Ələkbərova Azərbaycan bölgələrində zəhmətkeşlərlə görüşdə. SMF, № 6127.

80. Z.Bünyadov Respublika Əlyazmalar Fondunun əməkdaşları ilə X-XI yüzil ərəb-ispan alimi Əbu-l-Qasim əz-Zəhravinin "Cərrahiyyə və cərrahlıq alətləri" əlyazmasını müzakirə edərkən. Soldan: Əbülfəz Əliyev, Z.Bünyadov, Teyyub Manafov, Aqil Gəncəli, Nailə Ağayeva. SMF, № 6128.

81. Z.Bünyadov Həştərxanbazarda (indiki Cəlilabadda) sakinlər arasında. Şəklin arxasında "Sizin simada olan hər baxışın və təbəssümün qeyri-adi, mürəkkəb və dərin mənası duyulur. Təbiət və zaman belə şəxsiyyətləri nadir yaradır. Astraxanbazar. İsgəndərov Qulam" sözləri yazılıb. SMF, № 6106.

82. Z.Bünyadov Həştərxanbazarda (indiki Cəlilabadda) sakinlər arasında. SMF, № 6107.

83. Z.Bünyadov bir qrup şəxslə Tbilisidə. SMF, № 6129.

84. Z.Bünyadov bir qrup şəxslə Tbilisidə. SMF, № 6137.

85. Z.Bünyadov hərbçilər və Sovet İttifaqı Qəhrəmanları ilə. SMF, № 6145.

86. Z.Bünyadov Sovet İttifaqı Qəhrəmanlarının bir qrupu ilə. Fotoşəkil çərçivədə. SMF, № 6231.

87. Z.Bünyadov sovet ordusunun general-mayoru ilə. SMF, № 6226.

88. Z.Bünyadov (soldan: orta sırada – 11-ci) Piyadaçı-müharibə veteranlarının Ümumittifaq toplantısının iştirakçıları arasında. Voronej, 16 mart 1980. SMF, № 6659.

89. Z.Bünyadov (soldan: orta sırada – 2-ci) Piyadaçı-müharibə veteranlarının Ümumittifaq toplantısının iştirakçıları arasında. Voronej, 16 mart 1980. SMF, № 6660.

90. Z.Bünyadov (soldan: orta sırada – 11-ci) Piyadaçı-müharibə veteranlarının Ümumittifaq toplantısının iştirakçıları arasında. Voronej, 16 mart 1980. SMF, № 6661.

91. Z.Bünyadov (soldan: yuxarı sırada – 8-ci) Moskvada, Kremldə OADKYC-nin IX Ümumittifaq qurultayının iştirakçıları arasında. 16-17 fevral 1983. SMF, № 6654.

92. Z.Bünyadov Azərbaycandan olan Sovet İttifaqı Qəhrəmanları ilə birlikdə "Bakinski raboçi" qəzetinin redaksiyasında. 15 aprel 1965. SMF, № 6662.

93. Z.Bünyadov və Respublika İnqilabi Şöhrət Şurasının sədri Müseyib Dadaşov. SMF, № 6148.

94. Z.Bünyadov və akademik Firudin Köçərli. Noyabr, 1984. SMF, № 6103.

95. Azərbaycan alimlərinin bir qrupu. Soldan: akademiklər Bəkir Nəbiyev, Budaq Budaqov, Z.Bünyadov, Toğrul Şahtaxtinski, Midhət Abbasov. SMF, № 6206.

96. Azərbaycan alimlərinin bir qrupu Bakıda 1 may münasibətilə keçirilən bayram şənliyində. Soldan: ön sırada - akademiklər Toğrul Şahtaxtinski, ?, Həsən Abdullayev, Vladimir Volobuyev. Arxa sırada - ?, İmam Mustafayev, Ziya Bünyadov. SMF, № 6636.

97. Ziyafət məcslisində. Soldan: şərqşünas Rəhim Qazi, Z.Bünyadov, akademiklər İqrar Əliyev, İmam Mustafayev. SMF, № 6118.

98. Z.Bünyadov və bəstəkar Fikrət Əmirov. SMF, № 6105.

99. Z.Bünyadov və maestro Niyazi. SMF, № 6211.

100. Soldan: ?, İbrahim İbrahimli, Z.Bünyadov, Məmməd Əfşan, Tağı Xalisbəyli. SMF, № 6188.

101. Ziyafət məclisində. Soldan: akademik Həsən Abdullayev, ?, akademik İsmayıl İbrahimov, akademik Faiq Bağırzadə, şeyxülislam Allahşükür Paşazadə, Z.Bünyadov. SMF, № 6172.

102. Soldan: Şamil Axundov, Z.Bünyadov, ?. SMF, № 6171.

103. Z.Bünyadov bir qrup şəxslə. SMF, № 6151.

104. Z.Bünyadov bir qrup şəxslə. SMF, № 6154.

105. Z.Bünyadov bir qrup şəxslə. SMF, № 6160.

106. Z.Bünyadov bir qrup şəxslə. SMF, № 6165.

107. Z.Bünyadov bir qrup şəxslə. SMF, № 6183.

108. Z.Bünyadov bir qrup şəxslə. SMF, № 6208.

109. Z.Bünyadov məktəblilərlə görüşdə. SMF, № 6152.

110. Z.Bünyadov və ərəb tədqiqatçısı Nəsrəddin Farfur. SMF, № 6144.

111-113. Z.Bünyadov bir qrup şəxslə İordaniyanın paytaxtı Əmman şəhərində. SMF, № 6098-6100.

114. Z.Bünyadov bir qrup şəxslə İordaniyada. 21 iyul 1988. SMF, № 6166.

115. Z.Bünyadov Daşkənddə "Quliston" jurnalının redaksiyasında. 24 sentyabr 1986. SMF, № 2524.

116. Z.Bünyadov "Quliston" jurnalının redaktoru Mirmuhsinlə. Daşkənd, 24 sentyabr 1986. SMF, № 6115.

117. Z.Bünyadov Dağıstanın Mahaçqala şəhərində keçirilən konfransda. SMF, № 2634.

118. Z.Bünyadov (sağdan beşinci) alimlərin bir qrupu ilə. Azərbaycan EA-nın binası qarşısında. SMF, № 6173.

